# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ OTUZ DÖRDÜNCÜ KİTAB

## FEVRAL 2024 - MART 2024

AZƏRNƏŞR
BAKI - 2024

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR ✵ NİTQLƏR

BƏYANATLAR ✵ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✵ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2024

**ƏLİYEV İLHAM**
**İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2024, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının ölkəmizin müstəqilliyi dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçirilən Prezident seçkilərində qazandığı qələbə münasibətilə bir çox dövlət və hökumət rəhbərlərinin, beynəlxalq təşkilatların və ayrı-ayrı nüfuzlu şəxslərin göndərdiyi təbrik məktubları yer almışdır.

Bu cilddə eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Milli Məclisdə tarixi andiçmə mərasimində geniş nitqi, Münhen Təhlükəsizlik Konfransında çıxışı, Prezident seçkilərindən sonra qardaş Türkiyə Respublikasına ilk rəsmi səfəri zamanı keçirdiyi görüşlərə dair materiallar toplanmışdır.

Oxucular, həmçinin Azərbaycan Prezidentinin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində keçirilən iclasda geniş nitqi, Xocalıya səfəri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü və Xankəndi şəhərində tonqal ətrafından Novruz bayramı münasibətilə Azərbaycan xalqına müraciəti ilə də bu cilddə tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

© Azərnəşr, 2024

## ALBANİYA HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ SƏDRİ KOL NİKOLAYDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Albaniya Həmkarlar İttifaqları Konfederasiyası adından və şəxsən öz adımdan Sizə qardaşlıq salamlarımızı və səmimi təbriklərimizi çatdırırıq. Biz çox sevinirik ki, Siz bundan sonra da Azərbaycan xalqına rəhbərlik edəcək, ölkənizin müstəqilliyinin daha da möhkəmləndirilməsi, iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətinizi davam etdirəcəksiniz.

İnanırıq ki, Sizin yenidən Azərbaycan Prezidenti seçilməyiniz ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlığı möhkəmləndirəcək və daha yüksək səviyyəyə qaldıracaq.

Fürsətdən istifadə edərək, qarşıdakı illərdə Sizə və Azərbaycan xalqına uğurlar, tərəqqi və əmin-amanlıq arzulayıram.

**RUSİYANIN «DOVERİYA» PREZİDENT KLUBUNUN ƏLAQƏLƏNDİRMƏ ŞURASININ SƏDRİ NİKOLAY TARAKANOV VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ VİKTORİYA LAZİÇDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

2024-cü il fevralın 7-də Azərbaycan Respublikası və onun hər bir vətəndaşı üçün əlamətdar hadisə oldu, növbədənkənar Prezident seçkiləri keçirildi. «Doveriya» Prezident klubu Sizi inamlı qələbəniz münasibətilə təbrik edir və ali dövləti vəzifənizdəki fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayır.

Siz Azərbaycanın tarixinə öz adınızı qızıl hərflərlə yazmısınız. Sizi nüfuzlu, müdrik və uzaqgörən siyasətçi, mükəmməl strateq, dəqiq və dərin təfəkkürə malik parlaq peşəkar dövlət başçısı kimi tanıyırlar. Siz ölkənizi onun maraqları ilə hamının hesablaşmalı olduğu böyük, güclü, qüdrətli dövlətə çevirmisiniz. Bu gün Azərbaycanda bütün nailiyyətlər Sizin adınızla bağlıdır və bu nailiyyətlər çox prinsipial, məsuliyyətli mövqeniz sayəsində əldə edilib.

Xahiş edirik Azərbaycanın rifahı naminə ən xoş arzularımızı qəbul edəsiniz. Sizə uzun ömür, əmin-amanlıq, xoşbəxtlik, ölkənizin maraqlarının qorunmasında və vətəndaşlarınızın mənafelərinin təmin edilməsində uğurlar diləyirik.

**BİRLƏŞMİŞ NÜVƏ TƏDQİQATLARI İNSTİTUTUNUN DİREKTORU QRİQORİ TRUBNİKOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun rəhbərliyi və beynəlxalq kollektivi adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik edim.

Sizin növbədənkənar Prezident seçkilərində qazandığınız qələbə ölkənin, o cümlədən milli elmin və beynəlxalq əlaqələrin dinamik inkişafı üzrə həyata keçirdiyiniz kursa geniş xalq dəstəyinin göstəricisidir.

Fürsətdən istifadə edərək bildirirəm ki, Sizin rəhbərliyiniz altında və hərtərəfli dəstəyiniz sayəsində respublikada aparılan elmi tədqiqatlar yüksək və dayanıqlı inkişaf templəri nümayiş etdirir. Bu tendensiya Azərbaycanın alimləri və gənc mütəxəssislərinin bizim institutun bazasında həyata keçirilən irimiqyaslı beynəlxalq layihələrdə uğurlu iştirakında da öz təsdiqini tapır.

Əminəm ki, gələcəkdə də elmi tərəfdaşlığımızın möhkəmləndirilməsi kadrların hazırlanması üçün istiqamət spektrlərini genişləndirməyə, Azərbaycanın və Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna digər üzv dövlətlərin maraqlarına uyğun fundamen-

tal və tətbiqi tədqiqatların aparılmasına imkan verəcəkdir.

Möhtərəm cənab Prezident! Sizə möhkəm cansağlığı və xalqınızın rifahı naminə böyük uğurlar, Azərbaycan Respublikasının vətəndaşlarına isə sabitlik, sülh və əmin-amanlıq arzulayıram.

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ŞEYX MƏŞƏL ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən dost Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimiqəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək, dost ölkələrimizi birləşdirən sıx əlaqələrdən məmnunluğumuzu ifadə edirəm. Bu əlaqələrin ölkələrimizin ortaq mənafeyi naminə daha da inkişaf etdirilməsi və gücləndirilməsinə olan əzmimizi bir daha vurğulayıram.

Zati-aliləri! Sizə cansağlığı və uğurlar, Azərbaycan Respublikasına və xalqına davamlı inkişaf və tərəqqi arzulayıram.

Dərin hörmət və ehtiramımı qəbul edin.

## BƏHREYN KRALLIĞININ VƏLİƏHDİ VƏ BAŞ NAZİRİ SALMAN BİN HƏMƏD AL XƏLİFƏDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və xalqınızın Sizə etimadının bir daha təsdiqi münasibətilə zati-alinizə səmimi təbriklərimizi və xeyir-duamızı çatdırmaqdan məmnunuq.

Bəhreyn Krallığı ilə Azərbaycan Respublikası arasında bizim də diqqət verdiyimiz və yüksək qiymətləndirdiyimiz ikitərəfli münasibətlərə görə Sizə dərin təşəkkürümüzü ifadə edirik. Ölkələrimizin və xalqlarımızın maraqları naminə bu münasibətləri bütün sahələrdə inkişaf etdirmək istiqamətində zati-alinizlə işləməyə ümid edirik.

Sizə möhkəm cansağlığı, səadət, dost Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

**VYETNAM PREZİDENTİ
VO VAN TXIONQDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Vyetnam Sosialist Respublikasının dövləti və xalqı adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Vyetnam Sizin rəhbərliyinizlə ölkənin quruculuq və inkişafı işində Azərbaycan xalqının əldə etdiyi nailiyyətləri maraqla izləyir və buna görə sevinir.

Tam əminəm ki, Vyetnam və Azərbaycan arasında ənənəvi dostluq, bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq getdikcə daha da möhkəmlənəcək, inkişaf edəcək və bu, iki xalqın istəklərinə və maraqlarına cavab verəcək.

Cənab Prezident! Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və şərəfli vəzifənizdə çoxlu qələbələr arzulayıram.

## QIRĞIZ RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏDR MÜAVİNİ, DÖVLƏT MİLLİ TƏHLÜKƏSİZLİK KOMİTƏSİNİN SƏDRİ KAMÇIBEK TAŞİYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qazandığınız inamlı qələbə ümumxalq etimadın və Azərbaycan dövlətinin fəaliyyətinin bütün sahələrinin hərtərəfli inkişafına, ölkənizin beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə, regional və qlobal təhlükəsizliyin təminatına yönələn kursun parlaq sübutudur.

Qırğızıstanla Azərbaycanı çoxəsrlik sıx dostluq telləri bağlayır. Bizim dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Biz Qırğızıstan–Azərbaycan hərtərəfli əməkdaşlığının genişlənməsində Sizin şəxsi töhfənizi yüksək dəyərləndiririk.

Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi üzrə birgə səylərimiz bundan sonra da qardaş xalqlarımızın və ölkələrimizin maraqlarına, regionda sülhə, təhlükəsizliyə və tərəqqiyə kömək edəcəkdir.

Möhtərəm Prezident! İcazə verin, Sizə möhkəm cansağlığı, səadət, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar və nailiyyətlər, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzu edim.

## BEYNƏLXALQ RUSDİLLİ VƏKİLLƏR ASSOSİASİYASININ PREZİDENTİ, BEYNƏLXALQ RUSİYALI HƏMVƏTƏNLƏR ŞURASININ SƏDRİ HƏSƏN MİRZƏYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının, Rusiya Vəkillər Gildiyasının, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ümumxalq səsverməsinin nəticələri Sizin çoxprofilli islahatlar kursunuza tam etimadın parlaq nümunəsi və milli birlik, ərazi bütövlüyü, dövlətin dinamik inkişafının təmin edilməsində xidmətlərinizin qiymətləndirilməsi oldu.

Azərbaycan Sizin səmərəli rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla addımlayır və aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir. Azərbaycan ilə Rusiya, iki dövlətin başçıları arasında etimada, qarşılıqlı hörmətə, anlayışa və dəstəyə əsaslanan əlaqələrin olması bizi sevindirir. Rusiya və Azərbaycan xalqlarının münasibətləri qədim tarixə malikdir və zamanın sınağın-

dan keçib. İki xalq arasında dostluq körpüləri möhkəm və sarsılmazdır, ortaq mədəni və tarixi dəyərlərə, həmçinin sıx iqtisadi və siyasi əlaqələrə əsaslanır.

Sevindirici haldır ki, Siz atanızın – Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin layiqli davamçısısınız, onun Azərbaycanın inkişafı ilə bağlı ideyalarını həyata keçirirsiniz. Bir soydaş kimi, mən bununla fəxr edirəm.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm can-sağlığı, tükənməz enerji, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

## BÖYÜK BRİTANİYANIN
## BAŞ NAZİRİ RİŞİ SUNAKDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsində səlahiyyətlərinizin icrasına başlamağınız münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

Ötən 30 ildən artıq müddətdə ölkələrimiz arasındakı münasibətlər daha da güclənib. Təkcə son 12 ay ərzində biz Ukraynaya dəstək vermək üçün birgə işləmişik, Londonda strateji dialoqumuzu aparmışıq, minalardan təmizlənmə üzrə təcrübəmizi bölüşmüşük və ticarət əlaqələrimizi qurmağa davam etmişik.

2024-cü il Azərbaycan üçün daha çox əhəmiyyət kəsb edir, çünki siz noyabrda COP29-a ev sahibliyi etməyə hazırlaşırsınız. Enerji keçidlərini irəliyə aparmaq və qlobal emissiyaları azaltmaq baxımından bu, həyati əhəmiyyətli bir məqamdır. Məmnuniyyətlə bildirmək istəyirəm ki, biz artıq COP26-nın ev sahibi kimi, öz dəstəyimizi və təcrübəmizi təklif edirik. COP29-un uğurla keçirilməsi üçün sizə dəstək verəcəyimizə əmin ola bilərsiniz.

Mən həmçinin Ermənistanla sülh əldə etmək istiqamətində göstərilən səylər barədə də məlumatlıyam. Bu, münaqişəyə son qoymaq üçün tarixi bir şansdır. Mən davamlı müqavilənin hər iki ölkənin və ümumilikdə bütün regionun rifahı və sabitliyi üçün gətirəcə-

yi böyük faydaları yüksək qiymətləndirirəm. Davamlı sülhə nail olunmasında hər iki ölkəyə Böyük Britaniyanın davamlı dəstəyini bir daha vurğulayıram.

Yeni səlahiyyət müddətinizdə Sizə uğurlar arzulayır və tərəfdaşlığımızı daha da möhkəmləndirmək üçün Sizinlə işləməyi səbirsizliklə gözləyirəm.

## ALMANİYANIN KANSLERİ OLAF ŞOLSTDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının dövlət başçısı seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Almaniya bundan sonra da Azərbaycana modernləşmə kursunda və hüquqi dövlətçilik strukturlarının möhkəmləndirilməsi yolunda dəstək verməyə hazırdır.

Sizinlə Münhen Təhlükəsizlik Konfransında görüşəcəyimizə şadam.

Ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

## İSRAİL PREZİDENTİ İSHAQ HERSOQDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Sizin liderliyinizlə Azərbaycan 20 il ərzində sabitliyi, iqtisadi inkişafı və dini azadlığı təmin etməyə və qorumağa nail olub. Əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz ölkəniz üçün bundan sonra da parlaq və firavan gələcəyi təmin edəcək.

İsrail Dövləti Azərbaycan Respublikası ilə münasibətləri yüksək dəyərləndirir. Bizim ikitərəfli əlaqələrimiz təhlükəsizlik, çox vacib iqtisadi və siyasi faydalar təmin edir. Biz bu möhkəm və davamlı tərəfdaşlığa sadiqliyimizi bildiririk.

Mən Azərbaycan və İsrail arasında əlaqələrin daha da inkişafı və möhkəmlənməsi üçün Sizinlə birgə işləmək imkanına görə şəxsən minnətdarlığımı bildirirəm. Keçən il Sizin gözəl ölkənizə səfərimiz zamanı Mixala və mənə göstərdiyiniz səmimi qonaqpərvərliyi yüksək qiymətləndirirəm.

Gələcək illərdə qarşılıqlı maraqlarımıza dəstək olaraq ölkələrimiz arasındakı münasibətləri dərinləşdirməyə davam etmək istiqamətində Sizinlə işləməyi səbirsizliklə gözləyirəm.

**YAPONİYANIN BAŞ NAZİRİ FUMİO KİŞİDADAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə Yaponiya hökuməti və Yaponiya xalqı adından səmimi təbriklərimi çatdırıram.

Azərbaycan beynəlxalq enerji təhlükəsizliyi üçün önəmli rola malik ölkə olmaqla yanaşı, regionun sabitliyinin və inkişaf açarının sahibidir. 2022-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü qeyd edilmişdir.

Diplomatik münasibətlər qurulandan sonra hökumətlərarası dialoqlar başda olmaqla, yüksək səviyyəli səfərlər, parlamentlərarası, həmçinin regionlarda yerli özünüidarəetmə orqanları arasındakı münasibətlər, iqtisadi və ekoloji sahədə əməkdaşlıq və digər istiqamətlərdə əlaqələr fəallaşmaqdadır.

Yaponiya və Azərbaycan arasındakı önəmli münasibətlərin bundan sonra daha da inkişaf etdirilməsi üçün zati-alinizlə əməkdaşlıq etmək niyyətindəyəm.

Azərbaycana, eləcə də Azərbaycan xalqına ürəkdən firavanlıq arzu edirəm.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ANTONİO QUTERREŞDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırıram.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Konfransına 2024-cü ildə ev sahibliyi edən ölkə kimi, Azərbaycan iqlim böhranı ilə bağlı beynəlxalq təşəbbüslərə rəhbərlik etməkdə xüsusi rol oynayacaq.

Mən Sizin rəhbərliyinizlə Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsini, o cümlədən regionda uzunmüddətli sülhün və təhlükəsizliyin bərqərar olunmasını səbirsizliklə gözləyirəm.

Birləşmiş Millətlər Təşkilatı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda və çoxtərəfliliyin gücləndirilməsində Azərbaycan hökumətinə və xalqına Bakıdakı nümayəndəliyi vasitəsilə dəstək verməyə hazırdır.

## MALTA PREZİDENTİ CORC VELLADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbriklərimi çatdırım.

1995-ci ildə diplomatik əlaqələr qurulandan bəri Malta Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər yüksək səviyyədə inkişaf etmişdir. Ölkələrimiz qarşılıqlı hörməti və mehriban dostluğu daha da gücləndirməklə yanaşı, sıx əməkdaşlığı və dərin anlaşmanı inkişaf etdirmişlər. Əminəm ki, ölkələrimizin xalqlarının ümumi mənafeyi naminə Malta ilə Azərbaycan arasında mövcud olan çoxillik əlaqələr ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsi üçün nəzərdə tutulan yeni sahələrin araşdırılması yolu ilə möhkəmləndirilə bilər.

Mən həmçinin ölkələrimizin çoxtərəfli səviyyədə, xüsusən də Birləşmiş Millətlər Təşkilatında ümumi üzvlüyümüz vasitəsilə əlaqələrinin səmərəli inkişafını yüksək qiymətləndirirəm. Bundan əlavə, Malta Respublikası «Şərq Tərəfdaşlığı» kimi regional dialoq çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında sıx və strateji tərəfdaşlığın davamlı tərəfdarı olaraq qalır.

Zati-aliləri! Fürsətdən istifadə edərək, Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayır və ən yüksək ehtiramımı çatdırıram.

## TÜRKİYƏNİN CÜMHURİYYƏT XALQ PARTİYASININ SƏDRİ ÖZGÜR ÖZƏLDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Zati-alinizi yenidən Prezident seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin liderliyinizlə can Azərbaycanda rifahın yüksəlməsinə, bölgəmizdə sülhün və sabitliyin möhkəmlənməsinə nüfuzlu təsirinizin davam edəcəyinə əminik.

Cümhuriyyət Xalq Partiyası olaraq Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi üçün «Bir millət – iki dövlət» prinsipi çərçivəsində dəstəyimizin və səylərimizin davam etdirilməsi istiqamətində qətiyyətimizi xüsusilə vurğulamaq istəyirəm.

Fürsətdən istifadə edərək, Sizə ən xoş arzularımızı çatdırıram. Xalqlarımız arasındakı qardaşlıq və dostluq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminəm.

## QAZAXISTANIN BİRİNCİ PREZİDENTİ NURSULTAN NAZARBAYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu qələbə əhalinin rifahının yüksəlməsinə, sosial təminatının gücləndirilməsinə, eləcə də bir çox digər önəmli məsələlərə istiqamətlənən islahat proqramlarınızın xalq tərəfindən dəstəklənməsinin kulminasiya nöqtəsidir. Siz dövlət başçısı vəzifəsində nəhəng işlər görmüsünüz və Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizi davam etdirirsiniz.

Mənim Sizə və Sizin ölkənizə xüsusi münasibətimin olduğunu bilirsiniz. Dostluğumuzu və qarşılıqlı etimadımızı yüksək dəyərləndirirəm.

Əziz İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, hər zaman ruh yüksəkliyi və qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı bildirməkdən məmnunam.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan Respublikasının Hökumətinə və xalqına tərəqqi və firavanlıq arzulayıram.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAYIN ƏMİRİ ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD AL MƏKTUMDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Növbədənkənar Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Zati-aliləri! Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan Respublikasının Hökumətinə və xalqına inkişaf və firavanlıq arzulayıram.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİN MÜAVİNİ, PREZİDENT İŞLƏRİ NAZİRİ MANSUR BİN ZAİD ƏL-NƏHYANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə daha möhtəşəm uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan Respublikasının Hökumətinə və xalqına isə firavanlıq diləyirəm.

**OMAN SULTANI HEYTƏM BİN TARİQ AL SƏİDDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Sizin yeni prezidentlik dövrünüzdə xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərimizi daha da gücləndirmək niyyətimizi bir daha bildirirəm.

Dost Azərbaycanın və onun xalqının daha çox tərəqqi və firavanlığı naminə fəaliyyətinizdə Sizə uğurlar arzu edirəm.

## MONTENEQRONUN SABİQ PREZİDENTİ MİLO CUKANOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Növbədənkənar Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Bu seçkilərin nəticələri Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikasının gələcəkdə daha da inkişafının təminatıdır.

İnanıram ki, ölkələrimiz arasında illər əvvəl möhkəm təməllər üzərində əsasını qoyduğumuz qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri daha da möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsuliyyətli vəzifənizdə uğurlar arzu edirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## TÜRKİYƏNİN «GAP İNŞAAT» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU VƏ İDARƏ HEYƏTİNİN ÜZVÜ LEVƏNT KAFKASLIDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Bu qələbəniz Azərbaycan xalqının Sizə olan inam və etimadının əyani göstəricisidir. Sizin rəhbərliyiniz altında ölkənin inkişafı, firavanlığı, əmin-amanlığı istiqamətində əldə olunan nailiyyətlər hər kəs tərəfindən yüksək qiymətləndirilir. Yeni prezidentlik müddətinizdə Sizin daha çox uğur əldə edəcəyinizə və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artıracağınıza inanıram.

Sizə uzun ömür, cansağlığı, tükənməz enerji, Azərbaycanın daha parlaq gələcəyi, xalqın rifahının yüksəlməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

## BRİTANİYALI JURNALİST VƏ REDAKTOR NEYL VATSONDAN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!

Sizi Prezident seçkilərindəki qələbəniz münasibətilə təbrik edirəm. Bu qələbə Sizin Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, İkinci Qarabağ müharibəsində Qarabağı işğaldan azad etməklə və ötən il mərkəzi Xankəndidə olan qeyri-qanuni rejimə son qoymaqla əldə etdiyiniz nailiyyətlərin təsdiqidir. İlk dəfə ölkənin bütün ərazisində keçirilmiş ümummilli seçkilərdə milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşları öz seçki hüququndan istifadə etdilər.

Əminəm ki, çox yaxın gələcəkdə Siz Ermənistanla sülh müqaviləsi bağlayacaq, ölkənizi daha böyük uğurlara istiqamətləndirəcək və bütün Cənubi Qafqazda sülhə və həmrəyliyə nail olacaqsınız.

Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm.

**TÜRK–ƏRƏB ÖLKƏLƏRİ ƏMƏKDAŞLIQ DƏRNƏYİNİN BAŞ DİREKTORU, TUNİSİN İZMİRDƏKİ FƏXRİ KONSULU SƏBUHİ ATTARDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində yenidən zəfər qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Prezidentliyinizin yeni dönəmində də uğurlarınızla ölkənizi daha da inkişaf etdirməyinizi və firavanlaşdırmağınızı arzulayıram.

**UEFA-nın PREZİDENTİ
ALEKSANDR ÇEFERİNDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Avropa futbol ictimaiyyəti adından ürəkdən təbrik edirəm.

Seçkilərdə yenidən qazandığınız inamlı qələbə Azərbaycan xalqının Sizə göstərdiyi etimad və inamın bariz sübutudur. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı müxtəlif sahələrdə, o cümlədən idman və futbolda böyük nailiyyətlər əldə edib. Futbola göstərdiyiniz yüksək qayğıya görə Sizə təşəkkürümü bildirirəm. Bundan əlavə, Bakı UEFA-nın «Avro–2020»nin həlledici oyunlarına ev sahibliyi edərkən hər kəsin əsl həyəcan hissləri keçirdiyini xatırlatmaq istəyirəm.

Bildiyiniz kimi, 30 il əvvəl – 1994-cü ildə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası UEFA-nın üzvü seçilib. Hökumətin dəstəyi və milli assosiasiyanın fəaliyyəti sayəsində Azərbaycanda futbol bütün səviyyələrdə davamlı olaraq inkişaf edir. Futbol infrastrukturu inkişaf edir və bu, oyunlara yeni yanaşmaları təmin edir.

Cənab Prezident! Bu çox gözəl ölkəyə və xalqa liderliyinizi davam etdirməyiniz münasibətilə ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

## RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASI DƏRBƏND ŞƏHƏR DEPUTATLAR MƏCLİSİNİN SƏDRİ HƏSƏN MİRZƏYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edim. 2024-cü il fevralın 7-də mən Prezident seçkilərində Rusiya Federasiyasından beynəlxalq müşahidəçi qismində iştirak edirdim. Seçkilər açıq, şəffaf, demokratik, yüksək hüquqi və təşkilatı səviyyədə, beynəlxalq standartlara və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun keçirildi. Azərbaycan vətəndaşları səsvermədə fəal iştirak edərək, özlərinin seçmək hüququnu həyata keçirdilər.

Cənab Prezident! Siz Azərbaycanın ümummilli lideri, dünya miqyaslı siyasətçi, ölkənin inkişafına böyük töhfələr vermiş Heydər Əliyevin siyasi kursunun layiqli davamçısısınız. Fürsətdən istifadə edərək bildirirəm ki, Rusiya ilə Azərbaycanı tarixən qədim qonşuluq və qarşılıqlı etimad münasibətləri birləşdirir. Xalqlarımızın dostluğunun, eləcə də ümumi tarix və mədəniyyətinin dərin kökləri vardır. Dağıstan və Azərbaycan xalqlarını isə həm də İkinci dünya müha-

ribəsi illərində döyüş meydanlarında özünü daha bariz göstərmiş çoxəsrlik qardaşlıq bağları birləşdirir.

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində Sizə möhkəm cansağlığı, uğurlar arzulayıram. İnanıram ki, Rusiya ilə Azərbaycan arasındakı dostluq münasibətləri xalqlarımızın rifahı naminə gələcək əməkdaşlıq üçün möhkəm zəmin olacaqdır.

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İNSAN HÜQUQLARI KOMİSSİYASININ SƏDRİ, RUSİYA FEDERASİYASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ TATYANA MOSKALKOVADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin seçkilərdə inamlı qələbəniz xalq arasında siyasi nüfuzunuzun yüksək səviyyədə olduğunu sübut etdi. Əminəm ki, dövləti fəaliyyətiniz gələcəkdə də insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi naminə Rusiya–Azərbaycan tərəfdaşlığının, Müstəqil Dövlətlər Birliyi çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək edəcəkdir.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

## AVRASİYA YƏHUDİ KONQRESİNİN PREZİDENTİ MİXAİL MİRİLAŞVİLİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Avrasiya Yəhudi Konqresi adından və şəxsən öz adımdan Sizi Prezident seçkilərində inamlı qələbəniz münasibətilə təbrik edim. Azərbaycan vətəndaşlarının geniş dəstəyi Sizin dövlət başçısı vəzifəsində əvvəlcədən seçdiyiniz yolun – respublikanın və onun vətəndaşlarının inkişafı, rifahı naminə kursun uğurlu olmasını təsdiq edir. Sizə Azərbaycan xalqının rifahı naminə məhsuldar fəaliyyət, respublikanın beynəlxalq və regional statusunun gələcəkdə də möhkəmləndirilməsini arzulayıram.

Azərbaycan nüfuzlu, tolerant, multikultural və çoxkonfessiyalı dövlət statusunu ardıcıl olaraq sübut edir. Bir tərəfdən, ənənələrin və tarixi irsin vəhdəti, digər tərəfdən, müasir dünya dəyərlərinə açıq münasibət təkcə düşünülmüş daxili siyasət yürütməyə deyil, həm də xarici əlaqələri möhkəmləndirməyə imkan verir. Bu gün Azərbaycan öz beynəlxalq mövqelərini sürətlə gücləndirir və dünya miqyasında əməkdaşlıq üçün ən yüksək səviyyədə platformaya çevrilir.

Cənab Prezident! İsrail Dövləti ilə ikitərəfli münasibətlərin inkişafı üzrə fəal mövqenizə görə Sizə minnətdarıq. Avrasiya Yəhudi Konqresi onilliklər ərzində ardıcıl olaraq İsrail–Azərbaycan əməkdaşlığının müx-

təlif sahələrdə inkişafına töhfə verir, respublikanın ərazisində yəhudilərin həyat tərzini dəstəkləyir və yəhudi mədəni irsini qoruyur. Ötən il Konqresin himayəsi ilə Avrasiya Yəhudi Tədqiqatları İnstitutu «Azərbaycan yəhudiləri və dağ yəhudiləri diasporu XXI əsrin ikinci və üçüncü onillikləri astanasında» monoqrafik hesabatını dərc edib.

Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə və bütün Azərbaycan xalqına xoşbəxtlik, tərəqqi, sülh və əmin-amanlıq arzulayıram.

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ, ASİYA VƏ SAKİT OKEAN ÜZRƏ İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ İCRAÇI KATİBİ ARMİDA SALSİYA ALİŞAHBANADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) katibliyi adından zati-alinizə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

UNESCAP-ın Azərbaycan hökuməti ilə davamlı inkişaf və regional əməkdaşlıq sahələrində uzunmüddətli işbirliyi mövcuddur. Bu fürsətdən istifadə edərək, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün xüsusi proqramının – SPECA-nın 2023-cü ilin noyabrında Bakıda sammitinin çox yüksək səviyyədə təşkilinə və bizə göstərilən səmimi qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Mən tam əminəm ki, Sizin müdrik liderliyinizlə səmimi münasibətlərimiz daha da inkişaf edəcək və güclənəcəkdir.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI
SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDDAN**

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə uğurlar, qardaş xalqınıza isə daha artıq inkişaf və çiçəklənmə arzulayıram.

Zati-alinizə xoş arzu və ehtiramımızı bildiririk.

**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİR MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDDAN**

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə daha çox tərəqqi və inkişaf diləyirəm.

Zati-alinizə hörmət və ehtiramla.

## NEFT İXRAC EDƏN ÖLKƏLƏR TƏŞKİLATININ (OPEC) BAŞ KATİBİ HAYSAM ƏL-QAYSDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) adından və şəxsən öz adımdan yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuram. Seçkilərdə qələbəniz zati-alinizin müdrik liderliyinin təsdiqidir. Mən növbəti səlahiyyət müddətinizdə Sizə davamlı uğurlar arzulayıram.

Azərbaycan Respublikası neft hasil edən vacib ölkə kimi mühüm rola malikdir, OPEC və qeyri-OPEC ölkələrinin Əməkdaşlıq Bəyannaməsinin əsas üzvüdür. Biz ümumi məqsədlərimizə nail olunmasında və qarşıdakı illərdə qlobal neft və enerji sənayesinin qarşısında duran çağırışların həllində ölkənizlə əməkdaşlığı davam etdirməyə ümidvarıq.

Biz həmçinin bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına Azərbaycanın ev sahibliyi edəcəyi ilə bağlı təbriklərimizi çatdırırıq. Bu tədbirdə OPEC də iştirak edəcək.

Cənab Prezident! İcazə verin, Sizi bir daha təbrik edim və zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirim.

## AVRASİYA İQTİSADİ KOMİSSİYASI KOLLEGİYASININ SƏDRİ BAKITCAN SAQİNTAYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik edirəm.

Seçkilərdə inamlı qələbəniz Azərbaycan xalqının Sizə yüksək etimadını və ölkənin sosial-iqtisadi inkişafı üzrə həyata keçirdiyiniz siyasətə tam dəstəyini təsdiq etdi.

Bu gün dövlət başçısı vəzifəsində Sizə haqlı olaraq milli lider mövqeyi qazandıran çoxillik məhsuldar fəaliyyətiniz sayəsində Azərbaycan müstəqil, müasir, güclü dövlətdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycana sülh və tərəqqi diləyirəm.

## DÜNYA KİKBOKSİNQ TƏŞKİLATLARI ASSOSİASİYASININ PREZİDENTİ ROY BEYKERDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Bu gün Azərbaycan dünyada sürətlə inkişaf edərək, öz vətəndaşları üçün böyük imkanlar yaradan, həmçinin davamlı tərəqqini təmin edən ölkə kimi tanınır. Bu tərəqqi Sizin Azərbaycanı daha güclü və qüdrətli dövlət etmək bacarığınızdan xəbər verir. İnanıram ki, yeni prezidentliyiniz dövründə Azərbaycan inkişafını davam etdirəcəkdir.

Sizin bütün sahələrə, xüsusilə də idman sahəsinə dəstəyinizi alqışlayıram. Azərbaycan bir çox mühüm idman tədbirlərinə, festivallara, xüsusilə də «Formula-1» yarışlarına ev sahibliyi edir. Buna görə Bakı bütün dünyada idmanın mərkəzi kimi tanınır.

Zati-aliləri! Sizə və ailə üzvlərinizə ən dərin ehtiramımı və xoş arzularımı bildirirəm.

.

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASINDAN OLAN DEPUTATI İBRAHİM KÖŞDƏRƏDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycanda keçirilmiş Prezident seçkilərində qələbə qazanaraq yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycanın inkişafı və xalqın rifahının yüksəlməsi, eləcə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərinizi xüsusi olaraq qeyd edirəm.

Sizi, dost və qardaş Azərbaycan xalqını bir daha təbrik edir, xoş arzularımı bildirirəm.

## MƏRAKEŞ KRALI VI MƏHƏMMƏDDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ölkənizi daha da inkişafa və firavanlığa doğru aparan fəaliyyətinizdə davamlı uğurlar arzulamaqdan böyük məmnunluq duyuram.

Mən ölkələrimiz arasında dostluğa söykənən və davamlı inkişaf edən əlaqələrdən çox məmnunam. Odur ki, iki qardaş ölkəmizin xalqlarının qarşılıqlı rifahı naminə müxtəlif sahələrdə səmərəli əməkdaşlığımızı möhkəmləndirmək üçün birgə fəaliyyətimizi davam etdirməyi səbirsizliklə gözləyirəm.

**KONQO PREZİDENTİ**
**DENİ SASSU-NQESSODAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Seçkilərdə inamlı qələbəniz, yenidən Prezident seçilməyiniz münasibətilə Konqo xalqı və dövləti adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan xüsusi məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm.

Bu baxımdan, ölkələrimiz üçün faydalı maraqlara uyğun olaraq münasibətlərimizin möhkəmləndirilməsi istiqamətində zati-alinizlə birgə işləməyə hazır olduğumu bir daha bildirirəm.

Sizə uzun ömür, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

Cənab Prezident! Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ JELKO KOMŞİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi ölkənizdə keçirilmiş Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Bosniya və Herseqovinanın vətəndaşları, Rəyasət Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Qarşıdakı dövrdə tərəfdaşlıq və dostluq münasibətlərinə söykənən əməkdaşlığımızın davam etməsini və Sizin Bosniya və Herseqovinaya səfəriniz zamanı imzaladığımız iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin həyata keçirilməsini səbirsizliklə gözləyirəm.

Möhtərəm Prezident! Sizi seçkilərdəki inamlı qələbəniz münasibətilə bir daha təbrik edir, Sizə, ailənizə və Azərbaycan Respublikasının vətəndaşlarına xüsusi ehtiramımı bildirir, möhkəm cansağlığı və yeni uğurlar arzulayıram.

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN ÜZVÜ DENİS BEÇİROVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə təbrik edirəm.

Uzun illərdir ki, ölkələrimiz arasında səmimiyyət və dostluq üzərində qurulmuş münasibətlər yaxşı əməkdaşlıqla səciyyələnir. İkitərəfli münasibətlərin ümumi maraq doğuran bütün sahələrdə bundan sonra da dostluq ruhunda inkişaf edəcəyinə inandığımı, ölkələrimizin və xalqlarımızın rifahı naminə tərəfdaşlığın qorunub saxlanılmasına və genişləndirilməsinə sadiq qaldığımı bildirirəm. Bu xüsusda mən Sizinlə yeni görüşlərimizi və əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm.

Zati-aliləri! Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı və ehtiramımı bildirirəm.

## TÜRKİYƏNİN HAK İŞÇİ SENDİKALARI KONFEDERASİYASININ BAŞ DİREKTORU MAHMUD ARSLANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycanda keçirilmiş seçkilərdə qalib gələrək yenidən Prezident seçilməyiniz münasibətilə zati-alinizi Hak İşçi Sendikaları Konfederasiyası adından təbrik edir, seçkilərin nəticələrinin dost və qardaş Azərbaycan xalqı və bölgəmiz üçün xeyirli olmasını diləyirəm.

Konfederasiyamız «Bir millət – iki dövlət» şüarı ilə Türkiyə və Azərbaycanın həmkarlar ittifaqları arasında əməkdaşlığın inkişafını ölkələrimizin ictimai əlaqələrinin və tərəqqinin bir vasitəsi hesab edir. Bu əməkdaşlığın həm ölkələr arasındakı dostluğu daha da möhkəmləndirəcəyinə, həm də davamlı inkişaf hədəfinə töhfə verəcəyinə inanırıq.

Cənab Prezident! Sizin uğurlu fəaliyyətinizin Azərbaycan xalqına tərəqqi, rifah və əmin-amanlıq gətirməkdə davam edəcəyinə inanırıq.

## TÜRKİYƏ VƏKİLLƏR KOLLEGİYASININ SƏDRİ ERİNÇ SAĞKANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi Türkiyə Vəkillər Kollegiyasının İdarə Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən və fəaliyyətinizdə uğurlar arzulamaqdan məmnunluğumu bildirirəm.

İnanıram ki, ölkələrimizin daha parlaq, firavan gələcəyi naminə dostluq və qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirmək üçün yeni fəaliyyətiniz dövründə də səylərinizi davam etdirəcəksiniz. Həmçinin ölkələrimizdə vəkillik fəaliyyətinin inkişafı, qanunun aliliyinin və insan haqlarının qorunması istiqamətində görülən işlərin bundan sonra da davam etdiriləcəyinə əminəm.

Azərbaycan və Türkiyə xalqları arasındakı münasibətlərin tarixi uzaq keçmişə gedib çıxır. Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımız ortaq mədəni mirasa sahibdir.

Cənab Prezident! Seçkilərdə qələbəniz münasibətilə Sizi bir daha təbrik edir, qardaş Azərbaycana uğurlar arzulayıram.

**İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI GƏNCLƏR FORUMUNUN AVRASİYA REGİONAL MƏRKƏZİNİN İDARƏ HEYƏTİNDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırır və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq.

2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏTGF) təsis edilməsi ilə bağlı Baş Assambleyanın keçirilməsinə mühüm dəstəyiniz İƏT ölkələri gənclərinin inkişafı və birliyinin gücləndirilməsində zati-alinizin qəti mövqeyinin göstəricisidir. 2010-cu ildə Azərbaycan hökuməti tərəfindən İslam Əməkdaşlıq Təşkilatına bağlı beynəlxalq qurum kimi İƏTGF-nin Avrasiya Regional Mərkəzinə Bakıda ev sahibliyinin edilməsi və dəstəklənməsi regionumuzun liderləri üçün gözəl nümunədir. Zati-alinizin İƏTGF-nin beynəlxalq təşkilat kimi yaradılması və institusionallaşması üçün verdiyi dəstəkdən qürur duyur, bunu Azərbaycan Respublikasının İƏT-ə mühüm töhfəsi hesab edirik. Biz İƏTGF Avrasiya Regional Mərkəzinin İdarə Heyəti olaraq, zati-alinizin etimadı, dəstəyi və qardaş Azərbaycana rəhbərliyi ilə

fəxr edir və davamlı olaraq bu etimadı doğrultmaq üçün çalışırıq.

Sizin Azərbaycanda 2017-ci ili «İslam Həmrəyliyi ili» elan etməyiniz və həmin il Bakıda İslam Həmrəyliyi oyunlarının keçirilməsi islam coğrafiyası üçün mühüm hadisələrdən biri idi.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycanın bütün əraziləri üzərində tam suverenliyini və hüquqi nəzarətini bərpa etməsi təkcə Azərbaycan tarixində deyil, islam ölkələri tarixində də son 200 ildə əldə edilmiş ilk və böyük uğurdur.

Şuşa şəhərinin bu il islam dünyasının mədəniyyət paytaxtı və İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı seçilməsi Sizin müsəlman dünyasında nüfuzunuzun bariz göstəricisidir. İnanırıq ki, bu il Azərbaycan, xüsusilə Şuşa şəhəri müsəlman gənclərinin həmrəylik mərkəzinə çevriləcəkdir.

Möhtərəm Prezident! İƏT ölkələrinin həmrəyliyinə dəstək verən və qardaş Azərbaycanı inkişaf etdirən fəaliyyətinizə görə Sizə təşəkkür edir, ən xoş arzularımızı bildirmək şərəfinə nail oluruq.

Zati-alinizi bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, uğurlar diləyirik. Ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

## BMT-nin AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ VLADANKA ANDREYEVADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və vəzifənizi icra etməyə başlamağınız münasibətilə BMT-nin Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu fürsətdən istifadə edərək, BMT-nin Azərbaycandakı nümayəndəliyinin 2021–2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinə uyğun olaraq, Azərbaycanın dayanıqlı inkişafla bağlı milli prioritetlərini dəstəkləməyə davamlı sadiqliyini bildirirəm. Biz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsində Azərbaycana dəstəyimizi təklif edirik.

Azərbaycan Respublikası Hökuməti və BMT-nin Azərbaycandakı nümayəndəliyi arasında tərəfdaşlıq və əməkdaşlığın bundan sonra da davam edəcəyinə inanıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**BMT İNKİŞAF PROQRAMININ AZƏRBAYCANDAKI REZİDENT NÜMAYƏNDƏSİNİN SƏLAHİYYƏTLƏRİNİ İCRA EDƏN ALESSANDRA ROKKASALVODAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycan nümayəndəliyindəki həmkarlarım adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi və arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Bu qələbə ölkənin inkişafına və Azərbaycan xalqının rifahına xidmət edən uğurlu rəhbərliyinizin və uzaqgörənliyinizin bariz göstəricisidir.

Sizi bir daha əmin etmək istərdim ki, BMT İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyi Dayanıqlı İnkişaf üzrə 2030-cu il gündəliyinə verdiyi töhfədə Azərbaycan hökumətini dəstəkləməyə sadiqdir. BMTİP, həmçinin Azərbaycan xalqının firavan və təhlükəsiz gələcəyi ilə bağlı göstərdiyiniz səyləri dəstəkləmək üçün hökumətlə sıx tərəfdaşlıq şəraitində işləri davam etdirməyə hazırdır.

Zati-aliləri! Xahiş edirəm dərin hörmət və ehtiramımı qəbul edəsiniz.

## BMT ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ AZƏRBAYCANDAKI TƏRƏFDAŞLIQ VƏ ƏLAQƏLƏNDİRMƏ OFİSİNİN RƏHBƏRİ NASAR HAYATDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Sizə BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi adından səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, FAO-nun daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və daha yaxşı həyat prinsiplərinə əsaslanan 2022–2031-ci illəri əhatə edən Strateji Çərçivə sənədinə istinad edərək, Azərbaycanda kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək göstərmək niyyətini bir daha vurğulamaq istəyirəm.

Biz həmçinin Azərbaycan Respublikasına 2024-cü ildə keçiriləcək COP29 Tərəflər Konfransına təşkilatımızın mandatına uyğun sahələr üzrə dəstək göstərməyə hazır olduğumuzu bildiririk.

## BMT İNKİŞAF PROQRAMININ ADMİNİSTRATORU AÇİM STEYNERDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) adından ən səmimi təbriklərimi çatdırmaq istərdim.

30 ildən artıqdır ki, BMTİP və Azərbaycan Respublikası geniş spektrli inkişaf sahələrində əsaslı əməkdaşlıq edir. BMTİP inklüziv iqtisadi inkişaf, idarəetmə və rəqəmsallaşma, iqlim fəaliyyəti və fəlakətlərin idarə edilməsi, eləcə də humanitar minalarla mübarizə də daxil olmaqla, əsas milli prioritetlərin dəstəklənməsində etibarlı tərəfdaş olmaq imtiyazına layiq görülüb. BMTİP Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq qarşılıqlı surətdə müəyyən edilmiş bu və digər prioritetlər üzrə Azərbaycan Respublikası Hökuməti ilə strateji əməkdaşlığın dərinləşdirilməsinə sadiqdir.

BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığı müzakirə etmək üçün Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## SLOVAKİYANIN BAŞ NAZİRİ ROBERT FİTSODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Sizin liderliyinizlə Azərbaycan inkişafa doğru daha sürətlə irəliləyəcək, ölkədə sosial və iqtisadi sabitlik dərinləşəcək, xalqınızın rifahı naminə yeni nailiyyətlər əldə ediləcək.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri dərinləşəcək və ikitərəfli əməkdaşlığın yeni sahələri üzrə daha da inkişaf edəcək. Mən bu münasibətlərin hərtərəfli yüksəlməsində, o cümlədən iqtisadi-ticari sahədə daha yaxşı nəticələrin əldə olunmasında maraqlıyam. Buna görə də bu fürsətdən istifadə edərək, yaxın gələcəkdə Sizinlə şəxsən görüşmək və ölkənizə rəsmi səfər etmək istədiyimi bildirirəm.

Hörmətli cənab Prezident! Sizə möhkəm cansağlığı, məsul vəzifənizin icrasında uğurlar arzulayır və görüşümüzü səbirsizliklə gözləyirəm.

## İRAQIN MİLLİ DÖVLƏT QÜVVƏLƏRİ ALYANSININ PREZİDENTİ AMMAR ƏL-HAKİMDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Allahın salamı, mərhəməti və bərəkəti üzərinizdə olsun.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Seçkilərdəki qələbəniz Azərbaycan vətəndaşlarının zati-alinizə olan etimadını və onların əldə edilmiş nailiyyətləri qorumaq, inkişaf etdirmək istəklərini nümayiş etdirir.

Sizə uğurlar arzulayır, ölkələrimizin maraqlarını qorumaq və qardaş xalqlarımız üçün hərtərəfli inkişaf imkanlarını artırmaq naminə ikitərəfli əməkdaşlıq əlaqələrini möhkəmləndirmək əzmimizi ifadə edirik.

Ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

## İRAQ NÜMAYƏNDƏLƏR ŞURASININ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN SƏDRİ ƏRŞAD SALEHDƏN

Hörmətli İlham Heydər oğlu!

Cənab Prezident! Qalib xalqın qalib lideri!

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə qələbəniz Azərbaycan xalqının Sizin liderliyinizə olan inamının göstəricisidir. Can Azərbaycanı daha da inkişaf etdirəcəyinizə, xalqın firavanlığını daha da artıracağınıza tam əminəm.

Sizin rəhbərliyinizlə Azərbaycanın beynəlxalq miqyasda təsirli rolu və regionda sülhə töhfələri təqdirlə qarşılanır.

Türkmən elinin Azərbaycanla qardaşlıq bağlarını daha da möhkəmləndirmək əzmi və iradəsi daim yüksəkdir.

Cənab Prezident! Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

## LATVİYA PARLAMENTİNİN ÜZVÜ, SEYMİN AZƏRBAYCAN PARLAMENTİ İLƏ ƏMƏKDAŞLIĞIN TƏŞVİQİ QRUPUNUN SƏDRİ OLEQS BUROVSDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar Prezident seçkilərində qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaq mənim üçün şərəfdir.

Belə mürəkkəb bir zamanda Sizin yenidən ölkə Prezidenti vəzifəsinə seçilməyiniz Azərbaycan xalqının öz liderinə dəstəyini və inamını sübut edir. Çünki Siz ölkənizi və xalqınızı tərəqqiyə aparan lidersiniz.

Latviya və Azərbaycan arasında dostluq münasibətləri 30 ildən artıqdır ki, uğurla inkişaf edir. Əminəm ki, prezidentliyinizin yeni dönəmində ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi və dərinləşdirilməsi istiqamətində qarşılıqlı fəaliyyət daha geniş vüsət alacaqdır.

Cənab Prezident! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## QIRĞIZISTAN HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ EMİL KIZAYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası adından səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu qələbə Sizin Azərbaycan Prezidenti vəzifəsində fədakar fəaliyyətinizin məntiqi nəticəsi və xalqın gələcəkdə də respublikanın sosial-iqtisadi inkişafı, suverenliyinin möhkəmləndirilməsi və beynəlxalq arenada nüfuzunun yüksəldilməsi kursuna dəstəyinin təzahürüdür.

Əminik ki, Sizin rəhbərliyiniz altında qardaş xalqlarımız arasında mədəni və mənəvi bağlar daha da möhkəmləndiriləcək, ikitərəfli əməkdaşlıq, o cümlədən respublikalarımızın milli həmkarlar ittifaqları arasında əlaqələr inkişaf edəcəkdir.

Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası Sizin şəxsinizdə bütün Azərbaycan xalqını demokratiyanın, ədalətin və həmrəyliyin təntənəsi münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayır.

## PORTUQALİYANIN METALLURGİYA VƏ ƏLAQƏDAR SƏNAYE İŞÇİLƏRİ HƏMKARLAR İTTİFAQI TƏŞKİLATININ BAŞ KATİBİ JOZE SİMOEŞDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə Portuqaliyanın Metallurgiya və Əlaqədar Sənaye İşçiləri Həmkarlar İttifaqı Təşkilatının üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Cənab Prezident! Sizə ali dövləti fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm.

## ANKARA SƏNAYE PALATASININ İDARƏ HEYƏTİNİN SƏDRİ SEYİD ARDIÇDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla, bu il fevralın 7-də bütün Azərbaycanda keçirilmiş Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm.

Seçki nəticələrinin Azərbaycan xalqı üçün xeyirli olmasını diləyirəm.

Qardaş ölkələr olan Azərbaycan və Türkiyə arasında münasibətlərin «Bir millət – iki dövlət» prinsipi əsasında daha da möhkəmlənəcəyinə inanıram.

Cənab Prezident! Sizə dərin ehtiramımı bildirir, fəaliyyətinizdə uğurlar arzulayıram.

## RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİNİN BAŞ DİREKTORU ANDREY KONDRAŞOV VƏ BAŞ DİREKTORUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi adından səmimi təbriklərimizi çatdırırıq.

Seçkilər Sizin siyasi kursunuza ümumxalq dəstəyini inamlı şəkildə nümayiş etdirdi. Əminik ki, Sizin dövlət başçısı vəzifəsində fəaliyyətiniz gələcəkdə də ölkələrimiz arasında konstruktiv əlaqələrin və tərəfdaşlıq qarşılıqlı fəaliyyətinin davam etməsinə kömək edəcək.

TASS Azərbaycan Respublikası, onun aparıcı kütləvi informasiya vasitələri, siyasi, ictimai, mədəni və elmi dairələri ilə sıx əməkdaşlıq tarixinə malikdir. Bizim mövqemiz ondan ibarətdir ki, Rusiya və Azərbaycanın informasiya sahəsində əməkdaşlığı dövlətlərimiz və xalqlarımız arasında sıx əlaqələrin inkişafında mühüm rol oynasın.

Bununla əlaqədar agentliyimizin Azərbaycan Respublikasında fəaliyyətinə Sizin davamlı dəstəyinizə və köməyinizə güvənirik.

## CİBUTİ PREZİDENTİ İSMAİL ÖMƏR QELLEDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf və böyük məmnunluq duyuram.

Sizə yenidən etimad göstərilməsi həmvətənlərinizin ətrafınızda birləşməsinin bariz nümunəsidir. Seçkilərdə qazandığınız qələbə Sizə xalqınızın rifahı və ölkənizin inkişafı ilə bağlı faydalı hesab etdiyiniz islahatları həyata keçirmək üçün lazım olan bütün legitimliyi verir. Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan ən mühüm məsələlərdə, o cümlədən ölkə ərazisinin bütövlüyü və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində nəhəng addımlar atmışdır.

Cənab Prezident! Əmin olun ki, Siz həmişə Cibuti xalqı və hökuməti tərəfindən ölkələrimiz arasında mövcud olan əlaqələrin möhkəmlənməsinə fayda verən hər cür dəstəyi görəcəksiniz.

Zati-aliləri cənab Prezident! Sizə bir daha müvəffəqiyyətlər arzulayır, qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

## TÜRKİYƏ PALATALAR VƏ BİRJALAR BİRLİYİNİN VƏ TÜRK TİCARƏT VƏ SƏNAYE PALATALARI BİRLİYİNİN SƏDRİ RİFAT HİSARCIKLIOĞLUDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Fevralın 7-də Prezident seçkilərinin, Qarabağ da daxil olmaqla, bütün Azərbaycan ərazisində uğurla keçirilməsi və yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizi Türkiyə Palatalar və Birjalar Birliyi və Türk Ticarət və Sənaye Palataları Birliyi adından təbrik edirəm.

Əminəm ki, zati-alinizin yenidən Prezident seçilməsi təkcə ölkələrimizdə deyil, bütün Türk Dünyasında inkişaf, rifah, sülh, sabitlik və təhlükəsizlik üçün faydalı olacaqdır.

Sizə cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**ƏLCƏZAİR PREZİDENTİ
ƏBDÜLMƏCİD TEBBUNDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri və əziz qardaşım!

Dost ölkənizdə bu yaxınlarda keçirilmiş seçkilərdə inamlı qələbə qazanmağınız və yeni müddətə Prezident seçilməyiniz münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, dost Azərbaycan xalqının rifahı naminə tərəqqi və nailiyyət dolu inkişaf kursunu davam etdirməklə yüksək vəzifənizdə uğurlar arzulayıram.

Sizi Əlcəzairdə keçiriləcək Qaz İxrac edən Ölkələrin Forumunun VII Sammitində görməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri və hörmətli qardaşım! Ən yüksək və səmimi ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## SLOVAKİYANIN İNVESTİSİYALAR, REGİONAL İNKİŞAF VƏ İNFORMASİYALAŞDIRMA NAZİRİ RİÇARD RAŞİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası vətəndaşlarının müasir tarixdə ilk dəfə olaraq öz vətənlərinin bütün ərazisində seçki hüququndan istifadə edə bilmələri əlamətdar hadisədir və bu tarixi hadisə ölkənizin tam suverenliyini təsdiq edir.

Fürsətdən istifadə edərək, ölkələrimizin nəinki qoruyub saxladığı, həmçinin sistemli şəkildə dərinləşdirdiyi möhkəm dostluq münasibətlərini vurğulamaq istəyirəm. Slovakiya Azərbaycanla ticari-iqtisadi əlaqələrin inkişafından tutmuş, beynəlxalq səviyyədə qarşılıqlı dəstəyə qədər bir sıra sahələrdə əməkdaşlığı yüksək qiymətləndirir.

İnanıram ki, ikitərəfli əməkdaşlığımız qarşılıqlı anlaşma və ümumi maraqlar naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Zati-aliləri! Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram.

## BANQLADEŞ PREZİDENTİ MƏHƏMMƏD ŞAHƏBUDDİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Banqladeş xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Qələbəniz Azərbaycan xalqının Sizin müdrik liderliyinizə olan yüksək inamını və etimadını nümayiş etdirir.

Azərbaycan və Banqladeş arasında ortaq dəyərlərə, qarşılıqlı anlaşmaya və dostluğa əsaslanan çox yaxşı ikitərəfli münasibətlər mövcuddur. Mən ikitərəfli münasibətlərimizi xalqlarımızın qarşılıqlı maraqları naminə çoxşaxəli tərəfdaşlığa çevirmək istiqamətində Sizinlə birgə işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

Bu fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, inkişaf və rifah arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## DÜNYA VƏ AVROPA KRAV MAQA FEDERASİYASININ PREZİDENTİ QABİ MİXAELİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycanda keçirilmiş növbədənkənar Prezident seçkilərində parlaq qələbəniz münasibətilə təbrik edirik. İnanırıq ki, Sizin bu qələbəniz və növbəti müddətə prezidentliyiniz regionda təhlükəsizliyin, sülh və əmin-amanlığın qorunmasına töhfə olacaqdır.

Azərbaycana rəhbərlik etdiyiniz 20 il ərzində Siz ölkənizin tərəqqisi, xalqınızın rifahı, əmin-amanlığı üçün çalışmısınız. Siz hər zaman bütün sahələr kimi, idman sahəsinin inkişafına da diqqət göstərmisiniz, humanist dəyərlərə önəm vermisiniz. Müasir Azərbaycan dövləti atanız Heydər Əliyev tərəfindən mükəmməl və ali dəyərlər üzərində qurulmuşdur və Siz də həmişə bu dəyərlərin ən yüksək səviyyədə daşıyıcısı olmusunuz. Əlbəttə, bütün bunlar Sizin bir lider kimi şəxsi keyfiyyətlərinizdən qaynaqlanır. Hər zaman bütün insani dəyərləri öz şəxsinizdə və addımlarınızda əks etdirmisiniz.

Xüsusən idman sahəsinə və idmançılara göstərdiyiniz diqqət və qayğı son dərəcə təqdirəlayiqdir.

Sizin rəhbərliyinizlə Azərbaycanda gənclərin inkişafı üçün bütün zəruri tədbirlər, strateji dövlət pro-

qramları həyata keçirilir. Məhz Sizin diqqət və qayğınız sayəsində Azərbaycanda sağlam ruhlu, nümunəvi vətənpərvər gənclər yetişir, onlar elm, təhsil və idman sahələrində böyük uğurlar qazanırlar.

Möhtərəm cənab Prezident! Sizə bütün təşəbbüslərinizdə və işlərinizdə yeni-yeni nailiyyətlər diləyirik.

## İTALİYA ŞİRKƏTLƏR VƏ «MADE İN İTALY» NAZİRİ ADOLFO URSODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə dost Azərbaycan xalqı ənənəvi və yüksək səviyyəli ikitərəfli münasibətlərimizə uyğun olaraq daim uğurlu nəticələr əldə etməkdə davam edəcəkdir.

2023-cü ildə Bakıda keçirilmiş görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram və Sizinlə tez bir zamanda İtaliyada və ya ölkənizdə yenidən görüşəcəyimə ümid edirəm.

Sizə ən yüksək ehtiramımı bildirir, səmimi salamlarımı çatdırıram.

## İSRAİLDƏ YERLƏŞƏN «PLANETAR SƏHİYYƏ TƏŞKİLATI» BEYNƏLXALQ QEYRİ-HÖKUMƏT TƏŞKİLATININ SƏDRİ MİLANA QORENŞTEYNDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə «Planetar Səhiyyə Təşkilatı» adından ən səmimi təbriklərimizi çatdırıram.

Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan mühüm tərəqqiyə, xüsusilə də iqtisadi inkişafa nail olub. Ölkənizin inkişafı və xalqınızın rifahı istiqamətində gördüyünüz işlər təqdirəlayiqdir.

«Planetar Səhiyyə Təşkilatı»nın rəhbəri kimi, Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıqda maraqlıyam. İndiki və gələcək nəsillər üçün daha sağlam planetlə bağlı bizim məqsədlərimiz Azərbaycanın bu istiqamətdə gördüyü işlərlə uyğundur.

Cənab Prezident! Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## TÜRKİYƏNİN KAMU-SEN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ SƏDRİ ÖNDƏR KAHVECİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

2024-cü il fevralın 7-də keçirilmiş Prezident seçkilərində Azərbaycan vətəndaşlarının yüksək etimadı ilə yenidən dövlət başçısı seçilməyinizi məmnuniyyətlə qarşıladıq. Bu münasibətlə zati-alinizi səmimi-qəlbdən təbrik edirəm.

«Bir millət – iki dövlət» prinsipi əsasında Azərbaycan–Türkiyə qardaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə inanıram.

Hörmətli Prezident! Sizə Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

## ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVÜ POL QOSARDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan xalqının böyük əksəriyyəti yüksək inam göstərərək, dövləti idarə etmək üçün növbəti dəfə mandatı Sizə həvalə etdi. Xalq Sizə etimad göstərdi, qətiyyətli və güclü lider olduğunuz üçün ölkənin sükanını yenidən Sizə etibar etdi.

Əminəm ki, Siz Azərbaycan üçün və Birləşmiş Ştatlar ilə əlaqələrin inkişafı istiqamətində gördüyünüz gözəl işləri davam etdirəcəksiniz. Ölkəniz xalqın mənafeyini hər şeydən üstün tutan, həm daxildə, həm də xaricdə sülh və firavanlığa sadiq olan güclü və bacarıqlı liderə layiqdir.

Ümidvaram ki, yeni prezidentliyiniz dövründə ölkələrimiz iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlığı daha da gücləndirəcək. İkitərəfli qarşılıqlı faydalı əlaqələr bundan sonra da inkişaf etməli və möhkəmlənməlidir.

Tanrı Sizi və bütün azərbaycanlıları qorusun, yeni liderlik dövrünüz sülh, firavanlıq və böyük uğurlar gətirsin!

## MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ ANATOLİ TORKUNOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Seçkilərin nəticələri göstərdi ki, ölkənin və cəmiyyətin konsolidasiyası, Azərbaycanın beynəlxalq arenada nüfuzunun möhkəmlənməsi üzrə Sizin ardıcıl kursunuz ən böyük dəstəyə malikdir.

Hörmətli İlham Heydər oğlu! Sizə cansağlığı və dost Azərbaycanın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

## FİNLANDİYA PREZİDENTİ
## SAULİ NİİNİSTÖDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## PORTUQALİYA PREZİDENTİ MARSELO REBELO DE SOUZADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən əlaqələri ikitərəfli səviyyədə bütün sahələrdə və çoxtərəfli kontekstdə daha da inkişaf etdirəcəyik.

Cənab Prezident! Bir daha Sizə təbriklərimi çatdırır, Azərbaycan xalqının firavanlığı və inkişafı üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

## TÜRK İNVESTİSİYA FONDUNUN PREZİDENTİ BAĞDAD AMREYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində uğurlu qələbəniz münasibətilə Türk İnvestisiya Fondu adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Bu möhtəşəm qələbə qardaş Azərbaycan xalqının Sizin liderliyinizə, eləcə də çox mühüm strategiyanıza olan inamını və etimadını bir daha nümayiş etdirdi.

Türk birliyinə gedən yolun hər addımında inkişafa və gücə şahidlik etməkdən məmnunluq duyan biri kimi, Qarabağdakı tarixi qələbəni, qardaş Azərbaycanın torpaqlarının azad olunmasını xüsusi vurğulamaq istəyirəm. Azərbaycan xalqının əzmini, qətiyyətini nümayiş etdirən və türk dövlətlərinin qürur duyduğu bu böyük qələbə həm də türk birliyinin gücünə mühüm töhfədir. Qoy bu nailiyyət Türk Dünyasının tərəqqisini və birliyini daha da gücləndirsin.

Sizin səmərəli rəhbərliyinizlə Türk Dünyası müxtəlif əməkdaşlıq sahələrində önəmli nailiyyətlər əldə edib və bunlar ümumi inkişafa və rifaha töhfə verib. Ona görə də mən əminəm ki, Türkiyə İnvestisiya Fondunun təsis olunmasına və onun fəaliyyətinə göstərdiyiniz güclü dəstək Türk Dünyasının daha çox inteqrasiyasına töhfə verəcək və türk dövlətlərinin mühüm qlo-

bal iqtisadi oyunçu və investisiya baxımından cəlbedici məkana çevrilməsinə kömək edəcək.

Zati-aliləri! Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm.

## BMT-nin ƏHALİ FONDUNUN TÜRKİYƏDƏKİ NÜMAYƏNDƏSİ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ÜZRƏ ÖLKƏ DİREKTORU MƏRYƏM XANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Azərbaycan Respublikasının bütün suveren ərazisində keçirilmiş Prezident seçkiləri iqtisadi tərəqqinin sürətləndirilməsi, insan hüquqları və fundamental azadlıqlarının, dinc birgəyaşayışın qorunması üçün mühüm mərhələdir.

Fürsətdən istifadə edərək bildirirəm ki, BMT-nin Əhali Fondu demoqrafiya ilə bağlı məsələlərə, gender bərabərliyinin təşviqi və qadınların sağlamlığının qorunmasına yönəlmiş çoxşaxəli təşəbbüslərində Azərbaycan hökuməti ilə uzunmüddətli tərəfdaşlığa sadiqliyini bir daha təsdiqləyir. Həmçinin BMT-nin Əhali Fondu özünün 2021–2025-ci illər üzrə Ölkə Proqramı çərçivəsində, o cümlədən Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa kontekstində Azərbaycan hökuməti ilə əməkdaşlığa sadiqliyini bir daha bəyan edir. Cari il üçün prioritet COP29 konfransına hazırlıqları dəstəkləmək məqsədilə BMT-nin Əhali Fondunun müqayisəli üstünlüyünə uyğunlaşdırılmış iqlim dayanıqlılığı səylərinə veriləcəkdir.

Zati-aliləri! Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

## BÜTÜN GÜRCÜSTANIN KATOLİKOS-PATRİARXI, MTSXETA VƏ TBİLİSİ ARXİYEPİSKOPU, PİTSUNDA, SUXUMİ VƏ ABXAZİYA MİTROPOLİTİ II İLYADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Bu, ölkənizin vətəndaşlarının Sizə göstərdiyi böyük etimadın təzahürüdür və tamamilə qanunauyğundur.

Sizin ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafına şəxsi töhfənizi yüksək qiymətləndiririk. Ümidvarıq ki, bu münasibətlər tərəfdaşlıq prinsipi əsasında gələcəkdə daha da möhkəmlənəcəkdir.

Sizə və ailənizə cansağlığı, əmin-amanlıq, Azərbaycanın firavanlığı naminə fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.

## GÜRCÜSTAN–AZƏRBAYCAN DOSTLUQ VƏ MƏDƏNİ ƏLAQƏLƏR ASSOSİASİYASININ İDARƏ HEYƏTİNİN SƏDRİ GEORGİ STURUADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident seçkilərində qələbənizlə əlaqədar xalqınızla sevincini bölüşən siyasətçilər və ictimai xadimlərlə yanaşı, mən də Sizi və bütün Azərbaycan xalqını ölkənin ali vəzifəsinə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz sadiq tərəfdarlarınızı – Gürcüstan ziyalılarını ruhlandırır.

Bizim üçün başlıca olan qədim qardaşlıq ənənələrinin, xalqlarımız arasındakı dostluq münasibətlərinin və mədəni əlaqələrin təkcə dövlət səviyyəsində deyil, həm də ictimai səviyyədə davam etdirilməsidir.

Siz dərin zəka, istedad və böyük ürək sahibisiniz.

## RUSİYANIN «LUKOYL» PUBLİK SƏHMDAR CƏMİYYƏTİNİN SABİQ PREZİDENTİ VAHİD ƏLƏKBƏROVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbəniz Sizin bütün təşəbbüslərinizin əsasında ümumbəşəri dəyərləri əsas götürən, ölkəni dinamik inkişaf və tərəqqi yolu ilə inamla irəli aparan tərəqqipərvər və təcrübəli rəhbər kimi, xalqın etimadını qazandığınızı təsdiq edir.

Hörmətli İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji, dost Azərbaycan xalqının rifahı naminə çoxşaxəli fəaliyyətinizdə yeni qələbələr və uğurlar arzulayıram.

**UNICEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ SACA FARUQ ABDULLAHDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident kimi fəaliyyətə başlamağınız münasibətilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

UNICEF-lə Azərbaycan hökuməti arasında 30 ildən artıq müddəti əhatə edən yüksək səviyyəli tərəfdaşlığa istinadən Azərbaycanda uşaq hüquqları gündəliyinin həyata keçirilməsində əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm. UNICEF uşaqlar uçun daha yaxşı gələcəyin qurulmasında və onların tam potensiallarının inkişaf etməsi üçün imkanların yaradılmasında Azərbaycan hökuməti ilə yaxından işləmək öhdəliyinə sadiqdir.

COP29 konfransı qlobal iqlim müzakirələrinin ön sıralarında uşaqlara və gənclərə yer verilməsi baxımından Azərbaycanın aparıcı rol oynaması üçün xüsusi fürsət yaradır. Uşaqların və gənclərin iqlim dəyişikliyi ilə mübarizə tədbirlərində əhəmiyyətli dərəcədə iştirakını dəstəkləmək və onları daha dayanıqlı gələcək üçün tələb olunan təhsil və bacarıqlarla təmin

etmək məqsədilə Azərbaycan hökuməti ilə tərəfdaşlıq etməyə hazırıq.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ ZURAB POLOLİKAŞVİLİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Bu nəticə Azərbaycan xalqının Sizin liderliyinizə və ölkənizlə bağlı strategiyanıza olan inamını və etimadını nümayiş etdirir. Sizin rəhbərliyinizlə Azərbaycan müxtəlif sahələrdə, o cümlədən turizm sahəsində mühüm nailiyyətlər əldə etmiş və bu nailiyyətlər ölkənin inkişafına töhfə vermişdir.

Sizin iqtisadi inkişafa yüksək diqqətiniz, mədəni müxtəlifliyin təşviqinə və dayanıqlı turizmin inkişafına sadiqliyiniz BMT-nin Dünya Turizm Təşkilatının müdafiə etdiyi məqsəd və dəyərlərlə harmonik şəkildə uyğundur. Mən bu təşkilatın baş katibi olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bundan sonra da beynəlxalq turizmə töhfə verəcəkdir.

Biz Azərbaycanla əməkdaşlığımızı daha da möhkəmləndirməyə ümidvarıq və Sizin həm yerli icmaların, həm də daha geniş beynəlxalq turizm sektorunun faydalana biləcəyi turizm sahəsinin inkişafı, eləcə də davamlı və məsuliyyətli turizmin təşviqi istiqamətində fəaliyyətinizə dəstək verməyə hazırıq.

Sizin liderliyinizin Azərbaycanın daha da inkişafına töhfə verməkdə davam edəcəyinə əmin olduğumu bildirirəm. Sizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edir, uğurlar və firavanlıq arzulayıram.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «MASDAR» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MƏHƏMMƏD CƏMİL ƏL-RAMAHİDƏN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!
Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə «Masdar» şirkəti adından ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Müdrik liderliyiniz və baxışınız sayəsində «Masdar» Azərbaycanın Energetika Nazirliyi ilə ölkənizdə təmiz enerjinin təşviqi istiqamətində birlikdə səylə çalışır. Azərbaycan bərpa olunan enerjinin istehsalında regionda lider olmaqda davam edir.

Bu tərəfdaşlığın əyani nəticəsi ötən ilin oktyabrında Azərbaycanın ilk xarici investisiyaya əsaslanan müstəqil sənaye miqyaslı birinci Günəş elektrik stansiyası layihəsinin – 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı mərasimi ilə nümayiş olundu.

Prezidentliyinizin yeni dönəminə başlayarkən «Masdar» tərəfdaşlığımızı daha da gücləndirməyi, bununla da birlikdə ölkənin nəhəng təmiz enerji potensialını üzə çıxarmağı səbirsizliklə gözləyir.

Bu il Bakıda COP29-un keçiriləcəyini nəzərə alaraq, biz Dubayda COP28-də qəbul edilmiş Birləşmiş Ərəb Əmirlikləri Konsensusunun müddəalarını yerinə

yetirməyə, BƏƏ-nin və Azərbaycanın təmiz enerjinin, iqlim dəyişikliyi ilə mübarizənin təşviq olunmasına möhkəm sadiqliyini bütün dünyaya nümayiş etdirməyə ümidvarıq.

«Masdar» şirkətinin komandası COP29-dan faydalanaraq, Azərbaycanın Energetika Nazirliyi və Dövlət Neft Şirkəti ilə birlikdə yeni layihələrin, o cümlədən quruda 1 qiqavat gücə malik bərpa olunan enerji layihələrinin və dənizdə «yaşıl hidrogen» istehsalı layihələrinin inkişaf etdirilməsində əməkdaşlıq edəcək.

Sizinlə Bakıda keçiriləcək «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasında və «Yaşıl Enerji» Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında görüşməyi səbirsizliklə gözləyirəm.

**KÜVEYTİN BAŞ NAZİRİ MƏHƏMMƏD SABAH ƏL-SALİM ƏL-SABAHDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən dost Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək, dost Azərbaycan xalqına göstərdiyiniz xidmətdə, ölkənizin tərəqqisi və rifahı istiqamətində fəaliyyətinizdə zati-alinizə uğurlar arzulayıram. Xalqlarımız arasında mövcud olan sıx dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edərək, bu münasibətlərin ölkələrimizin mənafeyi naminə daha da inkişaf etdirilməsi ilə bağlı istəyimizi bir daha vurğulayıram.

Zati-aliləri! Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına davamlı inkişaf və rifah arzulayıram.

## MALAYZİYA KRALI ƏLAHƏZRƏT SULTAN İBRAHİMDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Kraliça Raca Zarit Sofiah ilə birlikdə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqı bundan sonra daha yüksək tərəqqi və firavanlığa nail olacaqdır.

Uca Allahdan zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı yeni yüksək zirvələrə çatdırmaq üçün fəaliyyətinizdə daha böyük uğurlar nəsib etməsini diləyirəm.

Malayziya ilə Azərbaycan Respublikası arasında çoxillik qardaşlıq münasibətlərinin və dostluq əlaqələrinin xalqlarımıza qarşılıqlı fayda gətirərək daha da möhkəmlənməsini arzu edirəm.

## BEYNƏLXALQ DİNLƏRARASI VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ MƏRKƏZİNİN (KAICIID) BAŞ KATİBİ ZUHAİR ƏLHARTİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Kral Abdulla bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi (KAICIID) adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırıram. Sizin liderliyiniz və uzaqgörənliyiniz ölkənizi firavanlığa və sülhə doğru aparmaqda əhəmiyyətli rol oynayıb. Yenidən Prezident seçilməyiniz Azərbaycan xalqının Sizə olan inam və etimadını nümayiş etdirir.

Azərbaycanın Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinə dəstəyi çox böyükdür. Ölkənizin sülh və dialoq dəyərlərinin təşviqinə sadiqliyi bizim missiyamızla üst-üstə düşür. Biz müxtəlif cəmiyyətlər arasında anlaşmanın və əməkdaşlığın inkişafı istiqamətində böyük nailiyyətlər əldə etmişik.

Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin bütün üzvləri seçkilərdə qələbəniz münasibətilə mənimlə birlikdə zati-alinizi təbrik

edir və Sizə fəaliyyətinizdə uğurlar arzulayırlar. Əməkdaşlığımızı daha da möhkəmləndirməyi, sülh, dialoq və anlaşma kimi ortaq məqsədlərimiz naminə Azərbaycan hökuməti ilə sıx işləməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri! Sizə ən yüksək ehtiramımızı bildiririk.

**VENESUELA PREZİDENTİ NİKOLAS MADURODAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Venesuela Bolivar Respublikası Hökuməti və xalqı adından Sizə müraciət etməkdən şərəf duyur və bu fürsətdən istifadə edərək, 2024-cü il fevralın 7-də keçirilmiş demokratik Prezident seçkilərindəki parlaq qələbəniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırıram.

Həmçinin seçki prosesində Azərbaycan qurumlarının fəaliyyəti zamanı əldə etdikləri uğurları yüksək qiymətləndiririk. Şübhəsiz ki, bu, hərtərəfli inkişafla yanaşı, sülh, rifah və təhlükəsizliyin qorunub saxlanılmasını təmin etməklə, xalqın milli suverenliyə sadiqliyini təsdiqləyən bariz bir qələbədir.

Azərbaycan xalqının demokratik vətəndaş mövqeyinin ifadəsi ilə Simon Bolivar və Uqo Çavesin vətənindən ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və multisentrik, çoxtərəfli dünyanın davamlı şəkildə möhkəmləndirilməsi yönündəki istəklərimizi Sizə çatdırırıq.

Zati-aliləri! Fürsətdən istifadə edərək, Sizə bir daha yüksək ehtiramımı və hörmətimi bildirirəm.

## RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ DÖVLƏT KATİBİ MAQOMED-SULTAN MAQOMEDOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə inamlı qələbə seçicilərin Sizə yüksək etimadının əlaməti, regionun rifahı naminə fəaliyyətinizə verilən dəyərdir. Əminəm ki, Sizin işgüzar və şəxsi keyfiyyətləriniz gələcəkdə də respublikanın inkişafı və onun sakinlərinin rifah halının yüksəldilməsinə yönəlmiş planların uğurla həyata keçirilməsinə kömək edəcək.

Sizə möhkəm cansağlığı, uğurlar arzulayır, ən xoş diləklərimi çatdırıram.

## DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ANTONELLA BASSANİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ötən illər ərzində Sizinlə və Azərbaycan hökuməti ilə əməkdaşlığımızdan məmnun olmuşuq. Dünya Bankı Qrupu ölkənin 2022–2026-cı illəri əhatə edən Sosial-İqtisadi İnkişaf Strategiyasında əksini tapmış əsas strateji prioritetlərin həyata keçirilməsində Sizi dəstəkləməyə sadiqdir. Biz bütün Azərbaycan vətəndaşlarının faydalanacağı investisiya siyasətinin hazırlanması və həyata keçirilməsində hökumətinizə yardım üçün qlobal təcrübəmizi bölüşməyə hazırıq.

Son onillik ərzində Azərbaycan öz inkişafında mühüm nəticələr əldə edib. Ölkənin iqtisadiyyatının şaxələndirilməsi, neft və qaz sektorundan asılılığın azaldılması məqsədilə hərtərəfli islahatların həyata keçirilməsi ilə bağlı öhdəliyinizi yüksək qiymətləndirirəm. Mən həmçinin Sizi Azərbaycanın COP29-a ev sahibliyi edəcəyinə və bununla da iqlim fəaliyyətinə dair qlobal diskursun formalaşmasına kö-

mək etməyə hazır olduğunuzu nümayiş etdirdiyinizə görə təbrik edirəm.

Sizə yeni Prezident mandatınızda uğurlar arzulayıram və əməkdaşlığımızın davam edəcəyinə ümid edirəm.

## ESTONİYA PREZİDENTİ ALAR KARİSDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Tarixin bu çətin dövründə sabitlik və yaxşı münasibətlər böyük əhəmiyyət kəsb edir. Məmnuniyyət hissi ilə bildirirəm ki, Estoniya ilə Azərbaycan arasında münasibətlər qarşılıqlı anlaşma və ölkələrimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmət kimi möhkəm təməl üzərində qurulub.

Qarşıdakı illərdə Estoniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## SURİNAM PREZİDENTİ
## ÇANDRİKAPERSAD SANTOKİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Tarixi hadisə – yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm. Bu qələbə Prezident vəzifəsində fəaliyyət göstərdiyiniz müddətdə möhtəşəm liderliyinizin təkcə Azərbaycanda deyil, həm də dünyada qəbul olunmasının bariz təzahürüdür.

Surinam Respublikası ikitərəfli və çoxtərəfli əlaqələri yüksək qiymətləndirir, ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı maraq doğuran sahələrdə tərəfdaşlığımızı inkişaf etdirmək üçün səylərimizi artırmağı səbirsizliklə gözləyir.

Bu baxımdan əminəm ki, qarşıdan gələn COP29-a ev sahibliyi edən Azərbaycan konfransın uğurla keçirilməsi üçün bütün lazımi tədbirləri görür.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində Sizə Surinam Respublikasının Hökuməti və xalqı adından möhkəm cansağlığı arzulayır, yeni-yeni uğurlar diləyirəm.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## İNDONEZİYA PREZİDENTİ COKO VİDODODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İndoneziya Respublikası adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi və salamlarımı çatdırıram.

Bu ali vəzifəyə seçilməyiniz Azərbaycan xalqının Sizə göstərdiyi dərin hörmətin və sarsılmaz etimadın təsdiqidir. Tam əminliklə bildirirəm ki, Sizin möhtəşəm liderliyiniz və zəngin təcrübəniz ölkənizi daha böyük tərəqqiyə doğru aparacaqdır.

Bu xoş fürsətdən istifadə edərək əmin olduğumu bildirmək istəyirəm ki, Sizin rəhbərliyinizlə xalqlarımız arasında 30 ildən artıq inkişaf edən ikitərəfli əlaqələrin dərinləşməsinin şahidi ola biləcəyik. Məmnuniyyətlə qeyd edirəm ki, xalqlarımızın rifahı naminə bizim müxtəlif sahələr üzrə əməkdaşlıqla bağlı səylərimizi artırmaq və ortaq sektorları əhatə edərək, bu əməkdaşlığı genişləndirmək üçün gözəl imkanlarımız var.

Zati-alinizə və Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik və tərəqqi arzulayaraq, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**MİSİR ƏRƏB RESPUBLİKASININ CƏNUBİ SİNAY ƏYALƏTİNİN QUBERNATORU XALİD FUDA SADİQDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizə ən səmimi salamlarımı və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Cənubi Sinay Qubernatorluğunun vətəndaşları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Bu qələbə hörmətli xalqınızın zati-alinizə dərin etimadının təsdiqidir. Əminik ki, Sizin yeni prezidentliyiniz dövründə Azərbaycan xalqı və dövləti daha böyük uğurlar əldə edəcəkdir.

Zati-aliləri, bir daha Sizi təbrik etməkdən, ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli münasibətləri möhkəmləndirmək və dərinləşdirmək istəyimizi qeyd etməkdən məmnunluq duyuram.

Cənab Prezident! Sizə möhkəm cansağlığı, uğurlar, dost ölkənizin xalqına tərəqqi və firavanlıq diləyirəm.

## BEYNƏLXALQ MÜLKİ MÜDAFİƏ TƏŞKİLATININ BAŞ KATİBİ NJUPUO YAP MARİATUDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin bu qələbəniz Azərbaycan xalqı tərəfindən siyasi rəhbərliyinizin, eləcə də Azərbaycan Respublikasının təhlükəsizliyini və suverenliyini möhkəmləndirmək, həmvətənlərinizin firavanlığını daha da yaxşılaşdırmaq istiqamətində səylərinizin dəstəklənməsinin bariz sübutudur.

Sizin liderliyiniz və səyləriniz Azərbaycanın hüdudlarından kənarda da yüksək qiymətləndirilir. Təşkilatımız Sizin təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması sahəsində bizimlə münasibətlərin möhkəmləndirilməsinə şəxsi töhfələrinizi yüksək qiymətləndirir.

İnanıram ki, dəstəyiniz və əməkdaşlığınız davamlı olacaqdır.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «EXXONMOBİL» KORPORASİYASININ SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU DARREN VUDSDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə «ExxonMobil» Korporasiyası adından Sizi səmimi-qəlbdən təbrik edir, davamlı uğurlar diləyir, eləcə də Azərbaycan xalqının firavanlığı və rifahı ilə bağlı ən xoş arzularımı çatdırıram.

Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da neft və qaz sektorunda öz aparıcı rolunu davam etdirəcək. «ExxonMobil» Azərbaycanla enerji sahəsində uzunmüddətli əməkdaşlığını yüksək qiymətləndirir. Biz birlikdə dünyanın etibarlı və sərfəli enerjiyə olan tələbatını qarşılamağa kömək edə və eyni zamanda, istixana qazı emissiyalarının azaldılması istiqamətində işləyə bilərik.

Bu iki çağırış COP29 müzakirələri zamanı diqqət mərkəzində olacaq və mən Azərbaycan Respublikasına bu mühüm qlobal dialoqa ev sahibliyi etməklə bağlı ən xoş arzularımı bildirirəm.

Sizi bir daha təbrik edir, zati-alinizə və Azərbaycan xalqına daha parlaq gələcək arzulayıram.

## İTALİYANIN «LEONARDO» ŞİRKƏTİNİN SƏDRİ STEFANO PONTEKORVODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə «Leonardo» şirkəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Sizin zəngin təcrübəniz və peşəkar bacarıqlarınız sayəsində əminəm ki, İtaliya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcəkdir.

Zati-alinizə yeni prezidentlik dönəmində davamlı uğurlar və firavanlıq arzulayıram. «Leonardo» şirkəti ölkənizlə davamlı əlaqələrə görə böyük qürur hissi keçirir və əmin olun ki, əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.

Sizinlə şəxsən görüşməyi səbirsizliklə gözləyirəm. Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## SUDANIN SUVEREN KEÇİD ŞURASININ SƏDRİ ƏBDÜLFƏTTAH ƏL-BURHAN ƏBDÜLRƏHMAN ƏL-BURHANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizə Sudan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Zati-alinizə və dost xalqınıza uğurlar diləyirəm.

Bu fürsətdən istifadə edərək, ölkələrimiz arasında mövcud əlaqələrə görə dərin minnətdarlığımı bildirir, ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafı üçün Azərbaycan Respublikası ilə işləməkdə qətiyyətli olduğumu bir daha vurğulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## MONTENEQRO PREZİDENTİ YAKOV MİLATOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi Monteneqro vətəndaşları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ölkənizə davamlı inkişaf, xalqınıza firavanlıq arzulayıram.

Əminəm ki, biz etibarlı dostluq münasibətlərimizi həm ikitərəfli, həm regional, həm də beynəlxalq səviyyələrdə qarşılıqlı maraqlarımız naminə inkişaf etdirəcəyik. Mən ilk növbədə, iqtisadiyyat, turizm və enerji sahələrində kommunikasiyanı intensivləşdirməyə, əməkdaşlığı gücləndirməyə töhfələr verməyə hazıram.

Ölkənizin uğurlarının davamlı olmasını arzulayır, əlaqələrimizin daha da genişlənəcəyinə əminliyimi bildirirəm.

Ən yüksək ehtiramımı və səmimi salamlarımı qəbul etməyinizi xahiş edirəm.

## MONQOLUSTAN PREZİDENTİ UXNAAQİYN XURELSUXDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Mən çox məmnunam ki, birgə səylərimiz sayəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığımız bir çox sahələrdə inkişaf edir.

Yüksək səviyyəli qarşılıqlı səfərlərimiz ikitərəfli münasibətlərimizin və əməkdaşlığımızın dərinləşməsində mühüm rol oynayır. Buna görə də inanıram ki, zati-alinizə ünvanladığım dəvətimi qəbul edib Sizə uyğun zamanda Monqolustana səfər edəcəksiniz.

Zati-aliləri cənab Prezident! Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə rifah arzu edirəm.

## İTALİYANIN MÜDAFİƏ NAZİRİ QUİDO KROSETTODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, Sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında münasibətləri səciyyələndirən dostluq ruhu Sizin rəhbərliyinizlə müdafiə sahəsində, eləcə də ortaq strateji maraq kəsb edən digər sahələrdə əməkdaşlığın inkişafı naminə daha da yüksəlməkdə davam edəcək. Bunlar hazırkı beynəlxalq mənzərəni və xüsusilə də Avrasiya regionunu xarakterizə edən sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf kimi qlobal çağırışların öhdəsindən gəlmək məqsədilə ikitərəfli münasibətlərimizi gücləndirmək üçün zəruri əsaslardır.

Sizinlə tezliklə görüşmək ümidi ilə fürsətdən istifadə edərək, Sizə ən səmimi salamlarımı çatdırıram.

**BELÇİKA KRALI FİLİPDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırır, uğurlar və xoşbəxtlik arzulayıram.

Ölkələrimiz arasında dostluq münasibətləri mövcuddur və əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz əməkdaşlığımızın daha da inkişaf etməsinə töhfə verəcəkdir.

## YAPONİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVÜ, YAPONİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ LİQASININ SƏDRİ AKİRA AMARİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Yaponiya–Azərbaycan Parlamentlərarası Dostluq Liqası adından səmimi təbriklərimi çatdırıram.

Diplomatik münasibətlərin qurulmasının 32-ci ildönümünü qeyd edən ölkələrimizin dostluq və tərəfdaşlıq əlaqələrinin zati-alinizin dəstəyi ilə daha da möhkəmlənəcəyinə əminəm.

Ölkələrimizin parlamentlərarası münasibətləri davamlı şəkildə inkişaf edir. 1998-ci ildə əsası qoyulmuş Yaponiya–Azərbaycan Parlamentlərarası Dostluq Liqasının keçən il 25-ci ildönümü qeyd edilmişdir. Dostluq Liqasının əsası qoyulduğu gündən sədr olaraq ölkələrimizin əlaqələrinin inkişafı üçün səylərimi əsirgəməmişəm. Keçən il ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında xüsusi xidmətlərimə görə zati-alinizin məni «Dostluq» ordeni ilə təltif etməsi şəxsim üçün çox böyük şərəfdir. Azərbaycan–Yaponiya dostluq münasibətlərinin in-

kişafı üçün bundan sonra da var gücümlə çalışacağam.

Zati-alinizə cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edir, Sizinlə görüşə biləcəyimiz günü səbirsizliklə gözləyirəm.

## MİSİR PREZİDENTİ ƏBDÜLFƏTTAH ƏS-SİSİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Dost Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Bu xəbəri böyük sevinclə qarşıladım.

İnamlı qələbəniz Azərbaycan xalqının Sizin müdrik rəhbərliyinizə göstərdiyi etimadın və dəstəyin sübutudur. Bu həm də Azərbaycan xalqının Sizin ölkəni inkişaf və tərəqqi yoluna aparmaq bacarığınıza inamını bir daha təsdiq edir. Əminəm ki, yenidən Prezident seçilməyiniz Azərbaycanın regional və beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək.

Cənab Prezident! Mən Sizinlə əməkdaşlıq və koordinasiya sayəsində qarşıdakı dövrdə Misir–Azərbaycan münasibətlərinin yüksəlişinin şahidi olacağımı səbirsizliklə gözləyirəm.

## ALMANİYANIN ŞƏRQİ BİZNES ASSOSİASİYASININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİ KATARİNA KLAAS MÜLHAUZERDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə təbrik edim. Almaniyanın Şərqi Biznes Assosiasiyası adından Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz keşməkeşli geosiyasi dövrdə Azərbaycana rəhbərlik edirsiniz və bu dövr Rusiya–Ukrayna müharibəsi nəticəsində daha da çətinləşib. Azərbaycan logistika, bərpa olunan enerji sahələrində, eləcə də fosil yanacaqların mühüm təchizatçısı olaraq, tərəfdaş kimi önəmli rol oynayır.

İqtisadi əlaqələri genişləndirməklə yanaşı, ölkəniz həm də regional əməkdaşlıqda əhəmiyyətli rola malikdir. İqtisadi baxımdan Almaniya Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Biz Bakının COP29-a ev sahibliyi edəcək şəhər seçilməsi ilə bağlı qərarı alqışlayır və bu münasibətlə Sizi təbrik edirik.

Şərqi Biznes Assosiasiyası Alman–Azərbaycan Xarici Ticarət Palatası ilə əməkdaşlıq edərək, bu il fevralın 26–29-da Bakıya səfər edəcək Almaniya şirkətlərinin 50 nəfərdən ibarət nümayəndə heyətinə

rəhbərlik edəcək. Biz planlaşdırma məqsədilə Azərbaycanın Berlindəki səfirliyi ilə sıx əlaqə saxlayırıq və cənab Prezident, Sizinlə görüşümüzdən çox məmnun olardıq.

**RUSİYANIN «LUKOYL» PUBLİK SƏHMDAR CƏMİYYƏTİNİN BAŞ İCRAÇI DİREKTORU VADİM VOROBYOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Bu uğurunuz seçicilərin Sizə, fəaliyyətinizə və planlarınıza etimadının təzahürüdür. Liderlik keyfiyyətləriniz, yorulmaz işgüzarlığınız, şəffaf rəhbərlik üslubunuz sayəsində öz Vətəninin gələcəkdə də dinamik inkişafını Sizin adınızla bağlayan xalqın ehtiramını qazanmısınız.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqının rifahı naminə iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında yeni böyük uğurlar diləyirəm.

## MALAYZİYANIN BAŞ NAZİRİ ƏNVƏR İBRAHİMDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə Sizə Malayziya xalqı və hökuməti adından səmimi təbriklərimizi çatdırıram.

Sizin yenidən Prezident seçilməyiniz Azərbaycanı sülhə, sabitliyə və firavanlığa doğru aparmaqda nümunəvi rəhbərliyinizin göstəricisidir. Zati-alinizin xalqınızın tərəqqisi naminə davamlı fədakarlığı həqiqətən təqdirəlayiqdir. Əminəm ki, Siz Azərbaycanın dünya birliyinin hörmətli üzvü kimi nüfuzunu daha da yüksəldəcəksiniz.

Ölkələrimiz arasında mövcud dostluq münasibətlərini və xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığı gücləndirmək üçün Sizinlə yaxından işləməyi səbirsizliklə gözləyirəm.

Uca Allahdan zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı yeni iqtisadi tərəqqi və firavanlığa aparmaq üçün fəaliyyətinizdə uğurlar nəsib etməsini diləyirəm.

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ VƏ ÖLKƏ OFİSİNİN RƏHBƏRİ HANDE HARMANCIDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyi adından ən səmimi təbriklərimi qəbul edin.

Fürsətdən istifadə edərək, Ümumdünya Səhiyyə Təşkilatının 2021–2025-ci illər üçün BMT-nin Davamlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinə uyğun olaraq, Azərbaycanın davamlı inkişafına istiqamətlənmiş milli prioritetlərin dəstəklənməsinə sadiqliyini bir daha nəzərinizə çatdırıram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyi arasındakı tərəfdaşlıq və əməkdaşlığın davamlı olacağına inanıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ MƏDƏNİYYƏT İNSTİTUTUNUN PREZİDENTİ SAAD XANDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

On üzvü olan İqtisadi Əməkdaşlıq Təşkilatının ixtisaslaşmış agentliyi – Mədəniyyət İnstitutu Sizin liderliyinizi və Azərbaycan xalqına xidmətlərinizi yüksək qiymətləndirir. İnanırıq ki, Azərbaycan müdrik rəhbərliyinizlə daha da inkişaf edəcəkdir.

Azərbaycan təşkilatımızın üzvü olan ölkələrin inkişafına və inteqrasiyasına mühüm töhfə verir. Biz inanırıq ki, Azərbaycanın dəstəyi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında mədəni mübadilənin və əməkdaşlığın təşviqində kollektiv səylərimizi əhəmiyyətli dərəcədə gücləndirəcək.

Seçkilərdə inamlı qələbəniz münasibətilə Sizə bir daha səmimi təbriklərimi çatdırır, qarşıdakı illərdə də Azərbaycan hökuməti ilə sıx əməkdaşlığımıza ümidvarıq.

Zati-aliləri! Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ OKLAHOMA ŞTATININ QUBERNATORU CON KEVİN STİTDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Oklahoma ştatı ilə Azərbaycan arasındakı Milli Qvardiya Dövlət Tərəfdaşlıq Proqramının uğurunu böyük qürur hissi ilə qeyd edirəm. Güclü əlaqələrimiz və 20 ildən artıqdır ki, birgə həyata keçirdiyimiz əməkdaşlıq təşəbbüslərimiz, xüsusilə də mədəni dəyərlərin təbliğində və hərbçilərimizin bacarıqlarının artırılmasında mühüm irəliləyişlərə gətirib çıxarıb. Əməkdaşlığımızı daha da dərinləşdirmək və qarşılıqlı inkişafı təşviq etmək yolunda bundan sonra da birgə fəaliyyət göstərəcəyimizə ümid edirəm.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul edin.

## SLOVENİYANIN LYUBLYANA ŞƏHƏRİNİN MERİ ZORAN YANKOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident seçkilərində qələbəniz münasibətilə Sizə öz adımdan və Lyublyana şəhərinin rəhbərliyi adından səmimi təbriklərimizi çatdırıram.

Xalqın etimadını və inamını qazanaraq əldə etdiyiniz qələbə Sizin fədakarlığınızın, uğurlu liderliyinizin və Azərbaycan Respublikasının gələcəyi ilə bağlı baxışınızın göstəricisidir. Əminəm ki, Sizin növbəti səlahiyyət müddətiniz də rifah, nailiyyətlər və xalqın arzularının reallaşdırılması ilə əlamətdar olacaq. İnanırıq ki, bu yeni müddətdə də müdriklik və xeyirxahlıq Sizin fəaliyyətinizin əsas qayəsi olacaq.

Azərbaycan Respublikasının vətəndaşları ilə birlikdə mən də Sizin rəhbərliyinizlə əldə ediləcək bütün nailiyyətləri və gələcək inkişafı səbirsizliklə gözləyirəm. Odlar yurdunda alovun heç vaxt sönməməsini arzulayıram.

Sizə uğurlar diləyirəm.

İstənilən zaman Lyublyana şəhərinə dəvətlisiniz.

**TÜRKİYƏNİN 11-ci PREZİDENTİ ABDULLAH GÜLDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Qardaş Azərbaycan xalqının Prezident seçkilərində Sizə bir daha etimad göstərməsini böyük məmnunluq hissi ilə qarşıladım.

Ulu öndərimiz Heydər Əliyevin bu ali dövləti vəzifənizdə indiyədək müvəffəqiyyətlə davam etdirdiyiniz irsini daha da irəliyə aparacağınıza ürəkdən inanıram. Bu xüsusda seçkilərdə qazandığınız zəfər münasibətilə zati-alinizi ürəkdən təbrik edirəm.

Sizin liderliyinizlə Azərbaycan Ordusunun və xalqının göstərdiyi cəsarət və əzm nəticəsində Qarabağın işğaldan azad edilməsini sonsuz sevinc və qürur hissi ilə izləmişəm. Heç şübhəsiz ki, bu şanlı Zəfər bütün Türk Dünyasının daha sıx birləşməsi istiqamətində dönüş nöqtəsidir.

Qarabağ Zəfəri göstərdi ki, Azərbaycan siyasi, iqtisadi və hərbi sahələrdə bölgədə lider ölkədir. Bundan sonrakı müddətdə həmin Zəfərin sülh müqaviləsi ilə taclandırılması problemlərin ortaq iradə və konstruktiv düşüncə ilə birdəfəlik həllinin mümkünlüyünü bütün dünyaya göstərəcəkdir.

Fürsətdən istifadə edərək, zati-alinizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə və ailənizə, bütün Azərbaycan xalqına əmin-amanlıq arzulayıram.

## TAYLAND KRALI MAHA VAÇİRALONQKORNDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Tayland xalqı adından Sizə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və rifah diləyirəm.

Seçkilərdə inamlı qələbəniz Sizin rəhbərliyinizə və siyasətinizə xalqınızın etimadının bariz təsdiqidir. Biz ölkələrimiz arasında dostluq münasibətlərini və sıx əməkdaşlığı yüksək qiymətləndiririk. Əminəm ki, zati-alinizin dəstəyi ilə qarşıdakı illərdə Tayland–Azərbaycan dostluq münasibətləri və əməkdaşlığı daha da möhkəmlənəcəkdir.

**TAYLAND KRALLIĞININ BAŞ NAZİRİ SETTXA TXAVİSİNDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə Tayland Krallığının Hökuməti və xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Əminəm ki, Sizin davamlı liderliyiniz Azərbaycan Respublikasına və onun xalqına daha böyük firavanlıq və tərəqqi gətirəcək. Mənim hökumətim zati-alinizlə ölkələrimizin və xalqlarımızın qarşılıqlı mənafeyi naminə dostluq əlaqələrimizi daha da inkişaf etdirməkdə maraqlıdır.

Bu fürsətdən istifadə edərək, Sizə gələcək fəaliyyətinizdə davamlı uğurlar arzu edirəm.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul edin.

## GÜRCÜSTANIN TİCARƏT-SƏNAYE PALATASININ BAŞ DİREKTORU DAVİD APTSİAURİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Prezident seçkiləri bütün mövcud ehtiyatları səfərbər edərək, 30 ildən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olan, ölkənin sabit və uğurlu inkişafı üçün zəruri şəraiti yaradan əsl lider kimi, Sizə Azərbaycan xalqının yekdil dəstəyini əyani şəkildə nümayiş etdirdi.

Prezident seçkiləri zamanı Bakıya səfər etmək şərəfinə nail oldum və paytaxt sakinlərinin sevinclə, yüksək əhvali-ruhiyyə ilə Azərbaycanın gələcək uğurlarına inamla səsvermədə iştirak etmələrinə, dövlətin möhkəmləndirilməsi və insanların rifahı üçün göstərdiyiniz xidmətlərə görə Sizə səmimi minnətdarlıqlarını bildirmələrinə şəxsən şahid oldum.

Sizə və gözəl ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, Azərbaycanın daha da inkişafı, ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsi, Gürcüstan ilə strateji, qardaşlıq münasibətlərinin dərinləşməsi üzrə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**MALDİV PREZİDENTİ
MƏHƏMMƏD MUİZZUDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Maldiv Respublikasının Hökuməti, xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Ümid edirəm ki, əməkdaşlığımızı və dostluq münasibətlərimizi daha da möhkəmləndirmək üçün zati-alinizlə sıx fəaliyyət göstərəcəyik. Əminəm ki, ölkələrimizin xalqlarının rifahı naminə əlaqələrimizi dərinləşdirmək üçün birgə işləyə bilərik.

Zati-aliləri! Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

## MOZAMBİK PREZİDENTİ FİLİPE JASİNTO NYUSİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

2024-cü il fevralın 7-də Qarabağ regionu da daxil olmaqla, bütün Azərbaycan ərazisində keçirilmiş Prezident seçkilərini böyük maraqla izlədik. Mozambik Respublikasının xalqı, hökuməti adından və şəxsən öz adımdan zati-alinizə seçkilərdə əldə etdiyiniz qələbə münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Bu qələbəniz öz ölkəsinin iqtisadi, sosial-mədəni sahələrdə inkişafına şahid olan Azərbaycan xalqının iradəsinin, həmçinin onun davamlı rifahla bağlı arzularını həyata keçirmək üçün Sizin bütün keyfiyyətlərə malik olduğunuza inamının ifadəsidir.

Fürsətdən istifadə edərək, Mozambik Respublikasının Azərbaycan Respublikası ilə qardaş xalqlarımızın maraqları və rifahı naminə dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində qətiyyətli olduğunu bir daha bildirirəm.

Zati-aliləri! Sizə cansağlığı arzulayır, ən yüksək ehtiramımı ifadə edirəm.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI FİLİPPO QRANDİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı ilə Azərbaycan arasında əməkdaşlıq çox yüksək qiymətləndirilir. Mən fürsətdən istifadə edərək, Ali Komissarlığın regionda köçkünlərlə bağlı məsələlərin həllində Azərbaycan hökumətinin səylərini dəstəkləməkdə davam edəcəyini bildirirəm.

Yeni prezidentliyiniz dönəmində də əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirəm.

Cənab Prezident! Ən yüksək ehtiramımı qəbul edin.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI QAÇQINLAR ÜZRƏ ALİ OMİSSARLIĞININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ BİK LUMDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Otuz ildən artıqdır ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı köçkünlərlə bağlı məsələlərin həlli istiqamətində Azərbaycan hökumətinin fəaliyyətini dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan Respublikası arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair 2021–2025-ci illəri əhatə edən Çərçivə sənədinə uyğun olaraq, Ali Komissarlıq Azərbaycanın sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərinə töhfə verməyə və BMT-nin ölkə nümayəndəliyi daxilində Azərbaycan hökumətinə dəstək göstərməyə hazırdır.

Təşkilatımız, həmçinin qaçqınlar, köçkünlər və onlara ev sahibliyi edən icmalar da daxil olmaqla, təsirə məruz qalmış qrupların BMT-nin bu il Bakıda keçiriləcək İqlim Dəyişikliyi Konfransında (COP29) fəal iştirak etmələri məqsədilə səlahiyyətləndirilməsinin təşviqini davam etdirmək üçün Azərbaycan hökuməti ilə tərəfdaşlıq etməyə hazırdır.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## ALMAN–AZƏRBAYCAN XARİCİ TİCARƏT PALATASININ İDARƏ HEYƏTİNİN SƏDRİ ANAR HƏSƏNOV VƏ İDARƏ HEYƏTİNİN İCRAÇI ÜZVÜ TOBİAS BAUMANDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə alman iqtisadiyyatının Azərbaycandakı rəsmi nümayəndəliyi olan Alman–Azərbaycan Xarici Ticarət Palatası adından təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Azərbaycan Cənubi Qafqaz regionunda enerji və ticarət baxımından Almaniyanın ən mühüm tərəfdaşıdır. Alman şirkətləri xarici əlaqələrdə sabitliyi, strateji uzaqgörənliyi və etibarlılığı yüksək qiymətləndirirlər. Alman Ticarət Palatası və onun üzv şirkətləri Azərbaycan hökumətinin apardığı islahatlar siyasətini dəstəkləyir və bununla bağlı öz töhfələrini təklif edirlər.

Biz öz təcrübəmiz və texniki imkanlarımızla Qarabağ bölgəsinin yenidən qurulması ilə bağlı Azərbaycan hökumətinin təşəbbüslərini dəstəkləməyə hazırıq. Biz qəti şəkildə inanırıq ki, ölkələrimiz arasında sıx əməkdaşlıq sayəsində mühüm irəliləyiş əldə oluna bilər.

Yeni səlahiyyət müddətinizdə Sizə və Azərbaycan hökumətinə uğurlar arzulayırıq.

**İSRAİLİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHUDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Bu yaxınlarda yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İsrail xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Onilliklər ərzində xalqlarımız ortaq məqsəd və maraqlara əsaslanan isti münasibətlərə malik olublar. Siz 20 il əvvəl Prezidentliyə başladığınız vaxtdan bizim əməkdaşlığımız bir çox sahələrdə genişlənib və yeni zirvələrə yüksəlib.

Keçən il Azərbaycanın İsraildə səfirliyinin tarixi açılışında aydın şəkildə nümayiş etdirilən dostluq münasibətinə görə təşəkkür edirəm.

Qarşıdakı illərdə tərəfdaşlığımızı daha da inkişaf etdirmək üçün Sizinlə yaxından işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

**MOSKVA DAĞ YƏHUDİLƏRİ
İCMASININ SƏDRİ
ARİF RƏHİMOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi əslən Azərbaycan, Gürcüstan və Şimali Qafqazdan olan dağ yəhudilərini öz sıralarında birləşdirən Moskva Dağ Yəhudiləri İcması adından səmimi-qəlbdən təbrik edirik.

Biz çox şadıq ki, məhz Siz Vətənimiz Azərbaycanın rəhbərisiniz. Siz tolerantlığın, Azərbaycan ərazisində yaşayan xalqlar arasında sülhün və dostluğun təminatçısısınız. Fəxr edirik ki, Sizin rəhbərliyinizlə Azərbaycanda tolerantlıq ənənələri qorunub saxlanılır və inkişaf etdirilir, antisemitizm hallarına yol verilmir.

Sizə cansağlığı, doğma Azərbaycanımızın tərəqqisi naminə uzun illər məhsuldar fəaliyyət arzulayırıq.

## BAYBAKOV FONDUNUN PREZİDENTİ, RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN SABİQ MÜAVİNİ VALERİ SEROVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

İki qonşu ölkənin – Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının xalqları arasında çoxillik dostluq, iqtisadi, mədəni və dərin tarixi mənəvi bağlar, həmçinin ölkələrimizin müxtəlif sahələrdə ümumi maraqları əlaqələrimizin möhkəm bünövrəsini qoyub. Əminliklə söyləmək olar ki, Sizin prezidentliyinizin növbəti dövründə Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin və qarşılıqlı işgüzar əlaqələrin daha da inkişafının şahidi olacağıq.

Xüsusilə qeyd edilməlidir ki, ölkələrimizin mehriban və qarşılıqlı hörmətə əsaslanan münasibətlərinin inkişafında tarixi rol zəmanəmizin görkəmli dövlət və siyasi xadimi, atanız Heydər Əlirza oğlu Əliyevə məxsusdur.

Siz böyük həmyerliniz Nikolay Baybakovun adını daşıyan fondun fəaliyyətindən yaxşı xəbərdarsınız. Azərbaycan Respublikasında Baybakov Fondunun nümayəndəliyinin açılması sayəsində fond

beynəlxalq status alıb. Bu gün fond Rusiyanın sosial-iqtisadi inkişafına sanballı töhfə verən elm, iqtisadiyyat, texnologiya və təhsil sahələrində yüksəkixtisaslı mütəxəssislərin böyük bir hissəsini öz ətrafında toplayıb. Biz elmi-texniki layihələrin həyata keçirilməsində əldə etdiyimiz təcrübəmizi Azərbaycandan olan həmkarlarımızla bölüşməyə hazırıq. Çoxşaxəli əməkdaşlığımız bizə Azərbaycan və Rusiya alimlərinin, mütəxəssislərinin təcrübəsini, biliklərini birləşdirməyə və ölkələrimizin rifahına yönəltməyə imkan verəcək.

Hörmətli İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar, Azərbaycan Respublikasının qardaş xalqına isə tərəqqi, uzun əsrlərboyu sülh və xoşbəxtlik arzulayırıq.

## İRAQ PREZİDENTİ ƏBDÜLLƏTİF CAMAL RƏŞİDDƏN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!
Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İraq xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayırıq. Uca və qadir Allahdan Sizə möhkəm cansağlığı, uğurlar, dost xalqınıza xeyir və firavanlıq diləyirik.

Sizin yenidən Prezident seçilməyiniz peşəkarlığınız, səriştəniz və siyasi təcrübəniz sayəsində möhtərəm xalqınızın Sizə olan yüksək etimadını və fəaliyyətinizin təqdir olunmasını əks etdirir.

İraqın müxtəlif sahələrdə dost ölkələrimizin və xalqlarımızın rifahı naminə birgə əməkdaşlığı davam etdirmək və qarşılıqlı əlaqələrin inkişafına nail olmaq istəyini zati-alinizin diqqətinə bir daha çatdırırıq.

## İRAQIN SABİQ BAŞ NAZİRİ, İSLAMİ DƏVƏT PARTİYASININ BAŞ KATİBİ NURİ KAMAL ƏL-MALİKİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən qardaş Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz arasında müştərək maraqların həyata keçirilməsi naminə xalqlarımızın münasibətlərinin möhkəmlənməsini və İslami Dəvət Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin inkişafını arzu edirəm.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

## İRAQ TÜRKMƏNLƏRİ İSLAM BİRLİYİNİN BAŞ KATİBİ CASİM MƏHƏMMƏD CƏFƏR ƏL-BAYATİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Qardaş Azərbaycan xalqının etimad göstərərək Sizi yenidən Prezident seçməsi münasibətilə zati-alinizə türkmən xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Bu etimad ötən illər ərzində Sizin müdrik rəhbərliyinizlə quruculuq, tərəqqi və firavanlıq istiqamətində görülmüş işlərin məntiqi təzahürüdür.

Seçkilərdəki qələbəniz ölkənizdəki nailiyyətləri və uğurlu islahatları cəsarət və bacarıqla davam etdirmək əzminizin, qardaş Azərbaycan xalqının inkişaf, rifah və yüksəliş arzularını həyata keçirməkdə zati-alinizə yüksək inamın təcəssümüdür.

Uca Allahdan Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasına uğurlar diləyirəm.

**NİDERLAND KRALI VİLLEM-ALEKSANDRDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ölkələrimiz arasında dialoqun və əməkdaşlığın daha da möhkəmlənəcəyinə ümid edirəm.

Bakının BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək şəhər kimi seçilməsi ölkənizin hər bir vətəndaşı və bütün dünya üçün dayanıqlı və təhlükəsiz gələcəyə töhfə verməklə yanaşı, Azərbaycana beynəlxalq nüfuzunu nümayiş etdirmək imkanı yaradır.

Qarşıda duran vəzifələrin icrasında Sizə uğurlar və müvəffəqiyyətlər arzulayıram.

## KOREYA PREZİDENTİ
## YUN SOK YOLDAN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!
Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Koreya Respublikasının Hökuməti və xalqı adından səmimiqəlbdən təbrik edirəm. Uzaqgörənliyiniz və liderliyiniz sayəsində Azərbaycan Respublikasının davamlı şəkildə inkişaf edəcəyinə əminəm.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulduğu 1992-ci ildən bəri müxtəlif sahələrdə dostluq və əməkdaşlıq münasibətlərimiz genişlənmişdir. Son dövrlərdə enerji, infrastruktur, səhiyyə, «ağıllı kənd» və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsindən xüsusilə böyük məmnunluq duyuram.

Əminəm ki, birgə səylərimizlə ölkələrimiz arasında ikitərəfli əlaqələr daha da inkişaf edəcəkdir.

Sizə cansağlığı, Azərbaycan Respublikasına daimi inkişaf arzu edirəm.

## KUBA PREZİDENTİ MİGEL DİAS-KANEL BERMUDESDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin Sizin rəhbərliyinizlə bundan sonra da möhkəmləndirilməsi istiqamətində Kubanın qətiyyətli mövqeyini bir daha ifadə edirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN İCMALAR PALATASININ ÜZVÜ, AZƏRBAYCANLA DOSTLUQ QRUPUNUN SƏDRİ BOB BLƏKMƏNDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Bu il fevralın 7-də keçirilmiş seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Britaniya parlamentində Azərbaycanla dostluq qrupu adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Bu inamlı qələbə Sizin Azərbaycan xalqına sədaqətli xidmətinizin və xalqın zati-alinizə olan güclü etimadının göstəricisidir.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq adlandırdığımız güclü ikitərəfli əlaqələr mövcuddur. Böyük Britaniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsində və genişlənməsində parlamentlərarası əlaqələrin mühüm rolu olmasından məmnunluq duyuruq.

Qarşıdakı illərdə Böyük Britaniya–Azərbaycan əlaqələrini daha da gücləndirmək üçün Sizinlə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək, Azərbaycanı bu ilin noyabrında COP29-a ev sahibliyi etməsi münasibətilə təbrik edirəm və Böyük Britaniyanın COP-un

uğurla keçirilməsində ölkənizə dəstək verməyə hazır olduğunu vurğulayıram.

Zati-aliləri! Sizə möhkəm cansağlığı və bütün işlərinizdə davamlı uğurlar, o cümlədən Azərbaycan Respublikasına daimi rifah diləyirəm.

**BMT ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ İCRAÇI DİREKTORU SİNDİ MAKKEYDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Ümumdünya Ərzaq Proqramının adından ən səmimi təbriklərimi çatdırıram. Həmçinin BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi edəcək ölkə kimi seçilməsi ilə əlaqədar Sizi təbrik edirəm. Azərbaycan Respublikası üçün bu tarixi məqam qida təhlükəsizliyi, iqlim dəyişikliyi və sülh kimi məsələlərin qlobal siyasi gündəliyin ön sıralarına qoyulması baxımından fürsətdir.

Zati-aliləri! Əminik ki, Sizin müdrik liderliyinizlə Azərbaycan hökuməti münaqişədən əziyyət çəkən və digər həssas bölgələrdə iqlim dəyişikliyinin qida təhlükəsizliyinə təsiri kimi qlobal çağırışlarla mübarizəni davam etdirəcək. BMT-nin Ümumdünya Ərzaq Proqramı qida təhlükəsizliyi və iqlim dəyişikliyi kimi prioritet məsələləri qlobal gündəliyin əsas mövzusu kimi saxlamaq üçün birgə çalışmağa hazırdır.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul edin.

## BRAZİLİYA PREZİDENTİ LUİZ İNASİO LULA DA SİLVADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə zati-alinizi təbrik edirəm.

Ümidvaram ki, Braziliya və Azərbaycan arasında dostluq əlaqələri xalqlarımızın rifahı naminə beynəlxalq miqyasda da dərinləşməkdə davam edəcəkdir.

Fürsətdən istifadə edərək, Azərbaycana bu il COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərimi çatdırıram.

Ölkələrimiz arasında əməkdaşlıq üçlük – Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya çərçivəsində «1,5 dərəcə Selsi missiyası» istiqamətində xüsusilə aktual olacaqdır.

Cənab Prezident! Braziliya ilə Azərbaycan arasında münasibətlərin daha da yaxınlaşmasında maraqlı olduğumu bir daha bildirirəm. Sizə xoşbəxtlik, ali dövləti vəzifənizdə müvəffəqiyyətlər arzu edirəm.

## YUNANISTANIN BAŞ NAZİRİ KİRİAKOS MİTSOTAKİSDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Prezident seçkilərindəki qələbəniz münasibətilə Sizi təbrik edir və yeni səlahiyyət müddətinizdə zati-alinizə uğurlar arzulayıram.

Fürsətdən istifadə edərək, Azərbaycanla əməkdaşlığımızı qarşılıqlı mənafemiz naminə davam etdirməyə hazır olduğumuzu bildirirəm. Əminəm ki, əsasını strateji enerji əməkdaşlığımızın təşkil etdiyi ikitərəfli dialoqumuz gələcəkdə digər sahələrdə də genişlənəcəkdir.

Mən sülhün möhkəmləndirilməsi, beynəlxalq hüquqa hörmət və mehriban qonşuluq münasibətləri istiqamətində Sizinlə birgə işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

Hörmətli Prezident! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## QVATEMALA PREZİDENTİ BERNARDO AREVALODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Qvatemala xalqı, hökuməti adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Əminik ki, yeni prezidentlik müddətində fəaliyyətiniz mövcud ənənəvi dostluq, həmrəylik və əməkdaşlıq münasibətlərini möhkəmləndirməyə imkan yaradacaqdır.

Qvatemala ilə Azərbaycan arasında 1994-cü il noyabrın 1-də qurulmuş diplomatik münasibətlər əməkdaşlığımızı dərinləşdirən təşəbbüslərin irəli sürülməsi kimi ümumi maraqları müəyyənləşdirmək fürsətini yaratmışdır. Bu Sizin rəhbərliyinizlə qarşılıqlı fayda naminə yeni layihələrin təşviqi kimi, müxtəlif sahələr üzrə ikitərəfli, regional və çoxtərəfli gündəlikdə olan məsələlərin həyata keçirilməsinə imkan verəcəkdir.

Fürsətdən istifadə edərək, ali dövləti fəaliyyətinizdə Sizə böyük uğurlar arzu edir və dərin ehtiramımı bildirirəm.

## SAN-MARİNONUN KAPİTAN-REGENTLƏRİ FİLİPPO TAMANYİNİ VƏ QAETANO TROİNADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və bu ali vəzifədə fəaliyyətə başlamağınız münasibətilə San-Marino Respublikasının dövlət qurumları və xalqı adından Sizə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Zati-aliləri! Azərbaycan xalqına rifah və firavanlıq arzulayır, Sizə hörmət və ehtiramımızı bildiririk.

## RUSİYADA FƏALİYYƏT GÖSTƏRƏN «MƏRKƏZİ MÜFTİLİK» MÜSƏLMANLARIN MƏRKƏZLƏŞDİRİLMİŞ DİNİ TƏŞKİLATININ SƏDRİ MÜFTİ ANAR RAMAZANOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycanda həyatın bütün sahələrində böyük dəyişikliklər baş verib, ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Təkcə azərbaycanlılar deyil, həm də bütün Türk Dünyası Sizə rəğbət bəsləyir. Siz Azərbaycan xalqının əsrlərboyu yaratdığı milli-mənəvi, əxlaqi dəyərlərin və ənənələrin qorunub saxlanılmasını və inkişafını təmin etmisiniz. Dağıdılmış, təhqir edilmiş məbədlərin bərpası sahəsində Sizin gördüyünüz işlər bütün dünya müsəlmanları üçün örnəkdir.

Cənab Prezident! Moskva ümməti adından Sizə dəstəyimizi bildirir, Allahın mərhəmətini diləyir, ölkənin və xalqın rifahı naminə səmərəli fəaliyyətinizdə tükənməz enerji arzulayıram.

## KAMBOCA XALQ PARTİYASININ SƏDRİ HUN SENDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Bu il fevralın 7-də keçirilmiş seçkilərdə yenidən Prezident seçilməyiniz münasibətilə Sizi təbrik etməkdən böyük şərəf duyuram. Seçkilərdə inamlı qələbəniz Azərbaycan xalqının Sizin müdrik liderliyinizə, xüsusilə də dövlətin idarə olunmasında və inkişafında zəngin təcrübənizə güclü etimadının və inamının bariz göstəricisidir.

Mən qəti şəkildə əminəm ki, Azərbaycan Respublikasının Sizin rəhbərliyinizlə inkişafı davam edəcək, ölkəniz regional və qlobal məsələlərdə daha böyük rol oynayacaq və bu da xalqınıza daha çox fayda gətirəcək.

Kamboca Xalq Partiyası ölkələrimiz arasında uzun müddətdir mövcud olan dostluq münasibətlərini bütün səviyyələrdə, xüsusilə də «Qoşulmama Hərəkatı» çərçivəsində, eləcə də digər ikitərəfli və çoxtərəfli formatlarda möhkəmləndirməyə və dərinləşdirməyə böyük önəm verir.

Cənab Prezident! Yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və məsul vəzifənizdə uğurlar arzulayıram.

## AVROPA KOMİSSİYASININ PREZİDENTİ URSULA FON DER LYAYENDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Bu, Avropa İttifaqının bütün vətəndaşlarının maraqları naminə «Şərq Tərəfdaşlığı» çərçivəsində əhatə olunan ikitərəfli dialoqumuzun və bütün sahələrdə regional əməkdaşlığımızın, o cümlədən rifah və yaxşı idarəetmə prinsiplərinin möhkəmləndirilməsinə sadiqliyini vurğulamaq üçün münasib fürsətdir.

Avropa İttifaqı Cənubi Qafqaz regionunda davamlı sülhə və sabitliyə, həmçinin regional əməkdaşlığa və əlaqələrə təkan vermək istiqamətində işləməyə sadiqdir.

Mən 2024-cü ilin noyabr ayında Bakıda keçiriləcək BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransını – COP29-u səbirsizliklə gözləyirəm. Bu şübhəsiz ki, iqlim və enerji keçidi gündəliyinin irəlilədilməsində Azərbaycanın liderlik nümayiş etdirməsi baxımından əla fürsət olacaqdır.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ HÜSEYN İBRAHİM TAHA İLƏ TELEFONLA GÖRÜŞ

*10 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 10-da İslam Əməkdaşlıq Təşkilatının baş katibi Hüseyn İbrahim Taha telefonla zəng etmişdir.*

*Baş katib İlham Əliyevi Prezident seçkilərində qələbəsi münasibətilə təbrik edərək, ona ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzuladı.*

*O, Prezident İlham Əliyevin islam həmrəyliyi işinə verdiyi töhfəni xüsusi vurğuladı, eyni zamanda, işğaldan azad edilmiş torpaqlarımızda geniş abadlıq və quruculuq işlərinin həyata keçirilməsi ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirərək, bundan sonra da İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, təşkilatın inkişafı, üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi işinə töhfəsini verəcəyini qeyd etdi.*

*Dövlətimizin başçısı Hüseyn İbrahim Tahanı yenidən Azərbaycanda görmək istəyini ifadə edərək, onu ölkəmizə səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ MAYA SANDU İLƏ TELEFONLA GÖRÜŞ

*13 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 13-də Moldova Respublikasının Prezidenti Maya Sandu telefonla zəng etmişdir.*

*Maya Sandu İlham Əliyevi Prezident seçkilərində qələbə münasibətilə təbrik etdi, ölkənin inkişafı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİLLİ MƏCLİSDƏ ANDİÇMƏ MƏRASİMİ

*14 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Milli Məclisdə andiçmə mərasimi keçirilmişdir.*

*Andiçmə mərasimində Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumət və Milli Məclisin üzvləri iştirak etdilər.*

*Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.*

*Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.*

**Fərhad Abdullayev** (*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri*): Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:*

– Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

*Sonra Prezident müqəddəs «Qurani-Şərif»ə əl basaraq and içdi:*

– Əlimi «Qurani-Şərif»ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlərboyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət bayrağını öpdü.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, Prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

20 ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək, bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etdik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında təbii ki, ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə, bax, bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan–Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək, Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etdi, 300-dən çox şəhər və kənd azad olundu, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edildi. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və 10 minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun

illər ərzində təmkinlilik göstərirdi, aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

Bu inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər, bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etdik. Elə günə saldıq ki, özlərinin etirafına görə, 12000-dən çox fərarisi oldu. Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdı. Bu bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir. Bir daha göstərir – elə gənc nəsil yetişib ki, Vətən uğrunda, torpaq uğrunda, milli ləyaqət uğrunda ölümə getməyə hazırdır və ölümə də gedirdilər bizim gənclərimiz. Biz bütün dünyada Ermənistanın uzun illər ərzində yaratmağa çalışdığı mifləri darmadağın etdik, erməni ordusunu qorxaq və təslimçi ordu kimi təqdim etdik. Bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq

sübut etdilər və 44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərdi, Azərbaycan xalqının iradəsini göstərdi, Azərbaycan dövlətinin gücünü göstərdi. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun ordumuz geriyə addım atmadı, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq, İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu, bizim qarşımızda ağ bayraq qaldırdı, təslim oldu və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatdı.

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqemizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir. Kapitulyasiya aktında hər şey açıq-aydın göstərilmişdir. Düzdür, bəzi öhdəliklər yerinə yetirildi, o da məcburən, qorxudan. Çünki İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə vurdu ki, onlar uzun müddət ərzində özlərinə gələ bilmirdilər. Ancaq vaxt keçdikcə gördük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürülür, onlar yenidən o çirkin əməllərindən əl çəkmək istəmirlər. Biz isə haqlı olaraq tələb edirdik ki, bütün şərtlər və öhdəliklər icra edilməlidir. Ermənistan özü bu öhdəliklərin altında imza atıbdır. Onların arasında ilk növbədə, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması və Azərbaycanın əsas hissəsi ilə Nax-

çıvan Muxtar Respublikası arasındakı yol bağlantısı öhdəlikləri dururdu və 3 il ərzində bu öhdəliklərin yerinə yetirilməsi məsələsi öz həllini tapmamışdı. Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin.

Üç il ərzində biz yenə də səbir göstərdik, yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil.

Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmadı, hətta əlavə silah və sursat göndərdi, minalar göndərdi, bizə qarşı mina terroru davam etdi, daha geniş vüsət aldı. Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar.

Ona görə antiterror əməliyyatı qaçılmaz idi. Ermənistanın mövqeyində təzadlı məqamlar artıq bir qayda kimi müşahidə olunur. Əgər Ermənistan tərəfindən bir həftə təzadlı, bir-birini inkar edən hər hansı açıqlama verilməsə, biz artıq şübhə etməyə başlayırıq ki, görəsən, nələr baş verir. Bir tərəfdən, Azərbayca-

nın ərazi bütövlüyünü rəsmən tanıyan və 2022-ci ilin oktyabr ayında bunu bəyan edən dövlət digər tərəfdən, bizə qarşı ərazi iddialarından əl çəkmirdi. Bunu həm onların açıqlamaları göstərirdi, həm də onların qanunları, o cümlədən onların əsas qanunu bunu göstərirdi, eyni zamanda, separatçı qüvvələrə Ermənistan rəhbərliyi tərəfindən göndərilən təbrik məktubları göstərirdi. Bunu görmək istəməyənlər, bu gün Ermənistanın arxasında durmağa çalışanlar bilməlidirlər ki, heç nəyi gizlədə bilməyəcəklər.

Ərazi bütövlüyümüz tam bərpa olunmalı idi və biz İkinci Qarabağ müharibəsindən sonra bu məqsədə doğru məqsədyönlü şəkildə addımlayırdıq. İndi bütün hadisələri yenidən dilə gətirməyə ehtiyac yoxdur, Azərbaycan xalqı hər şeyi bilir və hər şeyi yadda saxlayır. Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın–Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax, bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər, o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salındı və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur oldular. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu Prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazisində keçirildi.

Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ ötən əsrin 80-ci illərinin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlanmışdı. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada 30 il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınmış o məkanı qanunsuz zəbt etmiş

şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etdilər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərdi ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan bayrağı ərazimizin hər bir yerində dalğalanacaq.

Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq. Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşa-

yırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir. Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah, sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış «Komando» silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə ordu yaratmışıq ki – bundan sonra da bu işlər davam edəcək – heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizimlə əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa

gələcək və bunu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

Biz çox güclü hərbi sənaye kompleksi yaradırıq, artıq bunun birinci mərhələsi başa çatıb. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı 1 milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah, sursat, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq. Necə ki, siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfıra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq.

Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya faktiki olaraq, Üçüncü dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq Üçüncü dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir. İkinci dünya müharibəsi ilə bugünkü müharibələri müqayisə etmək belə, mümkün deyil və təbii ki, bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu 20 ildən çoxdur ki, edirik və bu gün əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən

dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, ordumuz döyüş meydanında öz gücünü göstərib, ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq.

Biz sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılıbdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan–İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan–Ermənistan şərti sərhədində yerləşmişik.

Sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır. Biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə, uça bilməsin. Sərhədlərimizin qorunması eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib

vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir.

Bu gün Azərbaycan xalqı yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu, demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq – bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kəs onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailə-

dir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlərboyu bizə qarşı edilən ədalətsizliklə – təkcə son 30 il ərzində yox – torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatarsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi – bu vəzifələr bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda, heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz.

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan

biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan bayrağı altında birləşdi. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi vardır.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz – onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayırlar. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılarına qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq Qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq. Bizim birliyimiz bu səy-

lər qarşısında bir sədd kimi durmalıdır və durur. Bu istiqamətdə bundan sonra da lazımi addımlar atılacaq. Təbii ki, cəmiyyət, vəzifəli şəxslər, dövlət qurumları burada vahid siyasət aparır və bu siyasət gündəlik həyatda özünü göstərir.

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq 5 yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaqlar. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20000 keçmiş köçkünü yerləşdirməkdir. 100-dən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlanmışdır. Biz Böyük Qayıdış Proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140000 köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infra-

struktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü – 40 tunel və 90 körpü – inşa edilir. Yəni bu sadəcə olaraq, işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq, yəni geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək.

Bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir. Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Bu, ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az rəqəm təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni bu nəyi göstərir? Bu bizim sağ-

lam maliyyə sistemimizin göstəriciləridir və bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı – bəlkə də çoxlarının yadında deyil – 9 manat idi. İndi 345 manatdır. Bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Yenə də deyirəm, bu bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.

Biz yoxsulluqla bağlı və işsizliklə bağlı fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq, ciddi problemdir, o cümlədən də bizim üçün. Biz hər il on minlər-

lə yeni iş yeri yaratmalıyıq. Bunun üçün, əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpa olunan enerji ilə bağlı layihələr, həm turizm layihələri qeyri-neft sektoruna dəstək verəcəkdir.

Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Deyə bilərəm ki, bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcəkdir.

Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün istər sənaye inkişafı sahəsində, istər hərbi sənaye kompleksi sahəsində və ümumiyyətlə, hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. İkinci Qarabağ müharibəsi zamanı hər kəs bunu gördü, antiterror əməliyyatı zamanı da. Təbii ki, Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir. Ancaq texniki vasitələr də az rol oynamır. Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq. Ona görə texnoloji inkişafla bağlı hədəflər müəyyən edilib, bütün aidiyyəti qurumlara tapşırıqlar verilib. Bu iş böyük

səfərbərlik tələb edən işdir. Sadəcə olaraq, dövlət siyasəti burada yetərli deyil. Biz yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır. Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur, bəlkə də ictimaiyyət o qədər də məlumatlı deyil. Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdır. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik. Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar. Biz – İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim – sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Nə üçün görmürəm? Çünki bilirlər: bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə ol-

masa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir.

Digər vacib vəzifələrdən biri bərpa olunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, artıq işlərə start verilib. Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpa olunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən Günəş, külək və hidrosu-elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat.

Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpa olunan enerji hesabına istehsal ediləcək. Biz iqlim dəyişikliyi məsələlərinə də öz töhfəmizi vermiş olacağıq, xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a – dünya miqyasında ən böyük beynəlxalq konfransa ev sahibliyi edəcəkdir. Ona görə bərpa olunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib.

Ənənəvi yanacaq növləri – neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir.

Təbii qazla bağlı deyə bilərəm ki, biz artıq 8 ölkəyə təbii qaz ixrac edirik. Tələbat daha böyükdür, ilk növbədə, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, kömək edək. Bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi, həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir.

Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə. Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. «Şahdəniz» yatağından sonra ikinci resurs bazamız «Abşeron» qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il «Azəri–Çıraq–Günəşli» yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, «Ümid», «Babək», «Şəfəq», «Asiman», «Qarabağ» neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft

hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir.

Təbii ki, biz nəqliyyat sahəsində də işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Həm qərbdən, həm şərqdən, həm şimaldan, həm cənubdan bizə müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq, bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi yəqin ki, mümkün deyil. Belə olan halda, bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaqdır.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, Gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin etmişdi.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Beynəlxalq təcrübəyə əsaslanaraq, biz tranzit ölkə kimi, öz imkanlarımızı təqdim edirik. Təbii ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.

Azərbaycan o ölkələrdəndir ki, açıq dənizə çıxışı yoxdur. Ancaq buna baxmayaraq, dediyim o səbəb-

lərə görə bu gün biz nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Getdikcə rolumuz artacaq, bizə müraciətlər də çoxalacaq, necə ki, bu gün xahişlə müraciət edirlər ki, «bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır» və sair, burada da eyni mənzərə olacaqdır. Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, Prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb – bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik.

Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq–iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, bunu hamı bilir, daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Belə olmasaydı, 120 ölkə bizi «Qoşulmama Hərəkatı»na sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bəzən eşidirik ki, hansısa ölkələr, yaxud da ki, ölkələr qrupu beynəlxalq ictimaiyyət funksiyalarını öz üzərinə götürmək istəyir və beynəlxalq ictimaiyyət adından danışmağa çalışır. Sözü olmayan da deyir ki,

beynəlxalq ictimaiyyət bu məsələni yaxşı qəbul etməz, beynəlxalq ictimaiyyət o məsələni yaxşı qəbul etməz. Birincisi, bu, təvazökarlıqdan uzaq olan məsələdir. Məhdud sayda olan hər hansı 20–30 ölkə beynəlxalq ictimaiyyət adından danışa bilməz, o ki qaldı bir ölkə, ümumiyyətlə, danışa bilməz. Beynəlxalq ictimaiyyət isə bizim tərəfimizdədir və İkinci Qarabağ müharibəsi zamanı, antiterror əməliyyatı zamanı beynəlxalq ictimaiyyət bizi dəstəkləmişdir. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu, hesab edirəm ki, heç kimə sirr deyil.

Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk Dünyasıdır.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu olmayacaq! Bizim

ailəmiz Türk Dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

İslam Əməkdaşlıq Təşkilatı da həmişə – həm işğal dövründə, həm işğaldan sonra, həm İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda müsəlman dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

«Qoşulmama Hərəkatı»nda sədrliyi artıq təhvil verməyimizə baxmayaraq, biz üçlükdə təmsil olunuruq. «Qoşulmama Hərəkatı» bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, «Qoşulmama Hərəkatı» bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin

qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, biz bunu edəcəyik.

Biz, ümumiyyətlə, yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə xarici siyasətimizin əsas istiqaməti Ermənistan–Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ, demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq.

Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi – tarixdən qalan o eybəcər amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar peşman olacaqlar.

Nəhayət, Azərbaycan–Ermənistan münasibətləri. Mən bu məsələyə çıxışımın sonunda təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, necə deyərlər, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa

üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq, 5 məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüquq normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, Azərbaycan üçün heç nə dəyişməyəcək. Bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə onsuz da hazır olmalıyıq. Hesab edirəm ki, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin öz işinizlə məşğul olun. Mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik.

Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*14 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 14-də andiçmə mərasimindən sonra Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək, xatirəsini ehtiramla yad etmişlər.*

*Dövlətimizin başçısı və xanımı ulu öndərin məzarı önünə gül dəstələri qoydular.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edərək, üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.*

## ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*14 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 14-də xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişlər.*

*Dövlətimizin başçısı və xanımı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, «Əbədi məşəl» abidəsinin önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxt Bakının mənzərəsini seyr etdilər.*

*Sonra xatirə şəkli çəkdirildi.*

**AKADEMİK ARİF PAŞAYEVƏ**

Hörmətli Arif müəllim!

Sizi 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Görkəmli nəslin nümayəndəsi və ailə dəyərlərini uca tutan şəxsiyyət kimi, Sizin alicənablıq, sadəlik və xeyirxahlıqla səciyyələnən şərəfli həyat yolunuz əsl ziyalılığın parlaq nümunəsidir.

Siz Azərbaycan elminin inkişafında mühüm xidmətləri ilə tanınan dəyərli alimlərimizdənsiniz. Uzun illər ərzində apardığınız sanballı araşdırmalar, müəllifi olduğunuz ixtiralar və rəhbərliyiniz altında görülən xüsusi əhəmiyyətə malik işlər elmi ictimaiyyət tərəfindən daim maraqla qarşılanmış, ölkəmizdə və onun hüdudlarından kənarda Sizə şöhrət qazandırmışdır.

Nüfuzlu təhsil təşkilatçısı kimi göstərdiyiniz təqdirəlayiq fəaliyyət zəngin və səmərəli elmi yaradıcılığınızı üzvi surətdə tamamlayır. Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru olaraq, mülki aviasiyamız üçün yüksəkixtisaslı kadrların hazırlanmasında, habelə Akademiyanın regionun mötəbər ali təhsil müəssisələrindən birinə çevrilməsində böyük əməyiniz vardır.

Çoxsaylı elmi nailiyyətləriniz və təhsilin inkişafındakı əvəzsiz xidmətləriniz həmişə yüksək qiymətləndirilmişdir. Uğurlarına ürəkdən sevindiyiniz,

qayğılarına hər zaman şərik olduğunuz həmkarlarınızın və yetirmələrinizin, dostlarınızın və yaxınlarınızın Sizə sevgisi isə qazandığınız ən dəyərli sərvətdir.

Əziz Arif müəllim!

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

Dərin ehtiramla,

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2024-cü il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD İBRAHİM RƏİSİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi çatdırıram.

Tarixən xalqlarımızı birləşdirən dostluq münasibətləri və ortaq mənəvi dəyərlər Azərbaycan–İran dövlətlərarası əlaqələrinin və əməkdaşlığının inkişafı üçün yaxşı zəmindir. Bu gün iqtisadi-ticari, nəqliyyat və digər sahələrdə ölkələrimizin qarşılıqlı fəaliyyəti məmnunluq doğurur.

İnanıram ki, Azərbaycan ilə İran arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2024-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Sizi və Sizin simanızda dost Çin xalqını qarşıdan gələn Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ay təqvimi ilə Yeni ilin gəlişini tərənnüm edən və təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsi olan qədim Çuntsze bayramı özünün tükənməz yeniləşdirici ruhu ilə səmimiyyət, xeyirxahlıq, başqalarına qayğı kimi duyğuları gücləndirir. Zəngin milli-mənəvi ənənələri yaşadan xalqınıza bu bayramın xoşbəxtlik, firavanlıq və yeni-yeni uğurlar bəxş etməsini diləyirəm.

Fürsətdən istifadə edərək, Azərbaycan–Çin dostluq və əməkdaşlıq münasibətlərinin yüksələn xətlə inkişafından məmnunluğumu, dövlətlərarası əlaqələrimizin bundan sonra da birgə səylərimizlə möhkəmlənəcəyinə və genişlənəcəyinə əminliyimi ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Çin xalqına daim rifah və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2024-cü il*

**GÜRCÜSTANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**İRAKLİ KOBAXİDZEYƏ**

Hörmətli cənab Baş Nazir!

Gürcüstanın Baş Naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Biz tarixən bir-birinə dostluq və mehriban qonşuluq telləri ilə bağlı olan xalqlarımızın iradəsindən güc alan Azərbaycan–Gürcüstan münasibətlərinə xüsusi əhəmiyyət veririk. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin və əməkdaşlığımızın dinamik və hərtərəfli inkişaf edərək bugünkü səviyyəyə yüksəlməsi və yeni məzmun kəsb etməsi bizi sevindirir.

Əminəm ki, sağlam təməllər üzərində qurulmuş Azərbaycan–Gürcüstan ənənəvi dostluğu, qarşılıqlı faydalı əməkdaşlığı və strateji tərəfdaşlığı regionumuzun çiçəklənməsi naminə birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının əmin-amanlığı və firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2024-cü il*

**SERBİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Sizin qətiyyətli liderliyiniz sayəsində dost Serbiya hərtərəfli inkişaf edir və böyük uğurlara imza atır. Keçən ilin sonunda ölkənizdə baş tutmuş növbədənkənar parlament seçkilərinin nəticələri Sizin həyata keçirdiyiniz ümummilli siyasətə, əzmkar fəaliyyətinizə xalqınızın dəstəyini, Sizə olan inam və etimadı bir daha bariz şəkildə təsdiq etdi.

Biz xoş ənənələrə əsaslanan, qarşılıqlı hörmət və dəstək kimi sağlam təməllər üzərində qurulmuş Azərbaycan–Serbiya əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsi, səmərəli əməkdaşlığın və strateji tərəfdaşlığın gündən-günə genişlənməsi bizi çox sevindirir. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyimizi xüsusi qeyd etmək istərdim.

Siyasi əlaqələrimizin yüksək səviyyəsi, qarşılıqlı ali səfərlər və davamlı təmaslarımız bütün sahələr üzrə fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır. Bu yaxınlarda Serbiya–Bolqarıstan

qaz interkonnektorunun açılışı enerji sahəsində uğurlu və davamlı əməkdaşlığımızın növbəti əyani nümunəsidir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi olduqca genişdir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq, Azərbaycan–Serbiya dostluğu və əməkdaşlığının böyük potensialından tam şəkildə istifadə etmək və strateji tərəfdaşlığımızı daha da gücləndirmək məqsədilə birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Serbiya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2024-cü il*

## XXVII AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli Zirvə toplantısının iştirakçıları!

Sizi «Mərmərə Qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə keçirilən XXVII Avrasiya İqtisadi Zirvə toplantısının açılışı münasibətilə ürəkdən salamlayıram.

Xoş ənənəyə çevrilmiş Avrasiya İqtisadi Zirvə toplantısı dövlət xadimləri, tanınmış siyasətçilər və iş adamlarının bir araya toplandığı, regionumuzda və qlobal miqyasda cərəyan edən proseslər ətrafında fikir mübadiləsinin aparıldığı, hazırkı mürəkkəb böhranların aradan qaldırılması yollarının müzakirə edildiyi mötəbər platformadır.

Sürətlə transformasiyaya məruz qalan müasir dünyada ənənəvi təhdidlərlə yanaşı, bəşəriyyəti narahat edən yeni çağırışların və təhlükələrin meydana gəlməsi regional və qlobal problemlərin həlli istiqamətində yeni yanaşmaların formalaşdırılmasını labüd edir. Bu baxımdan Zirvə toplantısının hər il olduğu kimi, builki gündəliyi, o cümlədən iqlim böhranı, ətraf mühit və enerji məsələlərinə həsr olunmuş sessiyası xüsusi aktuallıq kəsb edir.

Hazırda hökm sürən iqlim dəyişmələri planetimizi təhdid edən başlıca problemlər sırasında yer almaqdadır. İqlim dəyişmələrinin təsirləri həyatın bütün sahələrində özünü büruzə verir. Azərbaycan iqlim

dəyişmələri ilə mübarizə məsələlərinə böyük diqqət ayırır, onun mənfi fəsadlarının azaldılması üçün birgə fəaliyyətin təmin olunması istiqamətində səylər göstərir. Təsadüfi deyil ki, dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bütün ölkələrin yekdil qərarı ilə 2024-cü ildə məhz Azərbaycanda keçiriləcəkdir.

Bununla yanaşı, Azərbaycan Avrasiya regionunda dinamik inkişafı ilə səciyyələnən tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə böyük önəm verir. Azərbaycan inkişaf etmiş nəqliyyat-logistika infrastrukturuna malik etibarlı tranzit ölkə olaraq, Avrasiyada regional əməkdaşlığın irəlilədilməsi, iqtisadi tərəqqinin təşviq edilməsi, qarşılıqlı bağlılığın gücləndirilməsi baxımından vacib rol oynayır.

Bu xüsusda ən yüksək zirvədə olan Azərbaycan–Türkiyə əlaqələrinin əhəmiyyətini vurğulamaq lazımdır. Qardaş Türkiyə ilə çoxşaxəli birgə fəaliyyətimiz, gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, regional əməkdaşlığa, təhlükəsizliyə və sabitliyə mühüm töhfə verir. Əminəm ki, xalqlarımızın qardaşlığı və birliyindən, ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən güc alan Azərbaycan–Türkiyə strateji müttəfiqliyi bundan sonra da birgə səylərimizlə «Bir millət – iki dövlət» prinsipinə uyğun olaraq inkişaf edəcək və möhkəmlənəcəkdir.

Eyni zamanda, Avrasiya İqtisadi Zirvə toplantısının xüsusi sessiyasının Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəlin 100 illik yubileyinə

həsr edilməsinin rəmzi mənası vardır. «Mərmərə Qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfinin əsasının qoyulmasına böyük töhfə vermiş mərhum Süleyman Dəmirəl Azərbaycan–Türkiyə dövlətlərarası münasibətlərinin formalaşmasında, qardaşlığımızın möhkəmləndirilməsində mühüm rolu olan görkəmli dövlət xadimi olub. Onun əziz xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

İnanıram ki, bu iclas Avrasiya regionunun davamlı inkişafı naminə qarşılıqlı faydalı tərəfdaşlığın genişlənməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Zirvə toplantısının işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 fevral 2024-cü il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYAN İLƏ TELEFONLA GÖRÜŞ

*15 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyan telefonla zəng etmişdir.*

*Şeyx Məhəmməd bin Zaid əl-Nəhyan İlham Əliyevi Prezident seçkilərində qələbə münasibətilə təbrik edərək, Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Azərbaycan Prezidenti və Prezident şeyx Məhəmməd bin Zaid əl-Nəhyan ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bir daha vurğuladılar və yüksək səviyyədə həyata keçirilən təmasların əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyini bildirərək, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin bu ilin yanvarında ölkəmizə rəsmi səfərinin əhəmiyyətini qeyd etdilər.*

*Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini COP28-in uğurla keçirilməsi müna-*

*sibətilə təbrik etdi və eyni zamanda, COP29-un Azərbaycanda keçirilməsi üçün göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.*

*Telefon söhbəti zamanı əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıldı.*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİTANAS NAUSEDAYA**

Hörmətli cənab Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Hazırda ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat, bərpa olunan enerji və digər sahələrdə səmərəli əməkdaşlıq üçün yaxşı imkanlar və perspektivlər vardır. Biz mövcud imkanlardan yararlanaraq, birgə səylərimizlə əlaqələrimizin inkişafına, əməkdaşlığımızın daha da dərinləşməsinə nail ola bilərik.

Əminəm ki, Azərbaycan–Litva münasibətləri həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində ardıcıl şəkildə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Litva xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 fevral 2024-cü il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da 60-cı Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlmişdir.*

## İTALİYANIN «LEONARDO» ŞİRKƏTİNİN BAŞ HƏMDİREKTORU LORENZO MARİANİ İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, İtaliyanın «Leonardo» şirkətinin baş həmdirektoru Lorenzo Mariani ilə görüşmüşdür.*

*Görüşə görə təşəkkürünü bildirən Lorenzo Mariani dövlətimizin başçısını Prezident seçkilərində qələbə münasibətilə «Leonardo» şirkəti ailəsi adından səmimi-qəlbdən təbrik etdi. Vurğuladı ki, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıqdan irəli gələrək, şirkətin ölkəmiz ilə əməkdaşlığı uğurla inkişaf edir.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə «Leonardo» şirkəti arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi və qeyd etdi ki, Prezident seçkilərində qələbə qazanması münasibətilə İtaliya Prezidenti tərəfindən göndərilmiş təbrik məktubunda İtaliya–Azərbaycan əlaqələrinin mükəmməl səviyyədə olduğu xarakterizə edilmişdir. Prezident İlham Əliyev də öz növbəsində, Azərbaycan–İtaliya əlaqələrinin həqiqətən, mükəmməl xa-*

*rakter daşıdığını və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə «Leonardo» şirkəti arasında müxtəlif sahələrdə, o cümlədən kibertəhlükəsizlik və kosmik sahələrdə, eyni zamanda, SOCAR ilə «Leonardo» şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, bu əməkdaşlıqdan məmnunluq ifadə olundu.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, MALTA RESPUBLİKASININ XARİCİ, AVROPA İŞLƏRİ VƏ TİCARƏT NAZİRİ İAN BORQ İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının Xarici, Avropa İşləri və Ticarət naziri İan Borq ilə görüşü olmuşdur.*

*İan Borq dövlətimizin başçısını Prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdi.*

*Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı öz növbəsində, Maltanın ATƏT-in fəaliyyətdə olan sədrliyi münasibətilə təbriklərini çatdırdı.*

*Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin – bu xüsusda ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacib olduğunu bildirərək, ATƏT çərçivəsində büdcənin də daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı*

*bildirdi ki, Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin edib.*

*Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli xarakter daşıdığını diqqətə çatdırdı.*

*Görüşdə Maltanın Xarici, Avropa İşləri və Ticarət naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Maltanın da kiçik ada ölkələrinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə həssaslıqla yanaşdığını və bu xüsusda Azərbaycan ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP çərçivəsində inklüziv konsepsiyanın tərəfdarıdır və kiçik ada dövlətlərinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə çox həssaslıqla yanaşır.*

*Görüşdə Azərbaycanın sədrliyi dövründə bu məsələyə xüsusi diqqət yetiriləcəyi və bu xüsusda da Malta ilə, həmçinin ATƏT platformasından istifadə edilərək, birgə əməkdaşlığa hazırlıq ifadə olundu.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ ODİL RENO-BASSO İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Basso ilə görüşü olmuşdur.*

*Odil Reno-Basso dövlətimizin başçısına Prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin həm Xəzər dənizində, həm də Qara dənizdə gəmi donanmasının artırılması layihələrində iştirakından məmnunluğunu ifadə etdi. Həmçinin AYİB-in Orta Dəhliz layihəsinə böyük əhəmiyyət göstərdiyini və bu çərçivədə Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək, bu kimi layihələrdə iştirak etməyə hazır olduğunu bildirdi.*

*Odil Reno-Basso vurğuladı ki, AYİB eyni zamanda, su resurslarının idarə edilməsi sahəsində də Azərbaycanın tərəfdaşı rolunda çıxış edir və bu istiqamətdə hökumətin həyata keçirdiyi layihələrə dəstək verməyə hazır-*

*dır. O həmçinin COP29 çərçivəsində də AYİB-lə Azərbaycan arasında əməkdaşlıq məsələlərinin, bu xüsusda ölkəmizin bərpa olunan enerji layihələri və «yaşıl keçid» istiqamətində siyasətinin də AYİB tərəfindən təqdir edildiyini və dəstəkləndiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Azərbaycanla AYİB arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Xəzər Dəniz Gəmiçiliyi ilə, həmçinin Orta Dəhliz və su resurslarının idarə edilməsi sahələrində əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edərək, Azərbaycanda «yaşıl keçid» və bərpa olunan enerji resurslarının inkişaf etdirilməsi layihələrinə böyük əhəmiyyət verildiyini, artıq ölkəmizin yaxın dövrlərdə bərpa olunan enerji resurslarının ixracatçısı qismində çıxış edəcəyini vurğuladı.*

*Görüşdə iqlim dəyişikliyinin Cənubi Qafqaz regionuna da öz təsirlərini göstərdiyi, bu xüsusda Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi, Azərbaycanda, həmçinin çaylarda suyun həcminin azalması və digər fəsadların hiss olunduğu qeyd edildi.*

*Söhbət zamanı Xəzər dənizinin suyunun şirinləşdirilməsi layihələrində də AYİB ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə toxunuldu.*

## ABŞ PREZİDENTİNİN QLOBAL İNFRASTRUKTUR VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ ÜZRƏ XÜSUSİ KOORDİNATORU AMOS HOXŞTEYN İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn ilə görüşü olmuşdur.*

*Amos Hoxşteyn COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.*

*ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru hələ ötən əsrin 90-cı illərindən Azərbaycan ilə ABŞ arasında əməkdaşlığı və Xəzər dənizinin karbohidrogen resurslarının dünya bazarına çıxarılmasını ehtiva edən layihələrdə Prezident İlham Əliyev ilə birgə tərəfdaşlığı məmnunluqla xatırlatdı, Azərbaycanın regionda strateji əhəmiyyətə malik ölkə olduğunu diqqətə çatdırdı.*

*Görüşdə Orta Dəhlizin inkişaf etdirilməsi və Azərbaycanın bu prosesdə rolu müzakirə olundu, COP29 çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli əlaqələrinə dair fikir mübadiləsi aparıldı.*

## ALMANİYA–CƏNUBİ QAFQAZ PARLAMENT QRUPUNUN SƏDRİ YOHAN DAVİD VADEFUL İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, Almaniya Bundestaqının Xristian-Demokrat–Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya–Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadeful ilə görüşü olmuşdur.*

## İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ İSHAQ HERSOQ İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, İsrail Dövlətinin Prezidenti İshaq Hersoq ilə görüşmüşdür.*

*İsrail Prezidenti İshaq Hersoq dövlətimizin başçısına Prezident seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirdi və bununla bağlı İshaq Hersoqdan rəsmi məktub formasında da təbrik aldığını məmnunluqla qeyd etdi.*

*Söhbət zamanı Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, hökumətlərarası birgə Komissiyanın fəaliyyəti qeyd olundu, iqtisadi-ticari, mədəni, humanitar əlaqələrə toxunuldu. Həmçinin Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli əlaqələrimizin inkişafına təkan verdiyi bildirildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## ALMANİYANIN ŞƏRQİ BİZNES ASSOSİASİYASININ İCRAÇI DİREKTORU MİXAEL HARMS İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harms ilə görüşü olmuşdur.*

*Görüşdə alman iş adamlarının Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməkdə maraqlı olduqları bildirildi. Xüsusilə nəqliyyat, logistika, sənaye, bərpa olunan enerji və digər sahələrdə marağı olan şirkətlərin nümayəndələrinin fevral ayında Azərbaycana səfərinin həyata keçirilməsi barədə Prezident İlham Əliyevə məlumat verildi. Qeyd edildi ki, bu səfər Azərbaycan Prezidentinin ötən il Almaniyaya səfəri çərçivəsində işgüzar dairələrlə keçirdiyi görüşün nəticəsidir və bu, indiyədək həm təmsilçilik, həm də say baxımından iş adamlarının ən böyük nümayəndə heyəti olacaqdır.*

*Görüşdə ölkəmizdə COP29-un keçirilməsinin öz növbəsində, daha geniş miqyasda iqtisadi layihələrin reallaşdırılması potensialının gücləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ HAKAN FİDAN İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, Türkiyə Respublikasının Xarici İşlər naziri Hakan Fidan ilə görüşü olmuşdur.*

*Hakan Fidan dövlətimizin başçısını Prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişaf etdiyi bir daha vurğulandı, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.*

*Görüşdə Azərbaycan–Ermənistan münasibətləri, sülh sazişi ilə bağlı danışıqlar və regional təhlükəsizlik məsələləri müzakirə olundu.*

## ABŞ PREZİDENTİNİN İQLİM ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CON KERRİ İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşü olmuşdur.*

*Con Kerri dövlətimizin başçısını Prezident seçkilərində qələbə və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Prezident İlham Əliyev ilə görüşlərini məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-la əlaqədar bir daha özünün iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirib. Azərbaycan eyni zamanda, milli səviyyədə bərpa olunan enerji və «yaşıl keçid» prosesi sahəsində ciddi tədbirlər həyata keçirməkdədir, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəkləyir. İqlim maliyyələşdirilməsi COP29-un*

*əsas mövzusu olacaq ki, Azərbaycan da bu xüsusda qlobal həmrəyliyə, xüsusilə də qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini davam etdirəcək. Bu xüsusda Azərbaycanın «Qoşulmama Hərəkatı»na 4 il sədrlik edən dövlət kimi, çox yaxşı təcrübəsi vardır. Eyni zamanda, Azərbaycan digər müxtəlif platformalarda fəal şəkildə iştirak edir ki, bundan da istifadə edərək, qlobal həmrəyliyə nail olunmasına dəstək verəcəkdir.*

*Dövlətimizin başçısı regional səviyyədə reallaşdırılan tədbirlər kontekstində Qara dənizin dibi ilə keçən layihəni qeyd etdi, həmçinin Xəzər dənizinin dibində bərpa olunan xəttin qurulması və bu xüsusda Mərkəzi Asiya dövlətləri ilə birgə işi diqqətə çatdırdı.*

*Con Kerri iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu vurğuladı. O, hazırda «yaşıl keçid»lə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvarlığını bildirdi.*

*Prezident İlham Əliyev Con Kerrini COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.*

*Con Kerri COP29-da məmnuniyyətlə iştirak edəcəyini diqqətə çatdırdı.*

## İRAQ KÜRDÜSTAN REGİONUNUN BAŞÇISI NEÇİRVAN BƏRZANİ İLƏ GÖRÜŞ

*Münhen*

*16 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 16-da qarşı tərəfin müraciətinə əsasən, İraq Kürdüstan Regionunun Başçısı Neçirvan Bərzani ilə görüşü olmuşdur.*

*Neçirvan Bərzani dövlətimizin başçısına Prezident seçilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, ondan da səmimi təbrik məktubu almasını məmnunluqla qeyd etdi.*

*İraq Kürdüstan Regionunun Başçısı Azərbaycana səfərini və dövlətimizin başçısı ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin nümayəndələrinin yaxından çalışdıqları vurğulandı. Həmçinin İraqın mərkəzi hökuməti ilə Azərbaycan arasında əlaqələr məmnunluqla qeyd olundu.*

*Söhbət əsnasında İraqın müxtəlif şəhərləri ilə Azərbaycan arasında birbaşa uçuşların olmasının önəmi qeyd edildi. Regionla Azərbaycan arasında iqtisadi-*

*ticari, mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi istiqamətində məsələlər nəzərdən keçirildi.*

*Neçirvan Bərzani COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı İraq Kürdüstan Regionunun Başçısını COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.*

*Söhbət zamanı iqlim dəyişikliyi istiqamətində də birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ OLAF ŞOLTS İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli əlaqələrlə bağlı fikir mübadiləsi aparıldı.*

*Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinə öz dəstəyini göstərməyə və xoşməramlı əsasda Almaniyada bu istiqamətdə müvafiq görüşlərin keçirilməsinə dəstək verməyə hazır olduğunu bildirdi. Olaf Şolts qeyd etdi ki, COP29 əsnasında Ermənistanla Azərbaycan arasında əldə olunan kompromislər, COP29-un Azərbaycanda keçirilməsi sülh gündəliyinin də irəli aparılması üçün əlverişli imkanlar və şərait yaradır.*

*Sonra Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü oldu.*

*Görüşdə Almaniya Kansleri açılış nitqi ilə çıxış etdi. O, Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini, eyni zamanda, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən aparılan missiyanı dəstəklədiyini vurğuladı.*

## «INDRA» ŞİRKƏTİNİN PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ MARK TOMAS MURTRA İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, «Indra» şirkətinin prezidenti, İdarə Heyətinin sədri Mark Tomas Murtra ilə görüşü olmuşdur.*

*Görüşdə ötən illər ərzində «Indra» şirkəti ilə Azərbaycan arasında qurulmuş əməkdaşlıqdan məmnunluq ifadə olundu, bu əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı.*

*Söhbət zamanı bir sıra yeni layihələr barədə fikir mübadiləsi aparıldı və əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraq ifadə olundu.*

## ERMƏNİSTANIN BAŞ NAZİRİ İLƏ İKİTƏRƏFLİ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olmuşdur.*

*Görüşdə iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası məsələləri müzakirə olundu. Xarici İşlər nazirliklərinə tezliklə sülh müqaviləsi ilə bağlı görüş və sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının keçirilməsi barədə təlimat verildi.*

*İki ölkə arasında COP29 əsnasında olan qarşılıqlı kompromislər və əldə edilmiş irəliləyiş müsbət qiymətləndirildi.*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olmuşdur.*

*President Volodimir Zelenski dövlətimizin başçısını seçkilərdə qələbə münasibətilə təbrik etdi, Azərbaycan Prezidentinə fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, Volodimir Zelenskidən təbrik məktubu aldığını da məmnuniyyətlə qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr müzakirə olundu.*

*President Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımların yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.*

*Söhbət zamanı iki ölkə arasında iqtisadi-ticari, humanitar, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken ilə görüşü olmuşdur.*

**E n t o n i  B l i n k e n:** Hərvaxtınız xeyir, cənab Prezident. Prezident Əliyevlə görüşmək imkanını çox yüksək qiymətləndirirəm. Son bir neçə ildə bizim görüşmək və söhbət etmək üçün bir çox imkanımız olub. Hesab edirəm ki, indiki zaman kəsiyi Azərbaycanın COP rəhbərliyini öz üzərinə götürməsi baxımından çox vacibdir. Biz bu məsələni ciddi dəstəkləyirik. Bu tədbirin uğurlu olması, eyni zamanda, Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün təmini üçün əlimizdən gələni etmək arzusundayıq. ABŞ bu istiqamətdə faydalı işlər görüb və görməyə davam edəcəkdir. Danışılacaq çoxlu mövzular vardır. Cənab Prezident, bu gün bizimlə görüşə vaxt ayırdığınıza görə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v**: Təşəkkür edirəm, cənab Dövlət katibi. Siz də qeyd etdiyiniz kimi, COP29 bizim

ikitərəfli gündəliyimizin önəmli bir hissəsidir. Bu, gündəliyimizdə duran məsələlərin mövzularını genişləndirir və biz cari ildə bütün təşəbbüslərimizlə bağlı hökumətinizin dəstəyinə ümid edirik. Cənab Dövlət katibi qeyd etdiyi kimi, gündəliyimizdə daha bir məsələ var və bu da Qafqazda regional vəziyyətdir, xüsusilə Ermənistan və Azərbaycan arasında sülhün əldə olunmasının perspektivləridir. Azərbaycan sülh prosesinə sadiqdir və sülh sazişinin ən qısa zamanda bağlanması bizim milli maraqlarımıza cavab verir. Mən Amerika Birləşmiş Ştatlarına və xüsusilə cənab Dövlət katibinə bu istiqamətdə göstərdiyi səylərinə görə təşəkkür edirəm.

* * *

*Görüşdə Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini qeyd edən Entoni Blinken ikitərəfli münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.*

*Azərbaycanın ABŞ ilə ikitərəfli gündəliyi çox yüksək qiymətləndirdiyini deyən dövlətimizin başçısı İlham Əliyev öz növbəsində vurğuladı ki, ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar vardır.*

*ABŞ Dövlət katibi COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, COP çərçivəsində ABŞ-ın da Azərbaycanla əməkdaşlığa və ölkəmizi bu istiqamətdə dəstəkləməyə hazır olduğunu dedi.*

*Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğuladı ki, COP29 Azərbaycanla ABŞ arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə birgə işin aparılması üçün çox yaxşı imkanlar yaradır.*

*Dövlətimizin başçısı ölkəmizin Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh gündəliyini dəstəklədiyini vurğuladı, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın baş naziri ilə keçirilmiş ikitərəfli görüşü qeyd etdi və sülh müqaviləsinə dair danışıqların, sərhədlərin delimitasiyası üzrə görüşlərin keçirilməsi ilə bağlı razılaşmaların əldə olunmasını müsbət addım kimi qiymətləndirdi.*

*Artıq regionda de-fakto sülhün olduğunu bildirən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan–ABŞ ikitərəfli əlaqələri Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması prosesindən kənar şəkildə özlüyündə inkişaf etdirilməlidir.*

*Söhbət zamanı regional bağlantılar, nəqliyyat, Orta Dəhliz və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ AVROPA YAŞIL SAZİŞ TƏŞƏBBÜSÜ, TƏSİSATLARARASI ƏLAQƏLƏR VƏ PLANLAŞDIRMA ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə icraçı vitse-prezidenti Maroş Şefçoviç ilə görüşü olmuşdur.*

*Maroş Şefçoviç Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etməsinin məmnunluq doğurduğunu vurğuladı. O, Azərbaycanın pan-Avropa enerji təchizatçısı olduğunu yüksək qiymətləndirdi. Tezliklə ölkəmizə səfər etmək niyyətində olduğunu bildirən Maroş Şefçoviç COP29-un Azərbaycan ilə Avropa İttifaqı arasında bərpa olunan enerji və iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını diqqətə çatdırdı.*

*O, Azərbaycanın ev sahibliyi edəcəyi COP29 sessiyasının əsas gündəliyinin çox vacib mövzulardan*

*birinin iqlim maliyyələşdirilməsi olacağını deyərək, Avropa İttifaqının da iqlim dəyişikliyi üzrə proseslərdə yaxından iştirak edən tərəfdaş kimi, Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan COP29-da qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini əsirgəməyəcək. Belə ki, Azərbaycanın «Qoşulmama Hərəkatı»nda, İslam Əməkdaşlıq Təşkilatında və digər üzv təşkilatlarda apardığı iş, Avropa İttifaqı ilə əlaqələri və digər tərəfdaşlarla münasibətləri bu cür həmrəyliyin əldə edilməsinə töhfə verə bilər.*

*Dövlətimizin başçısı, həmçinin COP çərçivəsində ilk dəfə olaraq «üçlük mexanizmi»nin yaradıldığını qeyd etdi və Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın bir araya gələrək, bu istiqamətdə birgə iş aparacağını vurğuladı.*

## BANQLADEŞ XALQ RESPUBLİKASININ BAŞ NAZİRİ ŞEYX HASİNA İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, Banqladeş Xalq Respublikasının Baş Naziri Şeyx Hasina ilə görüşü olmuşdur.*

*«Qoşulmama Hərəkatı»nın Zirvə görüşü çərçivəsində ölkəmizə səfərini və Azərbaycan Prezidenti ilə görüşlərini məmnunluqla xatırladan Şeyx Hasina dövlətimizin başçısına Prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.*

*Banqladeşin Baş Naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də qlobal iqlim dəyişikliyindən əziyyət çəkdiyini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın COP29 çərçivəsində inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Azərbaycanın «Qoşulmama Hərəkatı»nda sədrliyinin İslam Əmək-*

*daşlıq Təşkilatı, eyni zamanda, Avropa təsisatları ilə əlaqələrinin bu istiqamətdə həmrəyliyin gücləndirilməsi işinə töhfə verəcəyini diqqətə çatdırdı.*

*Azərbaycan Prezidenti COP29-da iştirak etmək üçün Banqladeşin Baş Nazirini ölkəmizə səfərə dəvət etdi. Şeyx Hasina dəvəti məmnuniyyətlə qəbul etdi.*

*Görüşdə Banqladeşlə Azərbaycan arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, əczaçılıq, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin olduğu diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycan–Banqladeş iqtisadi əməkdaşlıq üzrə İşçi qrupunun yaradılmasının və iki ölkənin biznes dairələri arasında əlaqələrin qurulmasının vacibliyi vurğulandı.*

*Ölkələrimizin Xarici İşlər nazirləri və aidiyyəti dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi və siyasi məsləhətləşmələr mexanizminin yaradılması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏNAYE VƏ QABAQCIL TEXNOLOGİYALAR NAZİRİ SULTAN ƏHMƏDƏL-CABİR İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd əl-Cabir ilə görüşü olmuşdur.*

*Sultan Əhməd əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyanın salamlarını və ən xoş arzularını, həmçinin Prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevə, Azərbaycan dövlətinə və xalqına səmimi təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev bu yaxınlarda Prezident şeyx Məhəmməd bin Zaid əl-Nəhyanla telefon danışığını və onun Azərbaycana səfərini məmnunluqla xatırlatdı. Qeyd etdi ki, bu, tarixi səfər idi. Belə ki,*

*BƏƏ Prezidenti ilk dəfə Azərbaycana rəsmi səfər edirdi.*

*COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı Azərbaycanı təbrik edən nazir Prezident şeyx Məhəmməd bin Zaid əl-Nəhyanın tapşırığına əsasən, BƏƏ-nin COP heyətinin hazırda Azərbaycan nümayəndə heyəti ilə yaxından işlədiyini diqqətə çatdırdı. O, COP29-un COP-un tarixində ən uğurlu sessiyalardan biri olacağına əminliyini ifadə etdi.*

*Azərbaycan Prezidenti COP çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizə göstərdiyi dəstəyin və aparılan təcrübə mübadiləsinin çox əhəmiyyətli olduğunu bildirdi. Dövlətimizin başçısı BƏƏ, Azərbaycan və Braziliya arasında COP çərçivəsində yaradılmış üçlük mexanizminin çox uğurlu addım olduğunu diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycanla BƏƏ arasında müxtəlif sahələrdə, o cümlədən ölkəmizdə bərpa olunan enerji sahəsində əməkdaşlıq xüsusi vurğulandı. «Masdar» şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti və ölkəmizin qeyri-neft sənayesinə yatırdığı investisiyalar məmnunluqla qeyd edildi, bu sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## «THE ROCKEFELLER FOUNDATİON»UN STRATEJİ KOMMUNİKASİYALAR, SİYASƏT VƏ TƏBLİĞAT ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ EYLİN OKONNOR İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də qarşı tərəfin müraciətinə əsasən, «The Rockefeller Foundation»un strateji kommunikasiyalar, siyasət və təbliğat üzrə baş vitse-prezidenti Eylin Okonnor ilə görüşü olmuşdur.*

*COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıran Eylin Okonnor «The Rockefeller Foundation»un dünyada iqlim dəyişikliyi və onun qarşısının alınmasının maliyyələşdirilməsi sahəsində aktiv fəaliyyət göstərdiyini, bu istiqamətdə bir sıra dövlətlərlə, özəl sektorla və vətəndaş cəmiyyəti ilə çalışdığını qeyd etdi. O bu xüsusda Azərbaycanla əməkdaşlığa hazır olduqlarını bildirdi.*

*Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı qeyd etdi ki, COP29-la əlaqədar inklüzivliyin tərəfdarıdır və Azərbaycan bu istiqamətdə beynəlxalq ictimaiyyətlə yaxından işləyir.*

*Ölkəmizin «The Rockefeller Foundation»la əməkdaşlığa hazır olduğunu vurğulayan Prezident İlham Əliyev fondun nümayəndə heyətini Azərbaycana səfərə dəvət etdi.*

## BUNDESTAQIN XRİSTİAN-DEMOKRAT–XRİSTİAN-SOSİALİST İTTİFAQI FRAKSİYASININ ÜZVÜ ARMİN LAŞET İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 18-də qarşı tərəfin müraciətinə əsasən, Bundestaqın Xristian-Demokrat–Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının üzvü Armin Laşet ilə görüşü olmuşdur.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİ KRİŞTOF XOYSQEN İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 18-də qarşı tərəfin müraciətinə əsasən Münhen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqen ilə görüşü olmuşdur.*

*Kriştof Xoysqen Münhen Təhlükəsizlik Konfransına dəvəti qəbul etdiyinə və iştirakına görə dövlətimizin başçısına təşəkkürünü bildirdi, COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransına dəvətə görə təşəkkürünü və COP29 ilə əlaqədar təbriklərə görə minnətdarlığını ifadə etdi.*

*Kriştof Xoysqen qeyd etdi ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təhlükəsizliyə münasibətdə əhatəli və müfəssəl bir yanaşma var, ona görə iqlim dəyişikliyi də təhlükəsizlik konsepsiyasının bir hissəsi hesab olunur. O bu xüsusda Münhen Təhlükəsizlik Konfransının Katibliyi olaraq, Azərbaycanla COP29 çərçivəsində əməkdaşlığa və həmin sessiya zamanı ölkəmizdə birgə tədbirin keçirilməsinə hazır olduğunu vurğuladı.*

*Bu təklif dövlətimizin başçısı tərəfindən məmnunluqla qəbul edildi. Azərbaycanın COP Təşkilat Komitəsi tərəfindən Münhen Təhlükəsizlik Konfransının Katibliyi ilə bu istiqamətdə birgə işin aparılacağı diqqətə çatdırıldı.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan COP29-un mahiyyət üzrə nəticə yönümlü sessiya olması üçün bütün beynəlxalq tərəfdaşlarla birgə işləməyə hazırdır. Hazırda COP çərçivəsində üçlük mexanizmi yaradılıb ki, bu, Birləşmiş Ərəb Əmirliklərini, Azərbaycanı və Braziliyanı bir araya gətirir.*

*Görüşdə, həmçinin regional məsələlər müzakirə olundu. Dövlətimizin başçısı bu xüsusda Azərbaycanın sülh gündəliyini, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini dedi. Bu istiqamətdə Almaniya Kansleri Olaf Şoltsun təşəbbüsü ilə təşkil olunmuş görüşün səmərəli və konstruktiv şəraitdə keçdiyini diqqətə çatdırdı.*

## DÜNYA BANKININ BAŞ İDARƏEDİCİ DİREKTORU AKSEL TROTSENBURQ İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 18-də qarşı tərəfin müraciətinə əsasən, Dünya Bankının baş idarəedici direktoru Aksel Trotsenburq ilə görüşü olmuşdur.*

*Aksel Trotsenburq Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdı, bunun ölkəmizin «yaşıl keçid»ə və iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi dəstəyin təzahürü olduğunu bildirdi. O, Dünya Bankının Azərbaycanla bu istiqamətdə əməkdaşlığa hazır olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu. Azərbaycanın xarici borcunun hazırda 7 faiz civarında olmasının çox müsbət göstərici olduğu və bütövlükdə iqtisadi göstəricilərin çox müsbət xarakter daşıdığı vurğulandı.*

*COP29-un iqlim maliyyələşdirilməsi mövzusuna həsr ediləcəyi nəzərə alınaraq, bu mühüm tədbir çər-*

*çivəsində də Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq üçün yaxşı imkanların olduğu diqqətə çatdırıldı.*

*Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən bərpa olunan enerji layihələri haqqında məlumat verdi. Bunların ilk növbədə, milli və regional səviyyədə layihələr olduğunu söylədi, bu xüsusda Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli layihəsi və Xəzər dənizində Azərbaycanın bərpa olunan enerji potensialının 157 qiqavatdan artıq olduğu, ölkəmizin yaxın müddətdə «yaşıl enerji» ixracatçısı olacağı qeyd edildi və bütün bunlar müsbət addım kimi qiymətləndirildi.*

## ATƏT-in BAŞ KATİBİ, MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI FONDU ŞURASININ VİTSE-PREZİDENTİ HELQA MARİYA ŞMİD İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 18-də qarşı tərəfin müraciətinə əsasən, ATƏT-in baş katibi, Münhen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti Helqa Mariya Şmid ilə görüşü olmuşdur.*

*ATƏT-in baş katibi Prezident seçkilərində qələbəsi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.*

*Söhbət zamanı Azərbaycanla ATƏT arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq, bu xüsusda birgə tədbirlərin keçirilməsi məsələlərinə toxunuldu. Həmçinin regional məsələlər barədə fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Almaniya Kanslerinin təşəbbüsü ilə təşkil olunmuş görüşün konstruktiv və faydalı mühitdə keçdiyini qeyd etdi, artıq Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması, sərhədlərin delimitasiyası və sülh müqaviləsi üzrə*

*danışıqların aparılması istiqamətində razılıqların əldə olunduğunu, bu xüsusda Xarici İşlər nazirləri səviyyəsində tezliklə görüşün keçiriləcəyinin razılaşdırıldığını diqqətə çatdırdı. Sülhün əldə edilməsinin və sülh müqaviləsinin imzalanmasının çox real olduğunu vurğulayan dövlətimizin başçısı regionda de-fakto sülhün mövcud olduğunu bildirdi. COP29-a sədrliyin Azərbaycana verilməsi prosesinin Ermənistanla Azərbaycan arasında qarşılıqlı anlaşma və kompromis şəraitində reallaşmasının özünün bütövlükdə müsbət bir addım olduğu, bu dinamikanın davam etdirilməsinin vacibliyi diqqətə çatdırıldı.*

*Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin – bu xüsusda Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi, tamamilə fəaliyyətsiz strukturların artıq ləğv edilməsinin vaxtının çoxdan yetişdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda ATƏT çərçivəsində büdcə problemlərinin olduğunu nəzərə alaraq, mövcud məhdud maliyyə resurslarını daha məqsədyönlü hədəflərə doğru yönəltməyin önəmini diqqətə çatdırdı.*

## TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*18 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə fevralın 18-də Türkiyə Respublikasına rəsmi səfər etmişdir.*

*Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Abdulkadir Uraloğlu və digər rəsmi şəxslər qarşıladılar.*

## ANITQƏBİRİ ZİYARƏT

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni – Anıtqəbiri ziyarət etmişdir.*

## HEYDƏR ƏLİYEV PARKINDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Türkiyənin Ankara şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 19-da Türkiyə Respublikası Prezidentinin sarayında – Külliyədə rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin sarayına gəldi.*

*Sarayın qarşısındakı meydanda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsini salamladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Türkiyənin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü olmuşdur.*

**Rəcəb Tayyib Ərdoğan:** Hörmətli cənab Prezident! Əziz qardaşım!

Hörmətli heyət üzvləri!

Sizləri ən səmimi duyğularım və məhəbbətlə salamlayıram. Fevralın 7-də keçirilmiş seçkilərdə tarixi Zəfərə imza atmağınızdan sonra ilk rəsmi səfərinizdə Sizi Ankarada qonaq qəbul etməkdən böyük məmnunluq duyuram. Bu yeni dövrdə mükəmməl səviyyədə davam edən əməkdaşlığımızı həmişəkindən daha yüksək səviyyəyə çatdıracağımıza ürəkdən inanıram.

Əziz qardaşımla bir az əvvəl çox faydalı bir görüş keçirdik, xüsusilə ticarət, enerji və müdafiə sənayesi sahələrindəki əlaqələrimizi müzakirə etdik. Ermənistanla münasibətlər başda olmaqla, regional proseslər haqqında fikir mübadiləsi apardıq. İkitərəfli ticarət dövriyyəmizi 1 il əvvəlkinə nisbətən 16 faizdən çox artımla 7,5 milyard dollar səviyyəsinə çatdırdıq. Tə-

bii ki, bilirsiniz, hədəfimiz 15 milyard dollardır. Hörmətli qardaşımla bu istiqamətdəki qətiyyətimizi möhkəmləndirdik.

May ayında Ankarada keçirəcəyimiz birgə iqtisadi Komissiyanın 11-ci iclası bu istiqamətdə hazırlanacaq «Yol xəritəsi»nin müəyyənləşdirilməsinə fayda verəcək. Bu gün imzalanacaq «Gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş» də hədəflərimizə çatmağımıza töhfə verəcək.

Geosiyasi nizama təsir edən koronavirus pandemiyası və Ukrayna müharibəsi kimi proseslər Orta Dəhlizin etibarlı marşrut olduğunu bir daha göstərdi. 2017-ci ildə açılmış Bakı–Tbilisi–Qars dəmir yolu xətti Orta Dəhlizin strateji mərhələsi oldu. Bu xətdəki işlərin ən qısa zamanda başa çatdırılması və xəttin tamamilə işlək vəziyyətə gətirilməsi ortaq mənfəətimizə xidmət edir. Çünki təmirlə əlaqədar yaşanan plansız bağlanma səbəbindən yükdaşıyıcıları çətin vəziyyətdə qalıb. Bundan başqa, uzun müddət bağlı qalan xətt beynəlxalq səviyyədə cazibəsini itirir. Quru yolu ilə tranzitdaşımalarını ən qısa zamanda sərbəst vəziyyətə gətirməyimiz də əhəmiyyətlidir. Bu məsələdə dəstəyinizə güvənirəm.

Hörmətli cənab Prezident ilə enerji sahəsindəki əməkdaşlığımızı ətraflı müzakirə etdik. Diqqəti Avropadan keçən layihələrdə birgə təşəbbüslərimizin artırılmasının önəminə cəlb etdik. Azərbaycanın Naxçıvan ərazisindən elektrik ixracı və İğdır–Nax-

çıvan təbii qaz boru kəməri layihələrinin qısa zamanda başa çatdırılmasına önəm verirəm.

Təhsil sahəsindəki əlaqələrimizin inkişafından da məmnunluq duyuram. Bu çərçivədə bir az sonra imzalanacaq «Türkiyə–Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu» ali təhsil sahəsində əməkdaşlıq baxımından yeni bir dönüş nöqtəsi olacaq. Universitetimiz elm və texnologiya sahələrində münasibətlərimizi yeni səviyyəyə qaldıracaq. Bu istiqamətdə başda səhiyyə olmaqla, mühəndislik və texnologiya sahələrində təcrübə mübadiləmiz artacaq.

Digər tərəfdən, BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a bu il ev sahibliyi etməyinizdən böyük məmnunluq duyuram.

Dəyərli heyət üzvləri, Türk Dövlətləri Təşkilatımıza verdiyim böyük önəm sizə məlumdur. Növbəti fövqəladə Zirvə toplantımızı, inşallah, Şuşada keçirəcəyik. Şimali Kipr Türk Respublikasının Zirvə toplantısının tədbirlərinə qatılması məsələsində Azərbaycanın göstərdiyi həssaslığa və dəstəyə görə təşəkkür edirəm. Eyni həssaslığı təşkilatımızın digər üzvlərindən də gözləyirik. Təşkilatımız çərçivəsində əməkdaşlığın daha da inkişafı üçün ortaq səylərimizi davam etdirəcəyimizə inanıram.

İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və D8 iqtisadi və ticarət sahəsindəki əməkdaşlığımızı taclandıran digər önəmli regional təşkilatlardır. Xüsusilə İqtisadi Əməkdaşlıq

Təşkilatının malik olduğu potensialdan daha çox istifadə edəcəyimizə inanıram.

Ev sahibliyinizlə keçirilməsi nəzərdə tutulan növbəti Zirvə toplantısı ilə əlaqədar dəstəyimiz tamdır. Azərbaycanın D8-ə üzvlük müraciətini ən güclü şəkildə dəstəkləyirik. Bəzi tərəddüdləri olan Misir başda olmaqla, D8 üzvləri arasında bu istiqamətdə təşəbbüslər irəli sürdüm və irəli sürməkdə də davam edəcəyik.

Bu düşüncələrlə çıxışımı bitirərkən hörmətli qardaşım Əliyevə və dəyərli heyətinə bu səfərə görə bir daha təşəkkür edirəm. Qarşıdakı dövrün Türkiyə və Azərbaycan üçün xeyirli olmasını uca Rəbbimdən diləyirəm.

**İlham Əliyev**: Əziz qardaşım, hörmətli cənab Prezident! Əziz dostlar!

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm. Siz də qeyd etdiyiniz kimi, mənim Prezident seçkilərindən sonra ilk rəsmi səfərim qardaş Türkiyəyədir. Bu da təbiidir. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin bənzəri, tayı yoxdur və bu əlaqələr hər gün daha da güclənir.

Bu gün təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik, bu il üçün və gələcək illər üçün «Yol xəritəsi»ni bir daha gözdən keçirdik. Müdafiə sənayesi sahəsində çox gözəl irəliləyişlər var və Prezident seçkilərindən iki gün sonra mənim iştirak etdiyim ilk tədbir «Bayraktar Akıncı» PUA-sının təqdimatı idi. Artıq PUA-lar da Azərbaycan səmasında uçur və bu bizim üçün həm əlavə imkanlar

yaradır, eyni zamanda, texnoloji inkişafımız üçün önəmli şərtdir. «Baykar Holding»in Azərbaycanda təlim, tədris və təmir mərkəzinin yaradılması üçün işlər sürətlə gedir. Ümid edirəm ki, bu il və ya gələn il bu gözəl mərkəz açılacaqdır. Eyni zamanda, Türkiyənin bir neçə şirkəti ilə ortaq istehsal üzrə danışıqların son mərhələsindəyik.

* * *

*Görüşdə Şuşa Bəyannaməsinin ölkələrimiz arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdığı xüsusilə qeyd olundu.*

*İkitərəfli ticarət dövriyyəsinin 7,5 milyard dollara çatdığı, müdafiə sənayesi, hərbi, energetika, təhsil və digər sahələrdə əməkdaşlığın, Orta Dəhliz məsələsində Azərbaycan ilə Türkiyənin işbirliyinin, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılmasının, həmçinin Naxçıvanda birgə layihələr və sonuncu səfər zamanı imzalanmış sənədlərin, o cümlədən Naxçıvanın qaz təchizatı istiqamətində layihələrin, Qars–Naxçıvan dəmir yolunun tikilməsinin mühüm əhəmiyyəti vurğulandı.*

*Dövlətimizin başçısı bir daha 44 günlük Vətən müharibəsində bütün qardaş Türkiyənin və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın yanında olmasının, mənəvi və siyasi dəstəyinin torpaqlarımızın azad edilməsində aparıcı rol oynadığını, Qarabağ dastanının yazılmasında mühüm amil olduğunu bildirdi.*

*Görüş çərçivəsində beynəlxalq təşkilatlarda Azərbaycanla Türkiyə arasında əməkdaşlıq, ölkələrimizin bir-birini daim dəstəklədiyi vurğulandı.*

*Prezident Rəcəb Tayyib Ərdoğan COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı iki ölkə arasında bu əsnada əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu, Azərbaycanın da birgə əməkdaşlığa hazır olduğunu qeyd etdi. Həmçinin ölkələrimizin birgə təşəbbüslərlə çıxış etmələrinin vacibliyi diqqətə çatdırıldı.*

*Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının bizim bir ailəmiz olduğunu və Milli Məclisdə keçirilmiş andiçmə mərasimində çıxışı zamanı da bu faktı vurğuladığını qeyd etdi. Böyük coğrafiyaya, təbii qaynaqlara, insani resurslara, geniş potensiala malik Türk Dövlətləri Təşkilatının birgə səylərlə daha da inkişaf etdirilməsinin vacibliyi bildirildi.*

*Eyni zamanda, müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və iki ölkənin Silahlı Qüvvələrinin birgə təlimlərinin keçirilməsi məsələlərinə toxunuldu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə fevralın 19-da Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə–Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu»nu Azərbaycanın Elm və Təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvar imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Türkiyənin Kənd Təsərrüfatı və Meşə naziri İbrahim Yumaklı imzaladılar.*

*«Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin Xəzinə və Maliyyə naziri Mehmet Şimşək imzaladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Ankara*

*19 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 19-da mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli nazirlər, hörmətli mətbuat nümayəndələri!

Sizləri ən səmimi hisslərlə, hörmətlə, məhəbbətlə salamlayıram.

Əziz qardaşım İlham Əliyevi xalqının yüksək etimadı ilə beşinci dəfə can Azərbaycanın Prezidenti seçilməsi münasibətilə bir daha təbrik edirəm.

İlham qardaşımın Prezident seçilməsindən dərhal sonra ilk rəsmi xarici səfərini Türkiyəyə etməsindən böyük məmnunluq duyuram.

Bildiyiniz kimi, bu Prezident seçkiləri ilk dəfə Azərbaycanın suveren torpaqlarının hamısında keçirilməsi ilə əlaqədar tarixi bir önəmə sahibdir. Seçkilərin nəticələrinin Türkiyə–Azərbaycan münasibətləri və qardaş Azərbaycan xalqı üçün xeyirli olmasını diləyirəm.

Azərbaycan seçkilər ərəfəsində təəssüf ki, bəzi haqsızlıqlara məruz qaldı. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin bu il keçiriləcək tədbirlərə qatılmasına maneə yaradılması ilə bağlı qəbul edilən qərarlara etirazımızı güclü şəkildə göstərdik. Assambleyanın münaqişə yox, parlament demokratiyasını gücləndirəcək bir dialoq platforması olmasının vacibliyini vurğulamaqda davam edəcəyik. Qəbul olunan qərar ləğv edilənə qədər Azərbaycana dəstəyimizi və bu istiqamətdəki səylərimizi davam etdirəcəyik.

Hörmətli mətbuat nümayəndələri, əziz qardaşımla görüşlərimizdə ikitərəfli əlaqələrimizin bütün istiqamətlərini nəzərdən keçirdik, regional və beynəlxalq məsələləri dəyərləndirdik.

Azərbaycan ilə əməkdaşlığımızın ümummilli lider Heydər Əliyevin vurğuladığı «Bir millət – iki dövlət» şüarı əsasında irəlilədiyini görürük. Ümumi ticarət dövriyyəmiz keçən il ilk dəfə 7,5 milyard dollar səviyyəsinə çatdı. 15 milyard dollarlıq hədəfimizə çatmaq üçün səylərimizi artırmaqda qətiyyətliyik.

Kritik meydan oxumaların yaşandığı bir dövrdə ölkələrimizin nəqliyyat və enerji sahələrindəki potensialını inkişaf etdirməli olduğumuz aşkardır. Bakı–Tbilisi–Qars dəmir yolu xətti bunun ən konkret

nümunələrindəndir. Bu xətdən ən yüksək səmərə götürmək üçün bərpa işləri sürətlə başa çatdırılmalıdır.

Ötən ilin sentyabrında «Türk qapısı» Naxçıvana səfərim zamanı hörmətli Əliyev ilə birlikdə Qars–Naxçıvan dəmir yolu layihəsi ilə bağlı Niyyət Protokolunu bu düşüncə ilə imzaladıq.

TANAP-ın imkanlarının artırılması, Xəzərin təbii qazının Türkiyəyə və Avropaya çatdırılması bu istiqamətdəki prioritetlərimiz sırasındadır. Naxçıvana səfərim çərçivəsində təməlini qoyduğumuz İğdır–Naxçıvan təbii qaz boru kəməri layihəsi ilə enerji sahəsində əməkdaşlığımızı yeni bir səviyyəyə çatdırdığımızı da xatırlatmaq istəyirəm.

Hörmətli mətbuat nümayəndələri, görüşlərimizdə Cənubi Qafqazda sülh və sabitliyə dair atılan addımları da müzakirə etdik. Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün imzalanmasının bölgəmiz və dünyada sülh, əmin-amanlıq və sabitlik üçün yeni bir ümid mənbəyi olacağı şübhəsizdir. Bu prosesdə Azərbaycan ilə birlikdə çiyin-çiyinə hərəkət edirik. Qarabağda işğala son qoyulması ilə birlikdə bölgəmizdə davamlı sülh üçün tarixi bir fürsət pəncərəsi açıldı. Bu fürsət pəncərəsinin bağlanmaması çox önəmlidir. Ermənistanın uzaqgörənliklə düşünərək strateji bir perspektivlə bu prosesi dəyərləndirməli olduğuna inanıram. Üçüncü tərəfləri də prosesi zəhərləmək əvəzinə, konstruktiv töhfələr verməyə dəvət edirik. Fürsətdən istifadə edərək, bir neçə gün əvvəl iki ölkənin sərhədində baş vermiş hadisələrin bir daha yaşanmamasına ümid etdiyimizi də bildirmək

istəyirəm. Azərbaycan Ordusunun yaralanmış əsgər qardaşımıza tezliklə şəfa tapmasını diləyirəm.

Görüşlərimizdə İsrailin Qəzzada bütün insanlıq dəyərlərini və beynəlxalq hüququ ayaq altına alan qətliamlarını və bölgəmizi maraqlandıran digər münaqişələri də müzakirə etdik.

Ailə məclisimiz olan Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da təsisatlanması və güclənməsi üçün çalışmaqda davam edirik. İyul ayında Təşkilatımızın fövqəladə Zirvə görüşünün Türk Dünyasının mədəniyyət paytaxtı Şuşada keçirilməsi ilə əlaqədar xüsusilə məmnunluğumu bildirmək istəyirəm.

Qarşıdakı dövrdə can Azərbaycan ilə qardaşlıq hüququmuz və Şuşa Bəyannaməsində ortaya qoyduğumuz ruhla yol getməkdə davam edəcəyik.

Əziz qardaşımın şəxsində bütün Azərbaycan xalqına ötən il 6 fevral zəlzələləri zamanı millətimizə göstərdiyi həmrəyliyə görə təşəkkür edirəm. Digər yardımları ilə yanaşı, Azərbaycan Kahramanmaraşda 320 hektar ərazidə 1000 ev və 799 iş yeri inşa etməkdədir. Keçən həftə Kahramanmaraşa etdiyimiz səfərdə «Azərbaycan bulvarı»nda həyata keçirilən işlər barədə məlumat aldıq.

Çıxışımın sonunda dəyərli qardaşım Əliyevə səfərə görə bir daha təşəkkür edirəm. Rəbbim məhəbbətimizi və qardaşlığımızı daimi etsin.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Əziz qardaşım, sayın Cümhurbaşqanı, hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənə göstərilən qonaqpərvərliyə və dəvətə görə, əziz qardaşım, Sizə minnətdaram.

Qeyd etdiyiniz kimi, Prezident seçkilərindən sonra mənim ilk rəsmi səfərim qardaş ölkəyədir. Bu təbiidir, bu bir ənənədir. Biz əcdadlarımızdan qalan bütün ənənələrə sadiqik. Bu gün Türkiyə–Azərbaycan birliyi təkcə bölgə üçün deyil, Avrasiya üçün önəmli amilə çevrilib.

Hər dəfə Türkiyədə olarkən qardaş ölkədə gedən genişmiqyaslı inkişaf prosesini izləyirəm. Buna çox sevinirəm və bir daha görürəm ki, qardaşımın səyləri nəticəsində qardaş ölkə yeni zirvələri fəth edir.

Türkiyə bu gün dünya çapında söz sahibidir. Təkcə bölgəmizdə deyil, dünya çapında bir çox məsələlər Türkiyənin mövqeyindən asılıdır. Türkiyə bölgəmizdə əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır. Türkiyənin güclü sənaye potensialı, güclü iqtisadiyyatı, o cümlədən hərbi gücü Türk Dünyasına mənsub olan hər bir insanı sevindirir. Təbii ki, Azərbaycan Sizin uğurlarınıza öz uğurları kimi sevinir. 2020-ci ilin noyabr ayında İkinci Qarabağ savaşı başa çatanda Azərbaycan işğalda olan ərazisinin böyük hissəsini azad etdi və bütün 44 gün ərzində Türkiyə bizim yanımızda idi. Savaşın ilk saatlarında əziz qardaşımın çox qəti və dəqiq açıqlamaları bir çoxları üçün ciddi mesaj idi və bir çoxlarını bu işə müdaxilə etməkdən

kənarda saxladı. Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır – bu, siyasi və mənəvi dəstək bizə yetərli oldu və 30 il ərzində sülh vasitəsilə həll edə bilmədiyimiz tarixi məsələmizi biz savaş meydanında cəmi 44 gün ərzində həll etdik.

Azərbaycan xalqı bu qardaşlıq dəstəyini heç vaxt unutmayacaq. Bu gün söhbət əsnasında mən demişdim ki, ondan əvvəl də Türkiyə–Azərbaycan əlaqələri qardaşlıq əlaqələri idi. Ancaq İkinci Qarabağ savaşından sonra bizə göstərilən dəstək bu əlaqələri yeni yüksək zirvəyə qaldırdı. Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək biz bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Biz öz gücümüzə güc qatırıq və təbii ki, Türk Dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək. Bu gün bu məsələ ilə də bağlı geniş müzakirə aparıldı. Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşü hörmətli Prezidentin qeyd etdiyi kimi, bu ilin iyul ayında keçiriləcəkdir. Eyni zamanda, müşahidəçi statusunda olan Şimali Kipr Türk Respublikasının Prezidenti də mənim dəvətimlə bu görüşdə iştirak edəcək və bu bizim ümumi işimizə, türk xalqlarının birliyi işinə növbəti güclü təkan verəcək.

Hörmətli Cümhurbaşqanı söylədi ki, bizim birgə həyata keçirdiyimiz layihələr kifayət qədər çoxdur. Nəqliyyat, enerji layihələri bizim sərhədlərimizdən kənarda da artıq önəmli rol oynayır. Enerji və nəqliyyat təhlükəsizliyi bu gün dünya gündəliyinin ön sıralarında olan mövzulardır. Ticarət dövriyyəmi-

zin sürətlə artması və rekord həddə çatması, əlbəttə ki, bizi çox sevindirir. 7,5 milyard dollar – 5-6 il əvvəl bizim heç yuxumuza gələ bilməzdi ki, ticarət dövriyyəsi bu dərəcədə artacaq, ancaq bu reallıqdır. Vaxtilə biz qarşıya müştərək hədəflər qoyduq və indi bu hədəflərə doğru gedirik.

Keçən il Azərbaycandan Türkiyəyə 9 milyard kubmetr təbii qaz ixrac edilmişdir. Əldə edilmiş razılaşmalar əsasında qazın həcminin artırılması nəzərdə tutulur, o cümlədən Türkiyə ərazisindən Avropaya gedən təbii qaz qitənin bir çox ölkələri üçün önəmli enerji təhlükəsizliyi məsələsidir.

Nəqliyyat sahəsində də eyni mənzərənin şahidiyik. Bakı–Tbilisi–Qars dəmir yolu yüklərin həcmini 1 milyon tondan 5 milyon tona çatdırmaq üçün bu ilin ortalarında tam istismara verilməlidir.

Əməkdaşlığımızın önəmli istiqamətlərindən biri də hərbi sahədə işbirliyidir. Bizim ordularımız bir yumruq anlamına gəlib, hər il ən azı 10 hərbi təlim həm Türkiyədə, həm Azərbaycanda keçirilir və beləliklə, bizim hərbi gücümüz daha da artır. İkinci Qarabağ savaşı və ondan sonra düz 5 ay əvvəl keçirdiyimiz antiterror əməliyyatı bir daha onu göstərdi ki, Türkiyənin ordu modeli Azərbaycanda artıq tam oturuşub. Qarabağda keçirilmiş antiterror əməliyyatı ölkəmizin suverenliyini tam təsdiqləmişdir, artıq bölücü, separatçı qüvvələrə Azərbaycan ərazisində yer yoxdur və bundan sonra da heç vaxt olmayacaqdır.

Bu gün təbii ki, müdafiə sənayesi sahəsində yeni imkanlar açılıb. Bu barədə də geniş müzakirələr aparıldı. Birgə istehsalla əlaqədar konkret planları-

mız vardır. Yəqin ki, bu planlar gerçəkləşdikdə ictimaiyyət də bundan xəbərdar olacaqdır.

Bu gün təhsillə bağlı önəmli anlaşma imzalanmışdır. Bu, gələcəyə yönəlmiş təşəbbüsdür. Çünki gənc nəslimiz həm Türkiyədə, həm Azərbaycanda qardaşlıq, müttəfiqlik, ortaq dəyərlər prinsipləri əsasında tərbiyə almalı, bizim milli-mənəvi dəyərlərimizə sadiq olmalı, yad təsirdən uzaq olmalı, bilikli, savadlı vətənpərvər olmalıdır. Bu gün Türkiyə–Azərbaycan Universitetinin yaradılması sadəcə olaraq, təhsil məsələsi deyil. Bu bizim birliyimizin növbəti rəmzidir. Əminəm ki, yaxın gələcəkdə bu universitet nəinki Azərbaycanda, hətta bölgədə ən aparıcı ali məktəblərdən birinə çevriləcəkdir.

Bir daha, əziz qardaşım, göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm və fürsətdən istifadə edərək, Sizi yenidən Azərbaycana dəvət etmək istəyirəm. Sağ olun.

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri fevralın 19-da başa çatdı.*

*Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Abdulkadir Uraloğlu və digər rəsmi şəxslər yola saldılar.*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

22 fevral – Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında islam həmrəyliyi, qardaşlıq, qarşılıqlı dəstək və etimad kimi sağlam təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq əlaqələrinə böyük önəm veririk. Aramızda mövcud olan yüksək səviyyəli siyasi dialoq bir sıra sahələrdə səmərəli əməkdaşlığımız ilə müşayiət olunmaqdadır.

Ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə Səudiyyə Ərəbistanının ilk gündən göstərdiyi dəstəyi yüksək qiymətləndiririk. Əminəm ki, qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq, Azərbaycan–Səudiyyə Ərəbistanı əlaqələrinin dərinləşdirilməsi, həm ikitərəfli əsasda, həm beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətimizin bundan sonra da uğurla davam etdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2024-cü il*

**YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT NARUHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Yaponiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2024-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Əlamətdar yubileyiniz – anadan olmağınızın 70 illiyi münasibətilə öz adımdan və Azərbaycan xalqı adından Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən xüsusi məmnunluq duyürəm.

Sizin ömür yolunuz vətənə və xalqa sədaqət və ləyaqətlə xidmət nümunəsidir. Siz qardaş Türkiyənin rifahı, bugünkü inkişafı, beynəlxalq aləmdə layiqli yer tutması naminə fədakarcasına çalışan böyük şəxsiyyət, zəmanəmizin görkəmli dövlət xadimisiniz. Siz üzərinizə düşən məsul tarixi missiyanı inam və qətiyyətlə yerinə yetirərək, uzaqgörən və məqsədyönlü siyasətinizlə ölkənizi dünyanın ən aparıcı və qüdrətli dövlətləri sırasına çıxarmısınız. Türkiyənin son 20 ildə əldə etdiyi mühüm nailiyyətləri və uğurları məhz Sizin adınızla bağlıdır.

Bu gün Sizin müdrik rəhbərliyiniz altında Türkiyə Respublikası inkişafının ikinci yüzilliyinə qədəm qoyur. Bu yolda qardaş ölkəyə qarşısına qoyduğu bütün hədəflərə və məqsədlərə çatmağı, yeni müvəffəqiyyətlərə və zəfərlərə imza atmağı arzulayırıq.

Əziz qardaşım!

Siz Azərbaycan xalqının da əsl dostusunuz. Azərbaycana qəlbən bağlılığınız ölkəmizin ərazi bütövlüyünə daimi dəstəyinizdə, Azərbaycan–Türkiyə qardaşlığının möhkəmlənməsində, müttəfiqliyimizin sarsılmazlığı naminə misilsiz xidmətlərinizdə öz ifadəsini tapmışdır. Azərbaycanın haqq işi ilə bağlı hər zaman ortaya qoyduğunuz qəti və birmənalı mövqe, verdiyiniz tərəddüdsüz dəstək xalqımız tərəfindən xüsusi minnətdarlıq hissi ilə xatırlanır.

Seçkilərdən sonra ənənəyə sadiq qalaraq, ilk rəsmi səfərimi dəvətiniz əsasında məhz qardaş Türkiyəyə həyata keçirməyim birliyimizin və müttəfiqliyimizin bariz göstəricisidir. Bu dəvətə və səfərim zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz yüksək diqqət və qonaqpərvərliyə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Sizinlə səmimiyyət, qarşılıqlı anlaşma şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız ətraflı fikir mübadiləsini yüksək qiymətləndirirəm.

Əminəm ki, ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığından və birliyindən güc alan dünyada bənzəri olmayan münasibətlərimiz bundan sonra da birgə səylərimizlə «Bir millət – iki dövlət» prinsipinə uyğun olaraq inkişaf edəcək və möhkəmlənəcəkdir.

Həyatınızın bu sevincli günü münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möh-

kəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə məsul və şərəfli fəaliyyətinizdə daim yeni-yeni uğurlar və nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 23 fevral 2024-cü il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏŞƏL ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan–Küveyt dövlətlərarası əlaqələrinin daha da inkişafı, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 23 fevral 2024-cü il*

## XII AZƏRBAYCAN–RUSİYA REGİONLARARASI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

İlk növbədə, sizi XII Azərbaycan–Rusiya Regionlararası Forumunun açılışı münasibətilə təbrik etmək istərdim. Artıq yaxşı ənənəyə çevrilmiş bu tədbirin keçirilməsi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verir.

Bu formatda regionlararası forumlar artıq öz səmərəliliyini sübuta yetirib. Hakimiyyət nümayəndələrinin, işgüzar və ekspert dairələrinin forum çərçivəsində görüşləri keçirilir, konstruktiv və açıq dialoq aparılır. Bu, əlaqələr qurmağa, gələcək birgə fəaliyyət naminə səylərimizi əyani surətdə koordinasiya etməyə, əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə etməyə imkan verir. Forum Azərbaycan Respublikasının regionları ilə Rusiya Federasiyasının subyektləri arasında birbaşa qarşılıqlı faydalı əlaqələrin yaradılması üçün tələbat duyulan platformadır.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan tərəfdaşlığımız çoxşaxəlidir və demək olar ki, bütün sahələri əhatə edir. Bu gün ölkələrimiz arasında iqtisadi-ticari əməkdaşlıq dinamik şəkildə inkişaf edir,

ticarət dövriyyəsi artır, yeni istiqamətlər üzrə işlər davam etdirilir. Forum çərçivəsində nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və ekoloji sahələrdə qarşılıqlı fəaliyyətin müzakirəsi iki ölkənin regionlararası səviyyədə əlaqələri daha da dərinləşdirmək istəyini əyani şəkildə nümayiş etdirir.

Əlamətdar haldır ki, bugünkü forum Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının ikinci ildönümündə keçirilir. İki il bundan əvvəl – 2022-ci ilin fevralında xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə əsaslanaraq, dövlətlərarası münasibətlərimizi keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldıran bu mühüm sənəd imzalanıb.

Əminəm ki, bu forum əvvəlkilər kimi, yaradıcı atmosferdə keçiriləcək, ümumi yanaşmaların işlənib hazırlanması üçün əlamətdar hadisə olacaq və dost ölkələrimizin rifahı naminə nəzərdə tutulan bütün məqsədlərə nail olmağa kömək edəcəkdir.

Forumun bütün iştirakçılarına uğurlu və səmərəli iş arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 24 fevral 2024-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də özünün sosial şəbəkə hesablarında Xocalı faciəsinin 32-ci ildönümü ilə bağlı paylaşım etmişdir.*

*Paylaşımda* «26 fevral 1992. Xocalı soyqırımı» *sözləri yazılıb.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*26 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı yubileyi münasibətilə təbrik edərək, Türkiyənin rifahı naminə fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Türkiyə dövlətinin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirdi.*

*Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan Prezidentinə və xalqına başsağlığı verdi.*

*Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını ifadə etdi.*

*Söhbət zamanı İlham Əliyevin Prezident seçiləndən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsinin önəmi bir daha qeyd edilərək, bu səfərin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.*

*Dövlət başçıları Şuşa Bəyannaməsinin əhəmiyyətinə bir daha toxunaraq, bu Bəyannamənin uğurla həyata keçirilməsindən məmnunluqlarını bildirdilər.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildirdilər, əməkdaşlığın perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi apardılar.*

## XOCALI ŞƏHƏRİNDƏ XOCALI SOYQIRIMI MEMORİALININ TƏMƏLQOYMA MƏRASİMİ VƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*26 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuş, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**S a k i n:** Xoş gəlmisiniz! Allah Sizi qorusun, cənab Prezident. Bu gün həyatımızın ən xoşbəxt günüdür.

**S a k i n l ə r:** Var olun, cənab Prezident, Allah Sizi qorusun.

### Prezident İlham Əliyevin Xocalı sakinlərinin qarşısında çıxışı

Əziz xocalılılar!

İlk dəfədir ki, Xocalı soyqırımı gününü biz Xocalıda günahsız Xocalı qurbanlarının xatirəsini anaraq qeyd edirik. 32 ildən sonra biz doğma torpağımıza qayıtmışıq. Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün burada bu gün – 26 fevral günündə memorial kompleksin təməli qoyulacaq-

dır. Onu da bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdi. Ancaq memorial kompleksin tikintisi ilə bağlı mən hər il müəyyən tərəddüdlər keçirərək, o hadisəni, o layihəni təxirə salırdım. Ona görə ki, sizin kimi də inanırdım və bilirdim – biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq. 32 ildən sonra siz qayıtmısınız. Düz 32 ildən sonra – o qanlı faciədən sonra biz Azərbaycanın hər bir guşəsində, Qarabağın hər bir yerində sahib kimi, bu vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir.

Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək. Heç vaxt Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq. 32 il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək, günahsız insanları qətlə yetirmişdir. 613 insan vəhşicəsinə qətlə yetirilmişdir, 150 insan itkin düşmüşdür – təbii ki, onların da taleyi bəllidir – 1000-dən çox insan girov götürülmüşdür, 60-dan çox uşaq, 100-dən çox qadın, 70 nəfər yaşlı insan erməni vəhşiləri, faşistləri tərəfindən vəhşicəsinə bir gecə içində qətlə yetirilmişdir.

Əfsuslar olsun ki, «Xocalıya ədalət!» çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq, bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük döv-

lətlərin adları yoxdur. Beynəlxalq təşkilatların bir çoxu bu faciəyə biganə qalmışdır.

Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərmişdir. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış «Xocalıya ədalət!» kampaniyası dünyanın müxtəlif yerlərində özünü göstərmişdir, bir çox tədbirlər, təqdimatlar həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün bir çox səylər göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əllərindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsınlar.

Biz onilliklər ərzində, xüsusilə son illər ərzində çalışırdıq ki, bu qanlı cinayəti törədənlər ədalət qarşısında cavab versinlər. Ancaq görürdük ki, bu ədaləti ancaq biz özümüz bərpa etməliyik və bunu etdik. İkinci Qarabağ müharibəsi ədalətin təntənəsi idi. İkinci Qarabağ müharibəsi nəticəsində o vaxt işğal altında olan torpaqların böyük hissəsi azad

edildi, işğal altında qalan ərazilər isə 5 ay bundan əvvəl azad edildi.

Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi, sevinmisiniz. Onu da bilirəm ki, sizin ürəyinizdə müəyyən fikirlər var idi: bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirdim ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. 5 ay əvvəl antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, o vaxt işğal altında olan və separatçıların orada at oynatdıqları bütün digər ərazilər azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik.

«Xocalıya ədalət!» tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etdik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın. Düzdür, buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradırdı.

O vaxt, işğal dövründə mən köçkünlərlə – bu gün keçmiş köçkünlər adlandırılır, köçkün anlayışı artıq vətəndaşlarımızın yaddaşından tamamilə silinib – çoxsaylı görüşlər əsnasında hər dəfə onlara deyirdim ki, gün gələcək və biz bütün torpaqlarda Azərbaycan bayrağını qaldıracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. 100-dən çox köçkün qəsəbəsi salınmışdır və köçkün qəsəbələrinin hamısının açılışlarında mən iştirak etmişəm. Birinci köçkün qəsəbəsi o vaxt ulu öndər Heydər Əliyevin iştirakı ilə məhz xocalılılar üçün Ağcakənd qəsəbəsində salınmışdı və o vaxt bizim o qədər də böyük maliyyə imkanlarımız yox idi. Ancaq olan-qalan vəsait də, bax, o məqsədlər üçün istifadə olundu və bu, bir yol göstəricisi idi. Yəni ulu öndər hamımıza göstərmişdi ki, biz ağır vəziyyətdə yaşayanlar üçün gərək şərait yaradaq. Eyni zamanda, bizim əsas məqsədimiz torpaqların azad edilməsi idi və o vaxt köçkünlərlə çoxsaylı görüşlər əsnasında deyirdim ki, bu şərait yaradılır, bu şərait yaxşıdır – çadır şəhərcikləri, bilirsiniz ki, sonuncusu 2007-ci ildə ləğv edildi – ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra ondan daha yaxşı şərait yaradılacaq sizin doğma torpaqlarınızda və bu gün biz bunu görürük. Artıq 5 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək, o cümlədən bu yaxın yerlərdə yerləşən Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək, Ağdam

şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yəni quruculuq işləri geniş vüsət alıb.

Xocalıya gəldikdə isə biz sentyabrın 20-də öz suverenliyimizi tam bərpa edəndən sonra dərhal göstəriş verdim ki, ilk növbədə, Xocalıda xocalıların evləri bərpa edilsin. Çünki mənfur düşmən qanlı soyqırımı törətmişdi, xocalılıları öz doğma torpağından didərgin salmışdı. Üstəgəl, Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv edirdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir.

Biz Xocalı soyqırımını heç vaxt unutmayacağıq. Yenə də deyirəm, biz həm İkinci Qarabağ müharibəsi zamanı, həm antiterror əməliyyatı zamanı qisasımızı cinayətkarlardan aldıq, onları məhv etdik, Ermənistan ordusunu məhv etdik və iki dəfə kapitulyasiyaya imza atmağa məcbur etdik. Biz onlardan fərqli olaraq, dinc əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu hər kəs görür və bilir. Həm 2020-ci ildə, həm keçən ilin sentyabr ayında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır və bunu

hər kəs bilir və heç kim bizə heç bir irad tuta bilmir. Bu bir daha xalqımızın böyüklüyünü göstərir. Halbuki hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də bu qəzəb bizi buraxmayacaq. Bu təbiidir, biz insanıq və böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt ötən əsrin 90-cı illərinin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında isə böyük qüvvələr dayanmışdı. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, biz rəhm edək, amma onlar bizə rəhm etdilərmi ki?

Yenə də deyirəm, bütün bunlar təbii bizim fikirlərimizdir, duyğularımızdır. Yenə də deyirəm, biz qisasımızı aldıq, həm 44 günlük İkinci Qarabağ müharibəsi ərzində, həm birgünlük antiterror əməliyyatı zamanı böyük peşəkarlıq, qəhrəmanlıq, fədakarlıq göstərdik. Bizim övladlarımız ölümə gedirdilər ki, bu torpaqları işğalçılardan azad etsinlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**S a k i n l ə r:** Allah rəhmət eləsin, amin.

**İ l h a m  Ə l i y e v:** Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, cəsarət göstərdi. Bütün dünya bunu görür və xüsusilə bu gün dünyanın müxtəlif yerlərində baş verən hadisələr, müharibələr, qanlı toqquşmalar bir daha onu göstərir ki, Azərbaycan Ordusu

həm peşəkar, həm vətənpərvər, həm də bacarıqlıdır. Eyni zamanda, əməliyyatları elə aparır ki, qısa müddət ərzində həlli mümkün olmayan kimi sayılan əməliyyatlar aparılmışdır, onlardan da biri, bəlkə də birincisi Şuşa əməliyyatıdır. Bu gün isə biz buradayıq, burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur, indi gedib quruculuq işləri ilə tanış olarıq. Bütün digər ərazilərdə quruculuq işləri aparılır və bu gün burada Xocalı Soyqırımı Memorialının təməli qoyulacaqdır. Xocalı qurbanlarının bu gün ruhu şaddır, Allah onlara rəhmət eləsin. Onların əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Sağ olun.

* * *

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçısına Xocalı Soyqırımı Memorialı barədə məlumat verdi.*

*Bildirildi ki, Xocalı–Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.*

*Memorial müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar yer alacaq.*

*Memorialda Xocalının coğrafi mövqeyini təsvir etmək məqsədilə rayonun maketi də yer alacaq.*

*Ziyarətçilər memorialda soyqırımı qurbanlarının və şahidlərinin hekayələri, xocalılıların düşmənə qarşı mərdliyi ilə tanış ola biləcəklər. Bu hekayələr Xocalı soyqırımının miqyasını, faciə qurbanlarının iztirablarını hər bir kəsə ötürərək, Azərbaycan tarixinin ən dəhşətli səhifəsi barədə məlumatları çatdıracaq.*

*Memorialda, həmçinin faciə ilə bağlı sənədli filmlər, Xocalı həqiqətləri barədə videomateriallar nümayiş olunacaq. Eyni zamanda, Xocalının işğaldan azad olunması və cinayətkarların cəzalandırılması istiqamətində görülən tədbirlər barədə məlumatlar yer alacaq. Maarifləndirici materiallar, rəqəmsal məzmun vasitəsilə soyqırımı kimi faciələrin səbəbləri, nəticələri, qarşısının alınmasının zərurəti, cəmiyyətin insan haqlarına hörmət etməsinin vacibliyi diqqətə çatdırılacaq.*

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilmiş Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib. Bu faciə ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində həmişə bir vəhşilik aktı kimi yadda qalacaq.*

*Heydər Əliyev Fondu yarandığı 2004-cü ildən etibarən Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində dövlət tərəfindən görülmüş tədbirlərə dəstək olaraq bir sıra layihələr həyata keçirib. 2008-ci ildən isə Heydər Əliyev Fondunun vitse-prezidenti*

*Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir. «Xocalıya ədalət!» kampaniyasının sistemli fəaliyyətinin nəticəsidir ki, dünyanın bir sıra ölkələri Xocalıda ermənilər tərəfindən törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qərar və qətnamələr qəbul edib.*

*Tarixi Zəfərimizdən sonra Azərbaycan xalqı bu dəhşətli soyqırımının ildönümünü artıq fərqli şəkildə anır. Ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən azad edilməsi nəticəsində Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətən uğrunda həlak olmuş digər şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı. Qanlı faciənin törədildiyi Xocalıda yaradılacaq Soyqırımı Memorialı isə faciə qurbanlarının, Vətənin müdafiəsi uğrunda həlak olmuş qəhrəmanlarımızın xatirəsinə ehtiram olmaqla yanaşı, bu qətliam barədə həqiqətlərin dünyaya çatdırılmasına və tariximizin yaşadılmasına xidmət edəcəkdir.*

* * *

*Dövlətimizin başçısı Xocalı Soyqırımı Memorialının təməlini qoydu.*

*Təməlqoymadan sonra memorial kompleksin maketinə baxan Prezident İlham Əliyev bildirdi ki, ortadakı bağ, yəni həyat deməkdir.*

**Anar Ələkbərov:** Elədir ki var, cənab Prezident. Həmin kapsul kompleksin içində olacaq.

**K i ş i  s a k i n:** Sizə təşəkkür edirik, cənab Prezidentimiz. 32 il öncə biz Xocalıdan məğlub çıxmışdıq, soyqırımına məruz qalmışdıq. 32 ildən sonra biz Xocalıya qalib olaraq gəlmişik və bu qalibiyyəti bizə qazandıran Siz olmusunuz. Sizin rəhbərliyiniz, Sizin sərkərdəliyiniz, Sizin müdrik siyasətiniz biz xocalılılara, bütün Azərbaycan xalqına, bütün Türk Dünyasına bu Qələbəni qazandırıb. Var olasınız, bütün xocalılılar adından Sizi öpürük, bağrımıza basırıq. Təşəkkür edirik, cənab Prezident, var olasınız.

**Q a d ı n  s a k i n:** Cənab Prezident, bir şəhid övladı kimi, bütün şəhid övladları adından biz də Sizə minnətdarıq. Mənim atam Xocalı soyqırımı zamanı ermənilər tərəfindən əsir götürülüb, özünümüdafiə batalyonunun döyüşçüsü olub. Onun sonrakı taleyi haqqında bu gün də bizim heç bir məlumatımız yoxdur. Məhz Sizin kimi bir sərkərdə ilə bu gün Xocalı soyqırımının 32-ci ildönümündə bu torpaqları ziyarət etmək o məzarsız şəhidlərimizin sanki məzarını ziyarət etmək qədər müqəddəs bir missiyadır. Xüsusilə Sizin ötən il oktyabrın 15-də, yəni prezidentliyinizin 20-ci ilinin tamamında məhz Xocalıda bayraq ucaltmağınız onu bir daha sübut etdi ki, bu neçə ildə ürəyiniz məhz Xocalıdan olan şəhid ailələri ilə birgə döyünüb. Biz Sizə hər zaman minnətdarıq, Allah Sizi qorusun, ordumuzu qorusun. Bütün şəhid övladları adından Sizə minnətdarıq.

**K i ş i  s a k i n:** Cənab Prezident, bizim ailəmiz 1996-cı il fevralın 24-nə qədər tamamilə ümidini itirmişdi ki, bir daha nə Xocalını, nə də Qarabağı gör-

məyəcəyik. 1996-cı il fevralın 24-də ümummilli liderimiz, böyük sərkərdəmiz, dünya şöhrətli Heydər Əliyevimiz bizimlə – Xocalının şəhid ailələri, ziyalıları ilə görüş keçirdi. Orada bizi əmin etdi ki, bir qarış torpağımızı da işğal altında qoymayacağıq və dedi ki, mən İlham Əliyevə özüm qədər inanıram. Onda mən hiss etdim ki, bu onun gələcəyə verdiyi bir mesaj idi. O inanırdı ki, Ali Baş Komandanımız, cənab Prezident, bunun öhdəsindən Siz gələcəksiniz, bunu Siz yerinə yetirəcəksiniz. Sizə böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, bu gün bu şərəfi, bu şöhrəti bizə qazandırdınız. Çox sağ olun. Sizə minnətdarıq.

**K i ş i s a k i n:** Cənab Prezident, bu gün diqqətinizə çatdırmaq istəyirəm ki, mən «Azərbaycan Bayrağı» ordenli həkiməm. 1994-cü ildə məhz ulu öndərin fərmanı ilə «Azərbaycan Bayrağı» ordeninə layiq görülmüşəm. 1996-cı ildə həmin ordeni mənə şəxsən özü təqdim edən vaxt mən xocalıların bir arzusunu çatdırmışdım ki, kaş o gün olsun, torpaqlarımız azad edilsin və biz Sizinlə Xocalıda görüşə bilək. Həmin gün bu günə təsadüf edir. Ulu öndərin daxili və xarici siyasətini çox uğurla davam etdirən məhz Sizin sayənizdə bu gün doğma, azad Xocalımızdayıq. Çox sağ olun, var olun. Allah Sizi qorusun.

**K i ş i s a k i n:** Cənab Prezident, vaxtınızı çox almayaq. Bütün xocalıların ulu öndərimiz qarşısında verdiyi bir vəd var. Mən vermişəm o vədi ulu öndərimizə. Mən demişdim ki, cənab Prezidentimiz, Sizin rəhbərliyinizlə biz torpaqlarımızı işğal-

dan azad etdikdən sonra Xocalının ən dəyərli, görkəmli bir yerində Sizin abidənizi ucaldacağıq. Cənab Prezidentimiz, Sizdən çox xahiş edirik, necə ki, bax, bu yeri uğurla seçmisiniz, Xocalının ən dəyərli bir yerində ulu öndərimizin abidəsini ucaltmağı bütün xocalılılar adından Sizdən xahiş edirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

* * *

*Sonra Prezident İlham Əliyev sakinlərlə birlikdə Xocalı şəhərində aparılan tikinti işləri ilə tanış oldu.*

**Q a d ı n s a k i n:** Xocalı hadisələrinin canlı şahidləri kimi, Sizə minnətdarlığımızı bildiririk ki, Xocalı torpağına Sizinlə birlikdə ayağımız dəyir. Hələ 1997-ci il fevralın 25-də ulu öndərimiz, mərhum Prezidentimiz Heydər Əliyev mənə yoldaşımın «Qızıl ulduz» medalını şəxsən özü təqdim etdi. O vaxtdan 27 il keçir. Bu gün də şadam ki, Sizinlə Xocalı torpağında görüşürəm. Allah Sizə ömür versin, cansağlığı versin, eşq olsun Müzəffər Ordumuza, eşq olsun Sizə, Ali Baş Komandan!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

**Q a d ı n s a k i n:** Əminəm ki, qədirbilən xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaq. Tariximizin qızıl səhifəsi daim yaşayacaq.

* * *

*Dövlətimizin başçısı və Xocalı rayon ictimaiyyətinin nümayəndələri daha sonra Xankəndi şəhərində oldular.*

**S a k i n:** Sizin bütün çıxışlarınızın hamısını zabit və əsgərlərə çatdırırdım. Hərdən mənə deyirlər ki, Birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsi arasındakı fərq nə idi? Mən də deyirəm, fərq yalnız o idi ki, bizim qətiyyətli Ali Baş Komandanımız var və əsgərlər, xalq ona inanır. Xalq bir yumruq kimi birləşdi və necə deyərlər, «Dəmir yumruq» onların başında çatladı. Allah Sizi var eləsin.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol.

**G ə n c s a k i n:** Cənab Prezident, biz gənclər olaraq, Sizə böyük minnətdarlığımızı bildiririk. İnşallah, biz gənclər də gələcəkdə buraya, yurdumuza gəlib hərəmiz öz sahəmiz üzrə yaşayıb-yaradacağıq.

**Q a d ı n s a k i n:** Cənab Prezident, mən şəhid qızıyam. Yəni həmin 613 nəfərdən biri də mənim atamdır. «İgidliyə görə» medalı ilə təltif edilib. Mən atamın cəsədini axtararkən meyitlərin üz-gözü dəyişilmiş vəziyyətdə idi. Mənim 19 yaşım var idi, Tibb Universitetində 3-cü kursda oxuyurdum. Biz qan içində ağlaya-ağlaya çıxdığımız torpaqlara bu gün sevinə-sevinə gəlmişik. Görürsünüzmü, təbiət də öz müjdəsini verir. Bu gün bizim tədbirimizin konteksti də nikbin notlar üzərində qurulub. Biz Sizə təşəkkür edirik. Siz sərkərdəmizsiniz. Xalq–Ordu–Prezident vəhdəti ilə biz 44 günlük müharibədə düşmənin belini qırdıq və diz çökdürdük. Siz qalib ölkənin qalib liderisiniz. Biz buna görə Sizə minnətdarıq. Sizə olan sonsuz minnətdarlığımı ifadə edə bilmirəm. Azərbaycanın itirilmiş torpaqlarını azad edən sərkərdəmizsiniz.

**İlham Əliyev:** Çox sağ olun. Bu diyarın, bu bölgənin artıq yeni, parlaq tarixi var, o da 20 sentyabr – Xocalının, Xankəndinin azad olunması günüdür. 26 fevral dəhşətli, faciəvi bir gün kimi heç vaxt bizim yaddaşımızdan silinməyəcək. Amma artıq siz də qeyd etdiyiniz kimi, təbiət də sözünüzə qüvvət verir, 20 sentyabr artıq bu bölgənin əsas azadlıq və bayram günüdür.

**Sakinlər:** Allah Sizi var eləsin, Allah Sizi qorusun. Biz bilirdik ki, Siz torpaqlarımızı işğal altında qoymayacaqsınız.

**İlham Əliyev:** Sağ olun.

*Dövlətimizin başçısı həm Xocalıda, həm də Xankəndidə sakinlərlə xatirə şəkilləri çəkdirdi.*

## XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNƏ BİR DƏQİQƏLİK SÜKUT

*26 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-sı saat 17:00-da Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ HƏCC VƏ ÜMRƏ NAZİRİ TAUFİQ BİN FAUZƏN ƏL-RABİƏ İLƏ GÖRÜŞ

*27 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən əl-Rabiəni qəbul etmişdir.*

*Taufiq bin Fauzən əl-Rabiə İlham Əliyevi Prezident seçkilərində qələbəsi və Azərbaycan torpaqlarının işğaldan azad olunması münasibətilə təbrik etdi.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.*

*Qonaq əvvəl çalışdığı vəzifələrdə də ölkəmizə səfər etdiyini xatırladaraq, son dövrlərdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında bütün sahələrdə olduğu kimi, turizm sahəsində də əməkdaşlığın genişlənməsini və qarşılıqlı turist səfərlərinin artmasını məmnunluqla qeyd etdi, uçuş reyslərində olan dinamikanı müsbət qiymətləndirdi.*

*Azərbaycan tərəfindən Səudiyyə Ərəbistanı Krallığının vətəndaşlarına münasibətdə vizaların verilməsi prosesinin asanlaşdırılmasının turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyini deyən Taufiq bin Fauzən əl-Rabiə ölkəsinin də Azərbaycan vətəndaş-*

*larına vizaların verilməsi prosesinin sadələşdirilməsi istiqamətində addımlar atdığını diqqətə çatdırdı.*

*Qonaq «Expo 2030»un və 2034-cü ildə futbol üzrə dünya çempionatının Səudiyyə Ərəbistanında keçirilməsi ilə bağlı Azərbaycanın verdiyi dəstəyə görə bir daha təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərindən məmnunluğunu ifadə etdi.*

*Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının islam həmrəyliyi prinsipindən çıxış edərək, Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistan ilə diplomatik əlaqələr qurmamasını xatırladaraq, islam dünyasında Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın belə ədalətli mövqedən çıxış etməsinin Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.*

*Prezident İlham Əliyev hazırda Qarabağda aparılan bərpa-quruculuq işlərini qeyd etdi və Böyük Qayıdış Proqramının həyata keçirildiyini bildirdi.*

*Azərbaycanda Səudiyyə Ərəbistanından olan turistlərin sayının artmasındakı müsbət dinamikaya toxunan dövlətimizin başçısı turistlərin sayı ilə bağlı COVID-19 pandemiyasından əvvəlki rəqəmlərə çatmağın vacibliyini vurğuladı və bu istiqamətdə böyük potensialın olduğunu diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycanda və Səudiyyə Ərəbistanında ölkələrimizin iqtisadi, investisiya, turizm və digər potensialını əks etdirən sərgilərin təşkilinin vacibliyi bildirildi, hökumətlərarası birgə Komissiyanın fəaliyyəti qeyd edildi.*

*Həm Azərbaycanda, həm də Səudiyyə Ərəbistanında urban inkişaf üzrə çox böyük layihələrin həyata keçirildiyi bildirilərək, bu sahədə də əməkdaşlığın vacibliyi vurğulandı.*

*Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

# ALMAN İQTİSADİYYATININ ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ MİXAEL HARMSIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Almaniya Federativ Respublikasının aparıcı şirkətlərinin rəhbərlərindən ibarət nümayəndə heyətinə Almaniya–Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, «Falk» konsaltinq şirkətinin icraçı direktoru Tomas Falk, «Uniper Global Commodities SE» şirkətinin birinci vitse-prezidenti Uve Fip, «Rhenus Group» beynəlxalq nəqliyyat şirkətinin layihələr üzrə İdarə Heyətinin direktoru Henrix Kerstgens, VNG Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Ulf Heitmüller, «Rohde & Schwarz» şirkətinin regional satış direktoru Viktoriya Gerasimova və «HHLA International» şirkətinin icraçı direktoru Filip Sveens daxildir.*

*Dövlətimizin başçısı alman iş adamları ilə ötən il Berlində, bu yaxınlarda isə Münhendə keçirdiyi görüşlərini məmnunluqla xatırladaraq, indi də böyük nümayəndə heyətinin iqtisadi əməkdaşlığın gündə-*

*liyinin müzakirəsi üçün Azərbaycana səfər etməsinin önəmini qeyd etdi.*

*Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Ralf Horlemann nümayəndə heyətinin adından İlham Əliyevin yenidən Prezident seçildiyi vaxtda qəbula görə minnətdarlığını bildirdi. Səfir Prezident İlham Əliyevin Münhen səfəri zamanı Almaniya Kansleri ilə keçirdiyi görüşlərinin təəssüratı altında olduqlarını dedi. O eyni zamanda, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşünün bu gün Berlində keçirilməsindən məmnunluqlarını ifadə etdi və ölkəsinin sülh prosesini konstruktiv şəkildə dəstəklədiyini vurğuladı.*

*Səfir qeyd etdi ki, COP29-un keçirildiyi bu ildə sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün bir imkan yaranıb, bu da öz növbəsində, sabitlik, iqtisadi inkişaf, əmin-amanlıq baxımından çox önəmlidir. O dedi ki, iş adamlarından ibarət böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədlərindən biri də ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını nümayiş etdirməkdən ibarətdir. Səfir vurğuladı ki, Azərbaycan Prezidentinin də inauqurasiya nitqində dediyi kimi, iqtisadi, o cümlədən enerji sahəsində transformasiya məsələlərinin gündəlikdə durması əməkdaşlıq üçün böyük imkanlar yaradır. Xüsusi olaraq vurğuladı ki, Almaniya biznes dairələri və şirkətləri bu gündəliyə böyük töhfələrini verməyə hazırdır.*

*O, qəbula görə bir daha dövlətimizin başçısına minnətdarlığını bildirərək, nümayəndə heyətinin sə-*

*fərinin əməkdaşlığın genişlənməsi baxımından səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu ifadə etdi.*

*Böyük nümayəndə heyətinin Azərbaycana səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı iqtisadi sahənin ikitərəfli münasibətlərimizdə həmişə mühüm rol oynadığını qeyd edərək, bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev keçən il Berlinə səfəri zamanı Almaniya Kansleri ilə görüşündə əlaqələrimizin geniş gündəliyinə daxil olan məsələlərin, o cümlədən iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu diqqətə çatdırdı. Eyni zamanda, Kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münhendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilmiş görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğuladı. Bununla yanaşı, Almaniya tərəfinin təklifi ilə Xarici İşlər nazirləri arasında Berlində görüşün keçirilməsinin də Azərbaycan tərəfindən dəstəkləndiyini qeyd etdi. Belə ki, Almaniya qonşuluğunda yerləşən, necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq, sülh prosesində neytrallıq nümayiş etdirir.*

*Beynəlxalq hüquq normalarının bizim tərəfimizdə olduğunu bildirən Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Dövlətimizin başçısı təəssüf hissi ilə qeyd etdi ki, bu gün ikili standartlar bir sıra bey-*

*nəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib. Bu baxımdan Cozef Borrelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüquq normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borrel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq. Ötən ilin sentyabrından bu hadisə istisna olmaqla, sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borrel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürüblər.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh prosesinə sadiqdir. Məhz biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları*

*təşəbbüsü ilə çıxış etdik. Əslində, biz sülh yolu ilə həllin 5 əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik. Beləliklə, əgər biz sülh istəmiriksə, niyə bunların hamısını hazırlamışıq?!*

*Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olub. Ermənilər torpaqlarımızın 20 faizini işğal edərək, həmin əraziləri dağıdıblar, o vaxt 1 milyondan çox soydaşımız məcburi köçkün vəziyyətinə düşmüşdü. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüquq normalarına, o cümlədən humanitar normalara məhəl qoymurdu. İki gün əvvəl ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımını törədiblər. İndi biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalmışıq. Biz Makron, Borrel və onlar kimi digər insanlar tərəfindən günahlandırılırıq. Ukraynanı götürək, Ukrayna öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Almaniya və digər ölkələr Ukraynaya silahlar göndərir. Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?! Məgər bu məsələ Ukrayna məsələsindən daha az önəmlidir? Əfsuslar olsun ki, biz Cənubi Qafqazda ayırıcı xətlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu*

*bizim islam dinimizdir. Dövlətimizin başçısı qeyd etdi ki, bu, təkcə onun şəxsi fikri deyil, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamenti üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya Kansleri qərəzsizlik nümayiş etdirir, onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqemizi bildirmək hüququmuz yoxdursa, nəyə görə orada olmalıyıq?!*

*Prezident İlham Əliyev bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik. Dövlətimizin başçısı bir məsələni də təəssüf hissi ilə qeyd etdi ki, Almaniya mətbuatında Azərbaycan guya azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. Bunun tamamilə yalan olduğunu və bundan təəssüf hissi keçirdiyini bildirən Prezident İlham Əliyev bunu həmin yazı müəlliflərinin özlərinin də yaxşı bildiyini vurğuladı və*

*qeyd etdi ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən Almaniya səfiri də ölkəmizdə gedən proseslərin şahididir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan haqqında bilərəkdən çox mənfi təəssürat yaradılır. Bütün bunların bizim həyata keçirdiyimiz işlərə mane ola bilməyəcəyini söyləyən dövlətimizin başçısı vurğuladı ki, biz istər ərazi bütövlüyümüzün bərpası, istər iqtisadi gündəliyimizlə bağlı öz xalqımızın, ölkəmizin rifahı naminə işlər görürük.*

*Azərbaycanın özünü təmin edən ölkə olduğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, ölkəmizdə gedən proseslər və həyata keçirilən işlər Azərbaycanın normal həyatını təmin edir. Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə biz minnətdar olarıq. Bu olmazsa, biz yenə də təəssüflənməyəcəyik.*

*Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşdi və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törətdilər. Yüzlərlə şəhər və kəndimizi işğal etdilər, oraları dağıtdılar. Otuzillik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya – həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Biz öz torpaqlarımızı azad etməyə başlayanda bu 3 ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdi. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək. Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv et-*

*dilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam.*

*Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidir. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər.*

*Almaniyanın ölkəmizdəki səfiri verilən məlumatlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və qeyd etdi ki, həqiqətən, ölkəmiz haqqında təəssüratlara malik olmaq üçün buradakı prosesləri öz gözləri ilə görmək vacibdir və nümayəndə heyətinin səfərinin məqsədlərindən biri də bundan ibarətdir.*

*Mixael Harms Münhendəki görüşdən az müddət sonra yenidən Azərbaycan Prezidentinin qəbulundan şərəf hissi keçirdiklərini bildirdi və buna görə minnətdarlığını ifadə etdi. Qonaq ölkəmizə infrastruktur, sənaye, kənd təsərrüfatı, bank və maliyyə, alternativ enerji və digər sahələrlə məşğul olan 40-dan artıq şirkətin rəhbəri və nümayəndələri ilə gəldiklərini vurğulayaraq, Azərbaycanda səmərəli görüşlər keçirdiklərini bildirdi. O, müzakirələr zamanı belə bir nəticəyə gəldiklərini qeyd etdi ki, Azərbaycan iqtisadi islahatlarla bağlı böyük işlər həyata keçirir. Digər nəticə də bundan ibarətdir ki, ölkələrimizin yalnız ənənəvi enerji sektorunda deyil, başqa sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanları vardır.*

*O vurğuladı ki, Almaniya biznes dairələri Azərbaycanın Cənubi Qafqazda sülh proseslərinə sadiqli-*

*yini yüksək qiymətləndirir və bu da öz növbəsində, bütün regionda müsbət inkişafın əsasını qoya bilər.*

*Görüşdə iqtisadi əlaqələrin perspektivləri, o cümlədən energetika, birgə layihələr, investisiya və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MACARISTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TAMAŞ ŞUYOKA

Hörmətli cənab Şuyok!

Macarıstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Macarıstan Azərbaycanın yaxın dostu və etibarlı tərəfdaşıdır. Qarşılıqlı inam və etimada əsaslanan, gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan–Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişlənməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq, Azərbaycan ilə Macarıstan arasında ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi, çoxşaxəli əməkdaşlığın bundan sonra da uğurla davam etdirilməsi naminə birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, dost Macarıstan xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 fevral 2024-cü il*

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 10-cu VƏ «YAŞIL ENERJİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 2-ci İCLASINDA İŞTİRAK

*Gülüstan sarayı*

*1 mart 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Bakıda Gülüstan sarayında «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və «Yaşıl Enerji» Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında iştirak etmişdir.*

*Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Baş Nazir cənab Rama!

Hörmətli komissar xanım Simson!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, Baş Nazir Edi Ramanı salamlamaq və bu vacib tədbirdə bizimlə birlikdə olduğuna görə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan və Albaniya iki dost ölkədir. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik. Bizim olduqca fəal siyasi dialoqumuz vardır. Bizim cənab Baş Nazirlə istər Azər-

baycan, istər Albaniya, istərsə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsindəki görüşlərimizin müntəzəm gündəliyi vardır. Biz bir-birimizi beynəlxalq təsisatlarda dəstəkləyir, habelə enerji təhlükəsizliyi məsələlərində fəal çalışırıq. Albaniya «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində çox vacib rol oynayıb və TAP heyətinin üzvü qismində vacib rol oynamaqda davam edir. Hazırda isə biz enerji əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə edirik. Əminəm ki, cənab Baş Nazirlə bugünkü müzakirəmiz zamanı gündəlikdə duran bütün məsələləri əhatə edəcəyik.

Mən həmçinin xanım komissar Simsona da növbəti dəfə ölkəmizə səfər etdiyinə görə minnətdarlığımı ifadə etmək istərdim. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Energetika naziri və xanım Simson «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının həmsədrləridir. Onlar genişlənməkdə olan böyük heyətin bir araya gətirilməsi və əlbəttə, Avropa İttifaqının bütün planlarımızın reallaşdırılmasında yer alması baxımından vacib rol oynayırlar. Enerjinin şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərində Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı yeni təchizat coğrafiyasının yaradılmasına xidmət etmişdir.

Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub – biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqemiz hər za-

man dəyişməz olub və bu gün də belədir – şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir.

Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə, «Cənub Qaz Dəhlizi» tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar – interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük.

Burada, Gülüstan sarayında sonuncu – 1 il əvvəlki görüşümüzdən bu yana bir neçə mühüm hadisə baş verib. Bildiyiniz kimi, adətən, Məşvərət Şurasının toplantıları zamanı bu qrup görülmüş işləri və qarşıda duran məsələlərin həlli baxımından görüləcək əlavə tədbirləri nəzərdən keçirir. Ən başlıcası isə atılacaq birgə addımları planlaşdırır.

Ötən il baş verən vacib hadisələrdən biri Xəzər dənizinin Azərbaycana məxsus sektorunda, «Abşeron» qaz-kondensat yatağında təbii qazın kommersiya hasilatı oldu. Bu, «Şahdəniz»dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir. «Abşeron» qaz-kondensat yatağı bizim gələcək şaxələndirmə layihələrimizin resurs bazasını təşkil edəcək. «Abşeron» layihəsinin ilk fazası artıq təsdiq edilib. Biz orada illik hasilatın 1,5 milyard kubmetr həcmində olmasını gözləyirik. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr

həcm əlavə ediləcəkdir ki, onun böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaqdır.

Növbəti nailiyyət hesab etdiyim bir hadisə Azərbaycanın daha iki ölkə – Macarıstana və Serbiyaya qaz nəql etməsi oldu. Beləliklə, bizim Avropaya qaz təchizatımızın coğrafiyası genişlənmiş oldu. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan 6-sı Avropa ölkəsidir. Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində ilk növbədə, «Cənub Qaz Dəhlizi» layihəsi dayanır. İkincisi isə, onlar bizə Avropada mümkün qədər çox məntəqəni əhatə etməklə bağlı səylərimizi davam etdirməyə imkan verəcəkdir.

Azərbaycan qazına olan mövcud tələbat var, ixtiyarımızda mənbələr var və nəqliyyat marşrutlarımız yerindədir. Yeri gəlmişkən onu da deyim ki, ötən il ərzində türkiyəli dostlarımızla fəal kommunikasiya nəticəsində biz Türkiyə vasitəsilə Trans-Balkan boru kəməri sistemindən istifadə etmək razılığına gəldik. Bu isə şaxələndirmə layihəsi daxilində növbəti şaxələndirmə deməkdir. Daha artıq alternativlər və seçimlər ola bilər. Çünki onların hər biri enerjinin şaxələndirilməsi, enerji təhlükəsizliyinin maksimum səmərəliliklə təmin olunması kimi vahid məqsədə xidmət edir.

Hesab edirəm ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur.

Bizim enerji layihələrimizlə bağlı daha bir məqam ondan ibarətdir ki, dost Birləşmiş Ərəb Əmirliklərini təmsil edən ADNOC şirkəti Abşeron layihəsinin səhmdarı oldu. Biz bunu alqışlayırıq, heyətimizə xoş gəlmisiniz. Bu, əlavə maliyyələşmə, təcrübə deməkdir və beynəlxalq əməkdaşlığı genişləndirəcəkdir. Bizimlə birgə çalışmaq arzusunda olan enerji şirkətlərindən çoxsaylı müraciətlər daxil olur. Bu müraciətlər həmin şirkətlərin fəaliyyət göstəricilərinə və bizim enerji gündəliyimizə əsasən nəzərdən keçirilir.

Gələcək planlarımıza gəldikdə, bu gün biz onları geniş müzakirə edəcəyik. Mən onlardan yalnız bir neçəsini səsləndirmək istərdim. İlk növbədə, biz gələn ilin ilk rübündən etibarən «Azəri–Çıraq–Günəşli» dərin qaz layihəsi çərçivəsində təbii qazın hasilatını gözləyirik. Bu, çox böyük ehtiyata malik olmaqla ümidverici strukturdur. Uzun illərdir ki, «Azəri–Çıraq–Günəşli» bizim neft ixracımızın əsas mənbəyidir. Hazırda kəşfiyyata başlanılması ilə bağlı tərəfdaşlarımızla razılığa gəlmişik və bu, əlavə töhfə olacaqdır. İlkin mərhələdə hasilat təqribən yarım milyard kubmetr olacaq, ancaq bir neçə il ərzində bu rəqəm 3-4 dəfə artacaqdır. Bu, «Şahdəniz» və «Abşeron» yataqlarından hasil ediləcək həcmlərlə yanaşı, yeni mənbə olacaqdır.

Bununla yanaşı, bizim «Ümid» qaz-kondensat yatağının ikinci fazasının işlənilməsi ilə bağlı planlarımız var ki, potensial olaraq oradan da 3-4 il ərzində 2-3 milyard kubmetr qaz əldə etmək olar.

Beləliklə, bütün bu planlar tamamilə realdır, onlar müfəssəl təhlilə, məlumata, informasiyaya və bizim maliyyə resurslarına, habelə investorlarla razılaşmalarımıza əsaslanır. Layihələrin bəziləri investorlarla birlikdə icra olunacaq, bəziləri isə SOCAR-ın özü tərəfindən həyata keçiriləcək. Bütün bunlar göstərir ki, potensial var və artmaqdadır. Uzun illərdir ki, ortalıqda yayılan və Avropa istehlakçılarının artmaqda olan ehtiyaclarını ödəmək üçün «Azərbaycanda kifayət qədər qaz yoxdur» kimi səslənən bütün şayiələr bir daha göstərdi ki, onlar tamamilə əsassızdır, bizim potensialımızın qarşısını almaq, beynəlxalq birliyə və istehlakçılara yanlış mesaj göndərmək üçün Azərbaycana qarşı yürüdülən kampaniyanın bir hissəsidir.

Azərbaycan, həmçinin «yaşıl enerji»yə keçid prosesində iştirak edir. Bu il Azərbaycanda «Yaşıl dünya naminə həmrəylik ili» elan olunmuşdur. Bizim bərpa olunan enerji layihələrimiz yüksək göstəricilər nümayiş etdirir. Ötən görüşümüzdən bəri sizə məlumat vermək istəyirəm ki, bu layihələr arasında keçən ilin oktyabr ayında Azərbaycanda açılışını etdiyimiz ilk böyük Günəş elektrik stansiyası yer alır və bu stansiyanın gücü 230 meqavatdır. Bu stansiya bərpa olunan enerji sahəsində aparıcı şirkətlərdən biri olan «Masdar» tərəfindən inşa olunmuşdur və bu, yalnız başlanğıcdır. İmzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsasən, 2030-cu ilədək biz 5000 meqavata qədər, yəni 5 qiqavat Günəş və külək enerjisi istehsal etməyi planlaşdırırıq.

Bizim əsas investorlarımız Birləşmiş Ərəb Əmirliklərindən «Masdar» və Səudiyyə Ərəbistanından olan «ACWA Power» şirkətləridir. Həmçinin digər ölkələrdən olan şirkətlər də bizimlə çalışır. Bizim bərpa olunan enerji ehtiyatları baxımından nəhəng potensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyiniz kimi, biz «Qara Dəniz Yaşıl Kabel» layihəsi ilə Avropaya «yaşıl enerji»nin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq. Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla, Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə, bərpa olunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq.

Bu da «Cənub Qaz Dəhlizi»nə əlavə bir töhfə olacaqdır. «Cənub Qaz Dəhlizi» artıq 3 ildir ki, fəaliyyətdədir, bu layihə həqiqətən də uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki «Cənub Qaz Dəhlizi»nin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı.

Beləliklə, biz indi vacib bir məqama gəlirik. Bu məqamın tərəfdaşlıq və əməkdaşlığın qurulması üçün enerjinin və qazıntı yanacağının bir alət və va-

sitə olduğunu görürük. Qazıntı yanacağı məsələsi ilə bağlı sonuncu məqam. Biz indi qazıntı yanacağının bir növ, yalnız problem yaradan bir məsələ olması meylini görürük. Biz ədalətli olmalıyıq və eyni zamanda, neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli olmalıyıq. Bu ölkələrin günahı deyil ki, onlarda neft və qaz var. Onlar buna görə günahlandırılmamalı və onlara qarşı ayrı-seçkilik olmamalıdır. Hesab edirəm ki, qazıntı yanacağına malik olan ölkələrin fəaliyyəti onların ətraf mühitin müdafiəsi, «yaşıl enerji»yə keçid məsələlərini necə həll etdikləri baxımından qiymətləndirilməlidir. Yalnız bundan sonra, ədalətli təhlildən sonra bu ölkələr barədə mühakimə yürütmək olar. Əks təqdirdə, biz neft və qaz istehsal edən ölkələr və bu resurslara malik olmayan ölkələr arasında sanki ayırıcı xətlər görəcəyik.

Bu məsələ haqqında danışarkən, burada bu masada dünyanın aparıcı maliyyə institutlarının nümayəndələrinin olduğunu nəzərə alaraq, diqqətinizi maliyyələşmə məsələsinə yönəltmək istəyirəm. «Cənub Qaz Dəhlizi»nin genişlənməsinin və təbii qaza aid istənilən digər layihənin maliyyələşməsi elə bir şəkildə aparılmalıdır ki, bizim əsas hədəfimizə mane olmasın.

Avropada Azərbaycan qazına böyük tələbat var idi və olmaqda qalır. Bizə bir çox ölkələr müraciət etmişdir, dediyim kimi, artıq 6 ölkə bizim təbii qazı alır. Əlavə bir neçə ölkə ilə danışıqlar aparılır. Qaza tələbat var və bizim resurslarımız var, bizim infrastrukturumuz var. Hesab edirəm ki, Avropa

maliyyə institutlarından maliyyələşmə, ən azından bu layihənin maliyyələşməsi real yanaşmaya əsaslanmalıdır və ümumi hal almış qazıntı yanacağına qarşı meyillərin kölgəsi altına düşməməlidir.

Biz hamımız nələrin baş verdiyini bilirik. Azərbaycan, qeyd etdiyimiz kimi, «yaşıl enerji»yə keçid prosesinin aktiv fazasındadır. Lakin heç kim bu faktı dana bilməz ki, ən azından yaxın gələcəkdə qazıntı yanacağı olmadan dünya inkişaf edə bilməz.

Sonuncu məsələ, Azərbaycana COP29-a sahiblik edən ölkə olmaq şərəfi nəsib olmuşdur. Keçən ilin dekabrında qərar qəbul olunan kimi biz dərhal, yalnız bir səbəbdən müxtəlif QHT-lər və media təşkilatlarının hücumuna məruz qaldıq. Çünki bizim neftimiz var və bu, ən böyük nöqsanımız hesab olunur. Baxmayaraq ki, qeyd etdiyim kimi, bu, qüsur deyil, Allahdan bir hədiyyədir. Lakin bizə hücum edərək dedilər ki, necə ola bilər ki, qazıntı yanacağı ilə zəngin olan bir ölkə COP-a ev sahibliyi etsin?! Gəlin bu məsələyə başqa bir bucaq altında baxaq. Bəli, bizim kifayət qədər neftimiz, kifayət qədər qazımız var. Biz növbəti 100 il ərzində bərpa olunan enerji resursları olmadan yaşaya bilərik. Bizim bütün ehtiyatlarımız təsdiq edilib və hər kəs bunu bilir.

Lakin iqlim dəyişikliyi ilə bağlı olan bu qlobal tədbirə ev sahibliyi etmək istəyimizin olması faktı bizim iradəmizi nümayiş etdirir. Bizə buna görə hücum edilməməlidir, biz təqdir edilməliyik. Biz heç bir yanlış iş görməmişik, lakin qərar qəbul olunan kimi bizə qarşı dərhal əlaqələndirilmiş, konsolidasiya olunmuş və çox ədalətsiz hücum edildi.

Əvvəlki illərdə Azərbaycana qarşı çoxlu hücumlar olmuşdur, biz buna adət etmişik, biz özümüzü müdafiə edə bilərik. Lakin mən sizə sadəcə, məlumat vermək istəyirəm ki, COP29-un Azərbaycanda təşkil edilməsi qərarı, yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir və bizim tədbirə ev sahibliyi etmək, bu işə töhfə vermək istəyimiz «yaşıl gündəliyimizi» nümayiş etdirir.

Bununla da çıxışımı burada bitirirəm. Bir daha bizimlə bir yerdə olduğunuz üçün təşəkkür edirəm. Fürsətdən istifadə edərək, hamınızı COP29-a aparan bu mühüm yolda bizim tərəfdaşımız olmağa dəvət etmək istəyirəm. Təşəkkür edirəm.

**Pərviz Şahbazov** (*Energetika naziri*): Zatialiləri Prezident Əliyev, biz Sizin dəyərli çıxışınıza görə təşəkkürümüzü bildiririk və bu Məşvərət Şurası yarandığı gündən «Cənub Qaz Dəhlizi»nə böyük töhfə vermişdir. İndi bu platforma məhz Sizin baxışlarınıza uyğun olaraq genişlənir. Çünki «Yaşıl Enerji» Məşvərət Şurası da var və biz Sizin davamlı dəstəyinizə ümid edirik. İndi isə sözü zati-aliləri, Albaniyanın Baş Naziri cənab Edi Ramaya vermək istəyirəm. Cənab Baş Nazir, söz Sizindir.

## Albaniyanın Baş Naziri Edi Ramanın çıxışı

Möhtərəm Prezident Əliyev, əziz dost!

Hörmətli dostlar!

Bu gün mənə göstərilən qonaqpərvərliyə görə hədsiz dərəcədə minnətdaram. Həmçinin cənab Prezidentin Azərbaycan və Albaniya arasında əmək-

daşlığımızın mahiyyətini, habelə şəxsi münasibətimizi təsvir edən ifadələri məni qürurlandırdı.

8 il əvvəl nazirlər səviyyəsində keçirilən iclasda Prezident Əliyev demişdir ki, «Cənub Qaz Dəhlizi» beynəlxalq əməkdaşlığın unikal formatının təməlini qoyur. Bu, ölkələr, şirkətlər və maliyyə institutları arasında olan yeni əməkdaşlıq təcrübəsi gələcək illər ərzində bir çox digər sahələri də əhatə edəcək. Cənab Prezident bunu proqnozlaşdıra bildi.

Həqiqətən də bu yeni enerji İpək yolu olan «Cənub Qaz Dəhlizi» sıx əməkdaşlıq baxımından körpü oldu və ölkələr, şirkətlər, maliyyə institutlarını elə bir formatda bir araya gətirdi ki, bu, layihənin təklif etdiyi imkanlara dair istəyi daha da artırdı. Bu gün bu format elə bir körpü rolunu oynayır ki, onun tərkib hissəsini «yaşıl enerji» təşkil edir.

Bu gün hamımız «Cənub Qaz Dəhlizi»nin bir çoxlarının həyatını dəyişdirdiyinin şahidiyik və bu layihə Avropanı daha da təhlükəsiz etdi. Avropanın ehtiyatlarını artırmaqda olduğu bir vaxtda «Cənub Qaz Dəhlizi» heç şübhəsiz ki, Avropa İttifaqına boru kəməri ilə nəql edilən təbii qazın nadir və sabit mənbələrindən biri olmaqda davam edəcək. Avropaya Rusiyadan nəql edilən qaz payının 40 faizdən 8 faizə və tezliklə sıfıra bərabər olacağını, «yaşıl gündəlik» və karbonsuzlaşma məsələlərinin olduqca aktual olduğunu nəzərə alaraq, Azərbaycan qazı və Xəzər hövzəsi bizim birgə gələcəyimiz üçün mühüm rol oynayır.

Albaniyaya gəldikdə, biz strateji baxımdan Trans-Adriatik boru kəmərinin marşrutu üzərində yerləşi-

rik və bu, «Cənub Qaz Dəhlizi» layihəsinin mühüm halqasıdır. Əlbəttə, biz bu transformasiya imkanına malik dəhlizin imkanlarından istifadə etmək niyyətindəyik. Bunun üçün biz bərpa olunan enerji layihələrinə sərmayə qoymağı və dayanıqlı enerji infrastrukturu yaratmağı hədəfləyirik.

Hazırda Albaniya tam şəkildə bərpa olunan enerjidən faydalanan ölkədir. Lakin bizə enerji mənbələrinin şaxələndirilməsi lazımdır və biz bu istiqamətdə çalışırıq. Bizim üçün şaxələndirilmə əsasən hidroelektrik enerjisi deməkdir.

Bərpa olunan enerji layihələrinə sərmayə qoyuluşu bizim üçün həlledicidir və son illərdə bu, Albaniyanı «yaşıl keçid» və enerji sektorunda innovasiyalar baxımından təbii məkana çevirib. Bu baxımdan «Cənub Qaz Dəhlizi» kontekstində «yaşıl hidrogen»ə dair dialoqun başlanılması çox vacibdir.

Bu, bir daha uzaqgörən təşəbbüsün dəyərini təsdiq edir. İlk olaraq, bu, ətraf mühitin qorunması ilə bağlı narahatlıqla əlaqədar alət təklif edir və dəhlizin qlobal dayanıqlılıq hədəfləri ilə uyğunluğunu təşviq edir. İkincisi, «yaşıl hidrogen» yeni iqtisadi imkanlar açır, təmiz enerji sektorunda innovasiyanı, tədqiqatı və inkişafı təşviq edir. Nəhayət, bu, dəhlizi karbonsuzlaşmanı hədəfləyən dünyanın dəyişməkdə olan tələblərinə cavab verən uzaqgörən layihə olaraq təqdim edir.

Diqqətinizə çatdırmaq istərdim ki, azərbaycanlı dostlarımız mövcud infrastrukturumuzun inkişafı üçün ən əlverişli ssenarilərin müəyyən edilməsi və enerji sahəsinin çağırışlarına uyğunlaşdırılması baxı-

mından təcrübələri ilə bölüşərək bizə əvəzsiz töhfə verirlər. Buna görə dərin minnətdarlığımızı bildiririk.

Hazırda biz Albaniyanın qazlaşdırılması layihəsi üzərində işləyirik və Prezident Əliyevin dəstəyi sayəsində ənənələrin tarixən bizi məhrum etdiyi bir iş üzərində çalışırıq. Tariximizlə yaxından tanış olmayanlar üçün deyim ki, biz özümüzü hər zaman həm Qərbdən, həm də Şərqdən təcrid edərək, sanki əsl kommunizm uğrunda yeganə mübarizə aparan olmuşuq. Biz amerikan və sovet imperializmini rədd etmişik və Avropanın mərkəzində Şimali Koreyada yaşamışıq. Demək olar ki, bütün qaz və dəmir yolu sistemlərimiz ya mövcud olmayıb, ya da dünyadan təcrid vəziyyətdə olub.

Həmin səbəbdən biz inkişaf kursumuzun bu mərhələsinə böyük əhəmiyyət veririk. TAP çərçivəsində əldə etdiyimiz təcrübəyə əsasən, biz tərəfdaşlarımızla birlikdə Albaniyanın cənubunda maye qaz terminalları inşa etməyi planlaşdırırıq.

Xanımlar və cənablar! Marko Polo Bakı ərazisində neft quyularının səpələndiyini, neftdən işıqlandırma və sağlamlıq məqsədləri üçün istifadə olunduğunu qeyd edirdi. 1877-ci ildə Çarlz Marvin dünyaya sübut etmişdi ki, hətta İsa peyğəmbərdən əvvəl belə, bu gün Bakının yerləşdiyi Abşeron yarımadasından neft indiki İran, İraq, Hindistan və digər ölkələrin ərazisindən nəql edilirdi.

Keçmişdə Bakının nəhəng sərvəti Avropa və Asiya sivilizasiyalarının qızıl erasını dəstəkləyib. Bu gün həmin resurslar və həmin qaz yataqları ölkələrimizin qızıl erasını dəstəkləmək potensialına

malikdir. Bu, dekarbonizasiya və dayanıqlı enerji təchizatına əsaslanmış çoxtərəfli əməkdaşlıq, davamlı sülh və tərəqqi erasıdır.

Çıxışımın yekununda Prezident Əliyev tərəfindən qeyd edilmiş bir təşəbbüsə münasibət bildirmək istərdim. COP ilə bağlı məşəlin Azərbaycan tərəfindən götürülməsini və tədbirə ev sahibliyi etməsini nəzərdə tuturam. Bu, böyük göstəricidir. Çünki qazıntı yanacağı ilə zəngin bir ölkə qərar verir ki, gəlin hamımız birlikdə düşünək: «yaşıl enerji»yə keçid necə real və bütün dünya üçün faydalı ola bilər. Bu mənada Azərbaycan və bu tədbirə ev sahibliyi edən dəyərli şəxs ən yüksək təqdirə layiqdir. Cənab Prezident, çox təşəkkür edirəm. Sağ olun.

* * *

**Kadri Simson** (*Avropa İttifaqının energetika məsələləri üzrə komissarı, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasını həmsədri*): Prezident Əliyev, Baş Nazir Rama, zati-aliləri, xanımlar və cənablar! Mən bu gün Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasının açılışında iştirak etməkdən məmnunam. İcazə verin, çıxışıma Prezident Əliyevin yenidən dövlət başçısı seçilməyi münasibətilə təbriklə başlayım. Həmçinin ötən il məhsuldar əməkdaşlığa görə həmkarım nazir Şahbazova təşəkkürümü bildirmək istəyirəm. Həmişə olduğu kimi, burada – Bakıda səmimi qəbula görə hamınıza minnətdaram.

Mən artıq üçüncü dəfədir ki, Məşvərət Şurası çərçivəsində nazirlərin iclasında iştirak edirəm və elə bilirəm ki, biz keçmişə nəzər salmalıyıq ki, gö-

rək Avropa İttifaqı–Azərbaycan arasındakı bu tərəfdaşlıq layihəyə nə verib. Mən 2019-cu il dekabrın 1-də səlahiyyətlərimin icrasına başladım və həmin vaxt məhz TANAP qaz boru kəmərinin Avropaya çıxması anı idi. Azərbaycan qazının Avropa İttifaqına ilk axını bir il sonra – 2020-ci il dekabrın 31-də başlandı. O vaxt COVID vaxtı idi, təmaslar çətin idi. Avropada bəziləri düşünürdü ki, «Cənub Qaz Dəhlizi» artıq başa çatmış bir missiyadır və buna daha çox diqqət yetirilməli deyil. Mən belə düşünmürdüm. Mən hər zaman görürdüm ki, Azərbaycan etibarlı tərəfdaşdır və əməkdaşlığımızın genişləndirilməsi üçün onun güclü potensialı vardır. Mən 2022-ci ildə burada ilk iclasda dedim ki, necə edək ki, bizim münasibətlərimizin bütün potensialı daha da genişlənsin və bu dəhliz yeni bazarlara çıxsın, təmiz enerjiyə gəldikdə isə biz öz işimizin miqyasını artıraq və bütün bunlar baş verdi.

Bu gün qaz axını Avropaya «Cənub Qaz Dəhlizi»ndən gedir və 2021-ci illə müqayisədə bu, 46 faiz çoxdur. 2023-cü ildə Avropa İttifaqı Azərbaycandan 11 milyard kubmetr sabit və təhlükəsiz şəkildə qaz təchizatını qəbul edib. Avropa İttifaqının üzv dövlətləri və genişlənməyə namizəd olan ölkələr bu qazın alınmasında maraqlıdırlar. Artıq dediyim kimi, ötən il sizin Panavropa təchizatçısına çevrildiyinizi gördük və bu baxımdan, əslində bu həcmlərin artırılması üzərində işləyirik. Biz ümidvarıq ki, Azərbaycandan daxil olan təbii qaz Avropanın enerji sistemində enerji keçidi zamanı mühüm rol oynayacaqdır. Rusiyanın artan zorakılığı və davam

edən əsassız müharibə şəraitində tamamilə aydındır ki, Avropa üçün Rusiya ilə enerji sahəsində işlərimiz əvvəlki kimi olmayacaqdır. Çünki hazırda görürük ki, digər etibarlı enerji tərəfdaşlarımız var və onlardan biri məhz Azərbaycandır. Sizi əmin edə bilərəm ki, Avropa İttifaqının Azərbaycanla əməkdaşlığı uzunmüddətlidir və bu səbəbdən Azərbaycan «Cənub Qaz Dəhlizi»nin genişləndirilməsi üzərində işləyir. 2027-ci ilə qədər qaz ticarətini iki dəfə artıracağıq və ən vacibi isə Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji əməkdaşlığı öz çevikliyini və dinamikliyini göstərir.

«Cənub Qaz Dəhlizi», həmçinin bərpa olunan enerji və elektrik enerjisi sahəsində əməkdaşlıq üçün foruma çevrilə bildi. Bu, inanılmaz nəticədir və layihənin nə dərəcədə gələcəyə yönəlmiş və açıq olduğunu sübuta yetirdi. Biz təmiz enerjini Avropa İttifaqı–Azərbaycan arasında ikitərəfli münasibətlərin əsas hissəsinə çevirdik. Biz burada küləklər şəhərindəyik. Bu, Xəzər dənizində böyük bərpa olunan enerji potensialının növbəti bir nümunəsidir. Azərbaycan 2030-cu ilə qədər bərpa olunan enerji həcminin 3 dəfə və enerji səmərəliliyinin 2 dəfə artırılması ilə bağlı qlobal təşəbbüsə dəstək olaraq COP28-də Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşlara qoşulmuşdur. Həmin beynəlxalq təşəbbüs beynəlxalq ticarət və sərmayə üçün daha yaxşı şərait yaratmaq və milli səviyyədə enerji keçidini sürətləndirmək üçün ölkələr daxilində aydın şəkildə müəyyən edilmiş öhdəliyə uyğundur. Mən bu sahədəki təşəbbüsü alqışlayıram və biz hazırda Azər-

baycanla işləmək məqsədilə Avropa İttifaqının bərpa olunan enerji şirkətlərinin artan marağını görürük. Bu nazirlər iclasında Avropa İttifaqının külək enerjisi şirkətləri ilə Anlaşma Memorandumunun imzalanması çox mühüm addımdır. Bərpa olunan enerjiyə aid bu öhdəlik, həmçinin Avropa ilə yeni qarşılıqlı layihələrə yol açır.

Biz bu gün Cənubi Qafqaz ilə Avropa İttifaqı arasında «Yaşıl enerji dəhlizi» layihəsini müzakirə edəcəyik. Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi təşəbbüsü region üçün xüsusi önəm daşıyır. O həmçinin Avropa İttifaqına gələcəkdə elektrik enerjisi ixracında Azərbaycanı əsas tərəfdaş kimi müəyyən edir. Bu vacibdir, çünki Avropa İttifaqında elektrik enerjisinin istehlakı artacaqdır. 2030-cu ilə qədər 16 faizdən artıq və 2040-cı ilə qədər təxminən 80 faizə qədər elektrik enerjisi tələbatının artması nəzərdə tutulur. Bu, gələcək infrastruktur layihələri, həmçinin bizim üçün vacibdir. Təsadüfi deyil ki, Azərbaycan noyabrda BMT-nin növbəti İqlim Dəyişmələri Konfransına ev sahibi seçilmişdir. Bu Sizin yorulmaz fəaliyyətinizin nəticəsi, kompleks infrastruktur layihələrinin icrasında bacarığınızın təzahürü və «yaşıl keçid»lə bağlı Sizin gələcək baxışlarınızdır. Şübhə etmirəm ki, bu, uğurlu COP29 olacaqdır və tam əminliklə Siz Avropa İttifaqının dəstəyinə arxalana bilərsiniz.

Biz bütün maraqlı dairələrlə işləməyə hazırıq və enerji səmərəliliyi ilə bağlı olan təşəbbüslərin icrasına töhfə vermək istəyirik. Biz həm ikitərəfli, həm qlobal metan qazı təşəbbüsü xətti ilə neft və qaz

sənayesindən metanın havaya atılmasının azaldılması məsələsində çalışmağa hazırıq. Təbii ki, bu bizim strateji məqsədlərimizdir.

Zati-aliləri, xanımlar və cənablar! Son illər ərzində «Cənub Qaz Dəhlizi» uğur hekayəsinə çevrilib. Bu hekayənin yeni qəhrəmanları vardır. Mən bu gün xüsusi məmnunluqla Baş Nazir Ramanın yanında əyləşmişəm, masa arxasında Qərbi Balkanlar və Cənub-Şərqi Avropadan, eləcə də Avropa İttifaqından rəsmi nümayəndələri görürəm. Şadam ki, Avropa İttifaqı ilə Azərbaycan belə müsbət münasibətlər qurub. Biz «Cənub Qaz Dəhlizi» çərçivəsində bütün tərəfdaşlarla başladığımız işin davam etməsini səmimiyyətlə arzulayırıq. Enerji şaxələndirilməsini birlikdə sürətləndirə bilərik və iqlim neytrallığı üçün əmin yolla gedə bilərik.

Prezident Əliyev, çox səmimi qəbula görə bir daha Sizə təşəkkürümü bildirirəm və hamınıza diqqətinizə görə minnətdaram.

**Pərviz Şahbazov:** Komissar Simson, fəal həmsədrliyinizə görə təşəkkürümü bildirirəm və bizim Şura çərçivəsində enerji sahəsindəki əməkdaşlığa verdiyiniz dəstəyə görə minnətdaram. Bununla bizim açılış sessiyamız başa çatır.

Cənab Prezident, cənab Baş Nazir, bu gün bizimlə olduğunuza görə sizə təşəkkürümüzü bildiririk.

* * *

*Toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla, 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil*

*olunmuşdu. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksək səviyyəli nümayəndələr iştirak etdilər.*

*Toplantı açılış sessiyasından sonra işini «Cənub Qaz Dəhlizi və «yaşıl enerji» üzrə nazirlər sessiyası», «Cənub Qaz Dəhlizi» sessiyası: gələcəyə baxış» və «COP29 fonunda «yaşıl enerji» sessiyası: bərpa olunan enerjinin imkanlarından istifadə» mövzularında plenar sessiyalarla davam etdirdi.*

*Həmçinin Məşvərət Şurası çərçivəsində «Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında «yaşıl enerji»nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş»in icrası məqsədilə nazirlərin 6-cı iclası və «Dənizdə külək enerjisindən istifadənin inkişafı» üzrə Azərbaycan–Avropa İttifaqı dəyirmi masası keçirildi.*

*Xatırladaq ki, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir və bu il tədbirin 10 ili tamam oldu.*

## QEYDLƏR

**1. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Balkan yarımadasının cənub-qərbində yerləşən ölkə. Adriatik və İon dənizləri sahilində yerləşir və şimal-qərbdən Monteneqro, şimal-şərqdən Kosovo, şərqdən Şimali Makedoniya və cənubdan Yunanıstan ilə həmsərhəddir. Ərazisi 28,7 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. Paytaxtı Tirana şəhəridir. – 5, 299, 300, 308, 311.

**2. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexa-

nizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilli-

yin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5–7, 9–12, 14–16, 18–37, 39, 42–52, 54–71, 73–80, 83–86, 88, 90, 92–94, 96–98, 100–112, 114, 115, 117–126, 128–142, 144–150, 154, 155, 169, 183, 240, 251, 274, 281, 282.

**3. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6, 14, 34, 35, 36, 65, 77, 85, 97, 117, 135, 149, 265, 266, 295, 296, 309, 314.

**4. Küveyt,** K ü v e y t D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 4,6 milyon

nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Qanunverici orqan və hökumət Əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı Əl-Küveyt şəhəridir. – 9, 92, 264.

**5. Bəhreyn,** B ə h r e y n K r a l l ı ğ ı – Fars körfəzində yerləşən ada dövlət. Ümumi sahəsi 780 $km^2$, əhalisinin sayı 1,7 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Qanunverici hakimiyyət Əmirə və birpalatalı Milli Məclisə məxsusdur. Paytaxtı Manama şəhəridir. – 10.

**6. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i k a s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min $km^2$, əhalisi 100,2 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı Prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 11.

**7. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min $km^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 12, 62.

**8. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi

65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 16, 17, 142.

**9. Rişi Sunak** (d.1980) – Britaniya siyasətçisi və dövlət xadimi. 24 oktyabr 2022-ci ildən Britaniya Mühafizəkarlar Partiyasının rəhbəri, 25 oktyabr 2022-ci ildən isə Birləşmiş Krallığın Baş Naziridir. – 16.

**10. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 16, 219, 244, 293.

**11. COP29** – 2024-cü ildə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi Konfransı. COP tədbirlərinin məqsədi dünyada karbon qazının miqdarını məhdudlaşdırmaqdır. – 16, 42, 54, 56, 82, 86, 90, 91, 98, 101, 105, 115, 130, 139, 142, 144, 145, 151, 175, 178, 181, 193, 196, 202, 204, 205, 206, 209, 211, 212, 214, 215, 218, 220, 221, 223, 224, 225, 226, 228, 229, 232, 233, 234, 236, 237, 245, 248, 290, 307, 308, 315, 317.

**12. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 84,4 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bun-

destaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 18, 115, 199, 208, 210 , 198, 207, 209, 215, 216, 233, 236, 289, 290, 291, 294, 295, 296.

**13. Olaf Şolts** (d.1958) – Almaniya siyasətçisi və dövlət xadimi. Almaniya Sosial-Demokrat Partiyasının üzvüdür. 8 dekabr 2021-ci ildən Almaniyanın Federal Kansleridir. – 18, 215, 233, 291, 294.

**14. İsrail,** İ s r a i l D ö v l ə t i – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 19, 37, 74, 132, 208, 253.

**15. İshaq Hersoq** (d.1960) – İsrail siyasətçisi və dövlət xadimi. 2021-ci ildən İsrail Dövlətinin Prezidentidir. – 19.

**16. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 125,4 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 20, 112, 260.

**17. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sül-

hü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 21, 22, 39, 42, 54, 55, 56, 57, 82, 88, 119, 129, 139, 144, 151, 211, 245, 315.

**18. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət və siyasi xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların işi üzrə baş komissar olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 21.

**19. «Şərq Tərəfdaşlığı» Proqramı** – Avropa İttifaqının üzv ölkələri Polşa və İsveçin MDB-yə daxil olan Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukrayna ilə qonşuluq siyasəti çərçivəsində münasibətlərin yaxşılaşdırılmasına aid layihə. – 22, 151.

**20. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına

hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 22, 151, 176, 197, 216, 223, 224, 292, 300, 309, 312, 313, 314, 315, 316, 317.

**21. Türkiyə,** T ü r k i y ə R e s p u b l i k a s ı – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 85,3 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 23, 30, 45, 50, 51, 64, 67, 75, 80, 123, 193, 194, 210, 238, 239, 240, 241, 242, 243, 245, 246, 247, 249, 250, 251, 252, 254, 255, 256, 257, 261, 262, 268, 269, 287, 302.

**22. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 20 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Astana şəhəridir. – 24.

**23. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın birinci Prezidenti –

elbası, Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər isə Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 24.

**24. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 25, 26, 27, 90, 91, 145, 195, 224, 227, 228, 233, 303, 304.

**25. Şeyx Xəlifə bin Zaid əl-Nəhyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 25, 27, 195, 227, 228.

**26. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 5,6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı Sultandır. Paytaxtı Məskət şəhəridir. – 28.

**27. Monteneqro** – Cənub-Şərqi Avropada dövlət. Monteneqro Balkan yarımadasında yerləşir. Sahəsi

13,8 km$^2$, əhalisi 630 min nəfərdir. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Podqoritsa şəhəridir. – 29, 108.

**28. Milo Cukanoviç** (d.1962) – Monteneqro dövlət xadimi və siyasətçisi. 1997–1998, 2003–2006, 2008–2010, 2012–2016-cı illərdə Monteneqronun Baş Naziri, 2018–2023-cü illərdə isə Monteneqro Prezidenti olmuşdur. – 29.

**29. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 31, 34, 157, 159, 160, 161, 164, 166, 169, 173, 174, 179, 180, 254, 255, 256, 272, 275, 276, 283, 292.

**30. Qarabağ** – Azərbaycan Respublikası ərazisində keçmiş muxtar vilayət. Öncə ərazisi 4161 $km^2$ olmuş, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 $km^2$-dək genişləndirilmişdi. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdi.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdılar.

Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV ərazisində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi.

Azərbaycan Ordusunun Qarabağda keçirdiyi uğurlu antiterror və hərbi əməliyyatlarından sonra Qarabağ tamamilə azad edilmişdir. – 31, 67, 80, 123, 128, 131, 157, 160, 162, 167, 176, 202, 247, 252, 256, 271, 280, 287, 293

**31. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 29,12 $km^2$, əhalisi 55 min nəfərdir. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatlarından sonra 29 sentyabr 2023-cü ildə Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını qaldırmışdır. «Zəfər Günü» münasibətilə erməni separatçılarından birdəfəlik azad olunmuş Xankəndidə Qələbə Paradı keçirilmişdir. – 31, 161, 162, 163, 182, 273, 274, 284.

**32. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasının subyekti. Sahəsi 50,2 min $km^2$, əhalisi 3,4 milyon nəfərdir. Dağıstan Respublikası inzibati cəhətdən 42 rayona bölünür. Paytaxtı Mahaçqala şəhəridir. – 34, 97.

**33. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ da-

ğıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 36.

**34. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 34,2 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin və həm də başçılıq edir. Hökumətin

nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanında yerləşir. Paytaxtı Ər-Riyad şəhəridir. – 40, 41, 258, 259, 286, 287, 288, 305.

**35. OPEC+ –** neft ixrac edən ölkələr təşkilatı. 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 42.

**36. «Formula-1»** – açıq təkər tipli avtomobillərin dövrəvi avtoyürüşləri üzrə dünya çempionatı. Çempionat hər il keçirilir və Qran-pri statusu daşıyan ayrı-ayrı mərhələlərdən ibarət olur. Azərbaycan Qran-prisi ilk dəfə 2017-ci ildə Bakı şəhərində keçirilib. – 44.

**37. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 710,8 min km$^2$, əhalisi 37,1 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 46.

**38. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli və dini zəmində yaranmış mübahisə

qanlı hərbi qarşıdurmaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında Saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yaradıldı. Sahəsi 51,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 48, 49.

**39. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – müsəlman ölkələrinin çoxunu birləşdirən təşkilat. 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 52, 53, 120, 152, 180, 224, 225, 226, 245, 246.

**40. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə

yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 53, 159, 163, 182, 245, 253, 274.

**41. Slovakiya,** S l o v a k R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Şimalda Polşa, şərqdə Ukrayna, cənubda Macarıstan, cənub-qərbdə Avstriya, şimal-qərbdə Çexiya ilə həmsərhəddir. Paytaxtı Bratislava şəhəridir. Ümumi sahəsi 49 min $km^2$, əhalisinin sayı 5,4 milyon nəfərdir. Slovakiya parlament respublikasıdır. – 58, 69.

**42. İraq,** İ r a q R e s p u b l i k a s ı – Qərbi Asiyada dövlət. Şimalda Türkiyə, şərqdə İran, cənubda Səudiyyə Ərəbistanı və Küveyt, qərbdə isə Suriya və İordaniya ilə həmsərhəddir. Ərazisi 435 $km^2$, əhalisi 43,8 milyon nəfərdir. Paytaxtı Bağdad şəhəridir. – 59, 60, 136, 137, 138, 213, 214, 311.

**43. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 61.

**44. Portuqaliya,** P o r t u q a l i y a R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 63, 79.

**45. TASS informasiya agentliyi** – Rusiyanın informasiya agentliyi. Dünyanın ən böyük 4 informasiya agentliyindən biri. – 65.

**46. Mixail Qusman** (d.1950) – jurnalist. TASS informasiya agentliyi baş direktorunun birinci müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 65.

**47. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km$^2$, əhalisi 45,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 68.

**48. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Roma şəhəridir. – 73, 106, 110, 199.

**49. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 333,3 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 76, 105, 121, 205, 206, 211, 220, 221, 222, 295, 296.

**50. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Avropanın şimalında Baltik dənizi sahilində dövlət. Sahəsi 338 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Finlandiya inzibati cəhətdən 12 ərazi vahidinə (lyaniya) bölünür. Finlandiya parlament respublikasıdır. Paytaxtı Helsinki şəhəridir. – 78.

**51. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 82, 83, 84, 126, 133, 189, 293, 317 .

**52. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları –** 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad

olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilmişdir. – 82, 165, 170.

**53. UNİCEF –** BMT-nin Uşaq Fondu, 1946-cı ildə uşaq hüquqlarının qorunması üçün qurulmuş təşkilat. Könüllü yardımlar hesabına fəaliyyət göstərir. Mənzil-qərargahı Nyu Yorkda yerləşir. – 86.

**54. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə qərb bazarlarına nəql edir. – 91, 299, 300, 301, 302, 305, 306, 309, 310, 312, 313, 314, 316, 317.

**55. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. Bankın əsas məqsədi kasıb ölkələrə struktur islahatlarının həyata keçirilməsində və yoxsulluğun azaldılmasında yardım göstərməkdir. Ayrı-ayrı ölkələrdə sabit və davamlı inkişafa nail olmaq üçün Dünya Bankı öz maliyyə resurslarından, yüksəkixtisaslı kadrlardan və biliklər bazasından istifadə edir. – 98, 175, 234, 235.

**56. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 270 milyon nəfərdir. İnzibati ərazi-

si 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 102.

**57. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 102.

**58. Misir,** Misir Ərəb Respublikası – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 106,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 103, 114, 246.

**59. Sudan,** Sudan Respublikası – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 40,2 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartum şəhəridir. – 107.

**60. Monqolustan** – Mərkəzi Asiyada dövlət. Sahəsi 1,56 milyon km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı Prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 109.

**61. Belçika,** Belçika Krallığı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,4 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır.

Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 111.

**62. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin dövlət və siyasi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 114.

**63. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 119.

**64. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) ümummilli lider Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 137.

**65. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici

orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 146.

**66. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2023-cü illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 150, 178, 180, 212, 224, 225.

**67. Moldova,** Moldova Respublikası– Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişineu şəhəridir. – 153.

**68. Maya Sandu** (d.1972) – Moldova siyasətçisi və dövlət xadimi. 2012–2015-ci illərdə Moldovanın Təhsil naziri, 2014–2019-cu illərdə Moldova Parlamentinin üzvü, 2019–2020-ci illərdə isə Baş Naziri olmuşdur. 2020-ci ildən Moldova Respublikasının Prezidentidir. – 153.

**69. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,

Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və ISESCO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişa-

fına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 154, 183, 184, 238.

**70. Fərhad Abdullayev**, Fərhad Sahib oğlu (d.1958) – hüquqşünas, hüquq elmləri namizədi. 2003-cü ildən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədridir. Əməkdar hüquqşünas və Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvüdür. – 154.

**71. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 157, 178, 293.

**72. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 159, 160.

**73. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 161, 171, 177, 182.

**74. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusu-

nun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi başa çatdı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 165.

**75. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 166, 187, 311

**76. «Şahdəniz» yatağı** – Xəzərin Azərbaycan sektorunda yerləşən dünyanın ən iri qaz-kondensat yataqlarından biri. 1999-cu ildə kəşf olunub. Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50–500 m arasında dəyişdiyi Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir. 1999-cu ilin iyunundan bu günə ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton qaz-kondensatdan ibarət olan nəhəng «Şahdəniz» yatağının kəşf edilməsi və «Şahdəniz» qaz layihəsinin

uğurla həyata keçirilməsi Azərbaycanı dünyaya qaz ixrac edən ölkə kimi tanıdıb. – 176, 301, 303.

**77. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti adından *bp* şirkəti tərəfindən işlənilir. – 176, 303.

**78. Türk Dövlətləri Təşkilatı,** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanmış Naxçıvan müqaviləsi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulmuş beynəlxalq təşkilat. 14 sentyabr 2019-cu ildə Özbəkistan quruma üzv olmuşdur. – 179, 180, 245, 248, 253, 255.

**79. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 km$^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 182, 274.

**80. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi

1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 182.

**81. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 182.

**82. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 km$^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 182.

**83. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Ərazisi 802 km$^2$, əhalisi 40,2 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 182.

